AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

ZEMFİRA HACIYEVA

# İRƏVAN XANLIĞININ TARİXŞÜNASLIĞI

## MONOQRAFİYA

*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

ÇAŞIOĞLU
BAKI 2012

**Elmi redaktor:** tarix elmləri doktoru, professor **Tofiq Mustafazadə**

**Rəyçilər:** tarix elmləri doktoru, professor **Camal Mustafayev**

tarix elmləri üzrə fəlsəfə doktoru **Güntəkin Nəcəfli**

**Hacıyeva Z.Ə.** İrəvan xanlığının tarixşünaslığı/ Monoqrafiya. Bakı: Çaşıoğlu, 2012. - 140 səh.

ISBN 978-9952-27-341-0

Hacıyeva Z.Ə., 2012
"Çaşıoğlu" nəşriyyatı, 2012



# GİRİŞ

XVIII yüzilliyin ortalarında Azərbaycan ərazisində yaranmış feodal dövlətlər müstəqil dövlətçilik ənənələrini özündə ehtiva etmiş, XIX əsrin əvvəlinə, bəziləri isə 1828-ci ilə qədər mövcudluğunu qoruya bilmiş, əksəriyyəti suveren xırda dövlətlər tariximizdə "Azərbaycan xanlıqları" adı ilə yaşamış, milli salnaməmizdə, qan yaddaşında silinməz izlər buraxmışlar. Xanlıqlar sırasında öz fərdiliyi ilə seçilən, Rusiya imperiyasının işğalçı qüvvələrinin hücumlarına rəşadətlə müqavimət göstərmiş, sonda (4-cü hücumu zamanı) xəyanətlə təslim edilmiş İrəvan xanlığıdır.

İşğaldan sonra rus hökuməti etibarlı siyasi dayaq məkanı yaratmaq niyyətini gerçəkləşdirməyə başladı. Bu planın tərkib hissəsi kimi köçürmə siyasəti həyata keçirildi, nəticədə, İrəvan xanlığı ərazisinə köçürülən çoxsaylı erməni mühacirləri üçün gələcək «Vətənin» təməli qoyuldu. Buna qədər, yəni xanlıq dövründə İrəvan şəhərindən kənarda yaşayan və dövlət qurmaq iddiasında belə olmayan azsaylı ermənilər, əsasən din xadimləri və Rusiyada yaşayan, müəyyən dairələrdə nüfuz sahibi olan erməni mənşəli çar məmurları, zəngin tacirlər və digərləri Azərbaycanın tarixi torpaqlarında ermənilər üçün dövlət yaratmaq xülyasına düşdülər.

Xristian təəssübkeşliyindən doğan "erməni məsələsi" müəyyən xarici siyasi dairələrin marağına uyğun gəldiyi üçün siyasi möhtəkirlik alətinə çevrildi. Bəzi işğalçı dövlətlər bu tarixi fürsətdən istifadə etməklə Qafqazda gələcək milli münaqişələrin əsasını qoydu. "Müsəlman dövlətlərinin əsarətində" yaşayan xristian ermənilərin "qayğıkeş" hamiləri əvvəlcə zərbəni silsilə türk sülalələrinin idarə etdiyi Cənubi Azərbaycana vurdular. Daha sonra növbə Osmanlı

dövlətinə yetişdi, nəhayət, "təmənnasız himayə" rus-türk müharibələrinin nəticələri olan San-Stefano (Yeşilköy) müqaviləsi və Berlin Konfransının bəzi müddəalarında öz əksini tapdı. 1885-ci il sentyabrın 30-da əslən Vandan olan Mkrtç Portaqalyanın yaratdığı "Armenakan" qrupu açıq fəaliyyətlə ermənilərin niyyətlərini ortaya qoydu. İstanbulun Qumqapı məhəlləsində polisə göstərilən silahlı müqavimət, şəhər həyatının iflic vəziyyətə salınması erməni terrorunun başlanğıcı oldu. Bu hadisədən sonra – 1887-ci ildə Cenevrədə ermənilərin yaratdığı "Hnçaq" təşkilatı türklərə qarşı terroru öz proqramlarında rəsmən bəyan etdilər.

1904-cü ildə sözügedən təşkilat öz siyasi proqramında dəyişiklik etdi. Daşnaksütyun firqəsinin bu hərəkəti sırf ermənilərlə məskun erməni ərazisinin vücuda gətirilməsi məqsədi güdürdü".[1] 1914-cü ildə Tiflisdə rus ordusunun komandanlığı ilə görüşən, general-mayor rütbəsi alan, "Türkiyə ilə qarşıdakı müharibənin Qafqaz cəbhəsi üzrə baş mütəxəssisi"[2] Andranik Ozanyanın erməni xalqı qarşısında göstərdiyi "xidmətlər" hamıya məlumdur. Onun rəhbərlik etdiyi "erməni batalyonları Şərqi Anadoluda türk mənşəli qadınları, uşaqları, qocaları öldürüb meyitlərini məscidlərdə üst-üstə qalayırdılar. Bolşevizm bayrağı altında müsəlmanlara qarşı hər cür vəhşilik törədən daşnaklar nəinki kişilərə, hətta hamilə qadınlara belə rəhm etmirdilər".[3] 1918-ci ildə Azərbaycanda mart qırğınları zamanı "müsəlman bolşevik olsaydı belə, daşnaklar ona aman verməyərək kefləri istəyən adamı öldürər, evləri dağıdıb xaraba qoyardılar".[4]

Beləliklə, uzunmüddətli və məqsədli fəaliyyət-

[1] M.Məmmədzadə. Milli Azərbaycan Hərəkatı. Berlin, 1938, Bakı, Azərnəşr 1994 (təkrarnəşr) s.38.
[2] История Азербайджана в 3-х томах, в 4-х частях. Баку. 1958, с.137.
[3] M.Əsəd, V.Fon Vaysl. Allahu-Əkbər. Bakı, 1998, s.147.
[4] N.Nərimanov. Məqalə və məktublar. Moskva, 1925, s.16.



lər, habelə 1918-ci ildə yaranmış əlverişli tarixi şəraitin məntiqli nəticəsi tarixin özü qədər qədim Azərbaycanın ayrılmaz parçası olan bir diyarda – keçmiş İrəvan xanlığı ərazisində Ermənistan dövləti yaradıldı. Müstəqil Ermənistan Respublikasının yaradılması məsələsinə Osmanlı hərbçisi Ənvər paşa "Əgər erməni xalqı ingilis-rus siyasəti naminə türklərə qarşı fitnə-fəsada son qoyarsa, Türkiyə müstəqil erməni dövlətinin yaradılmasının əleyhinə deyildir" sözləri ilə münasibət bildirdi.[1] Ancaq naxələf xalqın nümayəndələri hətta sovet hakimiyyəti illərində belə öz bədnam əməllərindən əl çəkmədilər. Nəriman Nərimanov kimi əqidəli kommunist də etiraf edirdi ki, "Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir".[2]

Sonralar Avropanın müxtəlif şəhərlərində Türkiyə diplomatlarına qarşı sui-qəsdlər, 1988-ci ildə Ermənistan ərazisində azərbaycanlılara qarşı deportasiya, 90-cı illərdə Bakı metropolitenində terror aktlarının həyata keçirilməsi bu amansız silsilənin davamı idi. Bu gün isə "laqeyd avropalılar" "erməni soyqırımı"nı, məsələn, Fransada olduğu kimi, qanun səviyyəsinə qaldırır, müxtəlif şəhərlərdə "əzabkeş millətin günahsız qurbanlarına" abidələr ucaldırlar. Buna görə də erməni əsilli ABŞ tarixçisi C.Burnutyanın "erməni genosidi, müttəfiqlərin (Antanta dövlətləri – *Z.H.*) erməniləri I Dünya müharibəsindən sonra tək qoyması və 1920-ci ildə Ermənistan Respublikasının bolşeviklər tərəfindən tutulması o demək idi ki, İrəvan hökuməti bütövlükdə Rusiyaya bel bağlamağa məcbur olmuşdu" fikirləri tarixi gerçəklikdən nə qədər uzaq faktdırsa, Kremlin "özünü ermənilərin xilaskarı kimi göstərməsi və öz siyasi qazancları naminə erməni maraqlarını qurban verməsi" bir o qədər tarixi gerçəyə

[1] C.Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı, Azərnəşr, 1993, s.146.
[2] F.Əhmədova. Nəriman Nərimanov – ideal və gerçəklik. Bakı, 1998, s.118.

və perspeкtivə yaxındır.[1]

Məlum həqiqətdir кi, uzaq zamanlardan başlayaraq de-faкto erməni кilsəsi, Ermənistanın müasir siyasi çevrələri erməni xalqını Rusiyanın girovuna çevirmişlər. Hələ Rusiyanın İrəvan xanlığını işğal etməsinin 150-ci ildönümünü 1978-ci ildə təntənə və şövqlə qeyd etdiкlərini onlar əsla gizlətmirdilər. II Dünya müharibəsindən sonra sovet höкumətinin xeyli sayda erməni mühacirini tarixi Qərbi Azərbaycanda məsкunlaşdırması, 1948-1953 və 1988-ci illərin deportasiyaları və soyqırım siyasəti nəhayətdə, onunla nəticələndi кi, Ermənistan Respubliкasında azəri-türк varlığına ümumiyyətlə, son qoyuldu, Ermənistan monoetniк bir dövlətə çevrildi. "Şərqi Ermənistan"ın yerdə qalan hissəsi və ya Qarabağ uğrunda "əzabкeş erməni xalqının mübarizəsi" isə Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi ilə tamamlandı.

Bir sözlə, XX əsrdən etibarən ermənilər "Ermənistan krallığı"nı "bərpa etməкdən" ötrü Cənubi Qafqazda separatizm, terrorizm fəlaкəti yayan dağıdıcı qüvvəyə çevrildi. Əfsus! "Ermənistan rəhbərləri artıq başa düşməlidirlər кi, müasir dünyada ərazi məsələləri "Kim əzəldən harada yaşamışdır, кim haraya кöçmüşdür" prinsipi üzrə tarixi конteкstdə deyil, beynəlxalq hüquq əsasında həll olunur. Odur кi, özlərini və cəmiyyətlərini bu əyalətçi təfəккürdən xilas etməlidirlər. Tarixi təhrif etməк, abidələri dağıtmaq, hətta uğurlu olsa belə, onlara başqa dövlətlərin ərazilərini zəbt etməyi əsaslandırmaqda кöməк etməyəcəкdir".[2]

Yalan! Bu, кöhnə erməni xəstəliyidir. Qədim Azərbaycan torpaqlarını mənimsəyən, qonşuluğundan yarımadığımız xalq, özünə məxsus bir tərzdə, bütün dövrlərdə olduğu кimi, canına, qanına işləmiş yalan-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. New York, Mazda Publishers, 1992, p.14.

[2] R.Mehdiyev. Gorus 2010: Absurd teatr mövsümü. Bakı, Şərq-Qərb, 2010, s.74.



larla Qərbi Azərbaycanın – İrəvan diyarının tarixini, o cümlədən xanlıq dövrünü ağlasığmaz uydurmalarla saxtalaşdırmağa başladı, bu torpaqların ona məxsus olduğunu sübut etməк üçün iyrənc üsullardan belə çəкinmədi. Xəstə təxəyyüldən doğan iddiaların кənar müdafiəçiləri bütün dövrlərdə, xüsusilə son iкi yüzilliкdə hadisələrin gedişatına açıq və gizli şəкildə təsir göstərdi. Hətta çarizmi çürüк divar кimi yıxıb-dağıtmış əsкi sovet dövləti də Rusiya imperiyasının müstəmləкəçiliк siyasətini davam etdirdi. Saxta beynəlmiləlçiliк ideologiyasına uymuş bəzi Azərbaycan-sovet tarixçiləri İrəvan diyarının tarixini doğru-dürüst araşdırmaqdan çəкindilər, ya da bu işdə ümumiyyətlə maraqlı olmadılar. Onlardan bəzisi təhdid və təzyiqlərdən ehtiyatlandığı üçün bəlli tarixi faкtları üzə çıxarmaq istəmədi, digərləri erməni elmi icmasına verilən ixtiyarın onlara yasaq olduğunu bildiyindən erməni və ermənipərəst rus tarixçilərinin saxtakarlığı qarşısında süкut etdilər.

Azərbaycan xalqı öz siyasi müstəqilliyini bərpa etdiкdən sonra tarixçilərimiz yalanlar və yarıhəqiqətlər üzərində qurulmuş sovet ideologiyasının zəncirlərini nəhayət кi, qırdı. Azərbaycanın tarixi ərazilərində yaranmış dövlət qurumlarının Azərbaycan xalqına məxsusluğu tarixi faкtlar və təкzibedilməz dəlillərlə isbat edildi. Bu həqiqətlərin dünya elmi-ictimai dairələrində qəbul edilməsi məsələsində isə müəyyən problemlər, təəssüf кi, hələ də qalmaqdadır. Doğrudur, son illərdə təbliğat каmpaniyalarının apardığı işlərin nəticəsi informasiya bloкadasının bəzi halqalarını qırdı. Laкin ermənilər və onları himayə edən siyasi-dini çevrələrin dəstəyi, habelə yanaşmada iкili standartlar həqiqətin bütün çılpaqlığı ilə lazımi ünvanlara çatdırılmasını əngəlləməкdədir.

Milli tarix elminin fədaкar üzvlərinin diqqət mərкəzində olan problem bir çox alimlərin ortaya qoyduğu elmi əsərlərdə öz əкsini tapmışdır. F.Əliyevin

U.Həsənovla birgə 1997-ci ildə 7 çap vərəqi həcmində "İrəvan xanlığı" əsəri çap edilmişdir. Təbii ki, bu həcmdə olan əsər İrəvan xanlığı tarixinin dolğun və ətraflı şərhini əhatə edə bilməzdi. Bu əsərlə yanaşı, M.Süleymanovun "İrəvan xanlığının Rusiya tərəfindən işğalı", habelə R.Hüseynovun "Ulu yurdum İrəvan" adlı əsərləri işıq üzü görmüşdür.

AMEA A.Bakıxanov adına Tarix İnstitutunun bir qrup əməkdaşı Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun elmi redaktəsi və rəhbərliyi ilə İrəvan xanlığının tarixinə həsr edilmiş sanballı əsər yazıblar.

Sadalanan kitablara baxmayaraq, Azərbaycanın ən uzunömürlü xanlıqlarından biri olmuş, zəngin, şərəfli tarixə malik İrəvan xanlığı tarixinin hələ də tədqiq olunmayan məqamları qalmaqdadır. Odur ki, bu istiqamətdə yeni tədqiqatların aparılması çox zəruridir. Bu zərurətin isbatı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2008-ci ilin yanvar ayında Ağdam rayonunda İrəvanın qədim Azərbaycan diyarı və Azərbaycan xalqının bu ərazini geri almaq hüququnun olması haqqında bəyanatıdır. Bu tezis tarixçilərimiz qarşısında İrəvan xanlığı tarixinin dərin, hərtərəfli tədqiqinin nə qədər əhəmiyyətli olduğunu və konkret vəzifələri müəyyənləşdirir. Məhz bu baxımdan İrəvan xanlığının tarixşünaslığını tədqiq etmək özündə çox mühüm siyasi məna kəsb etməklə yanaşı, elmi aktuallığa malikdir.

Tarixi tədqiqatların səmərəli olması üçün, ilk növbədə, yanlışlıqlar, təhriflər müəyyənləşdirilməli, daha sonra inkarı mümkün olmayan faktlar, dəlillər ortaya qoyulmalıdır. İrəvan xanlığının tarixşünaslığını kompleks şəkildə araşdırdığımız zaman erməni tarixçiləri ilə yanaşı, digər ölkələrin şərqşünas-alimlərinin tədqiqatlarını saf-çürük etmək zəruridir. Bu vacib şərtləri nəzərə alaraq, son vaxtlar İrəvan xanlığı tarixşünaslığının öyrənilməsi istiqamətində artıq bir



sıra mühüm tədqiqatlar aparılmışdır. N.Gözəlova 2007-ci ildə erməni mənşəli ABŞ tarixçisi C.Burnutyanın "İrəvan xanlığı Qacarların hakimiyyəti dövründə. 1795-1898" adlı əsəri haqqında tənqidi məqalə yazmışdır.[1]

Qeyd etməliyik ki, 2008-ci ildə C.Burnutyanın əsərini bütövlükdə ingilis dilindən Azərbaycan türkcəsinə tərcümə etdirdikdən sonra Z.Hacıyeva öz tənqidi elmi məqaləsini AMEA Xəbərlərində,[2] yetərli elmi təhlil aparmaq məqsədilə ikinci "Təkrarlanan tarix və təkrarlanan şərhlər. Corc Burnutyanın rus-sovet və erməni tarixçilərindən fərqli və oxşar cəhətləri"[3] adlı məqalə Azərbaycan, Türkiyə və İsveçrədə ingilis dilində çap edilmişdir.

E.Qarayev "Sovet tarixşünaslığında İrəvan xanlığı tarixinin mübahisəli məsələlərinə dair" məqaləsini oxucuların diqqətinə çatdırmışdır. Müəllif məqaləni sovet tarixşünaslığında İrəvan xanlığı tarixinin tədqiqi məsələsinə həsr etmişdir.[4] Məqalədə A.R. İoannesyanın, V.R. Qriqoryanın, O.P. Markovanın və bir sıra digər erməni, rus müəlliflərinin əsərləri təhlil edilmiş, nəticədə, müəllif tamamilə haqlı olaraq sovet dövründə xalqımıza tədbiq edilən ögey münasibətin tarixşünaslıqda öz əksini tapdığını, azəri türklərinə məxsus dəyərlərə, xüsusilə ərazi məsələlərində təhriflərə yol verildiyini, o cümlədən Azərbaycanın qədim torpaqla-

[1] Н.Гезалова. О книге Дж.Борнотьяна «Иреванское ханство при Гаджарах (1795-1898)» Известия НАН Азербайджана. Серия История, философия и право, 2007 г., №8, с.118-127.

[2] Z.Hacıyeva. Erməni tarixçisi Corc Burnutyanın "İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828". AMEA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2009, №10, s.3-19.

[3] Z.Hacıyeva. "Təkrarlanan tarix və təkrarlanan şərhlər". AMEA Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu. "Dirçəliş XXI əsr", 130-131 /2008-2009, s.147-158.

[4] E. Qarayev "Sovet tarixşünaslığında İrəvan xanlığı tarixinin mübahisəli məsələlərinə dair". Tarix və onun problemləri, 2009. №3, s.411-417.

rından biri olan İrəvan xanlığı ərazisinin əsassız olaraq aborigen erməni ərazisi və dövləti kimi qələmə verilməsini isbat etmişdir.

Beləliklə, sadalanmış elmi işlərdən İrəvan xanlığının tarixşünaslığına bir neçə məqalə həsr edilməsi aydınlaşır. Yəni bu mövzu yetərincə təhlil edilməmiş, onunla əlaqədar bu günə kimi ciddi və əhatəli tədqiqat aparılmamışdır. Bu fakt bir daha İrəvan xanlığı tarixinin araşdırılmasının vacibliyini təsdiqləyir, seçimimizin həm elmi, həm siyasi baxımdan düzgün olduğunu sübut edir.



# I FƏSİL

## İRƏVAN XANLIĞININ TARİXİ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

İrəvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra onun ərazisinə İrandan və Türkiyədən köçürülən çoxsaylı erməni əhalisi yerləşdirildi, bu ərazi ermənilərin öz xülyalarında təsəvvür etdikləri "Şərqi Ermənistan" kimi qələmə verilməyə başladı. Azərbaycan tarixçiləri uzun müddət bu saxta elmi-siyasi izahla barışmış, İrəvan xanlığı tarixini nəinki tədqiq etmiş, əksinə, təhriflərə belə öz münasibətlərini bildirməkdən çəkinmişlər. Bununla bərabər, sovet dövründə Azərbaycan tarixçiləri müəyyən əsərlərdə İrəvan xanlığı tarixinin bəzi aspektlərini araşdırmışlar.

XX əsrin 20-ci illərinin birinci yarısında dərc edilmiş bəzi əsərlərdə İrəvan xanlığı haqqında obyektiv məlumatlara rast gəlmək mümkündür. M.Vəlilinin (Baharlı) 1923-cü ildə nəşr olunmuş Azərbaycan Respublikası haqqında məlumat səciyyəsi daşıyan kitabında,[1] R.İsmayılovun "Azərbaycan tarixi"[2] və C.Zeynaloğlunun "Muxtəsər Azərbaycan tarixi" əsərində İrəvan xanlığı obyektiv olaraq Azərbaycan xanlığı kimi təqdim edilir.[3]

30-cu illərdə inzibati amirlik sisteminin tarixşünaslığa sirayət etməsi tariximizin həqiqi tədqiqinə əngəl olmuşdur. Tədqiqatçılarımız millətçi damğası ilə repressiyaya məruz qalmaqdan ehtiyatlanaraq tariximizin bir çox, əsas etibarilə, ərazi problemləri ilə əlaqədar məsələlərdə susmağa məcbur olmuşlar. Buna görə İrəvan xanlığının tarixinə biganə yanaşılmış, Azərbaycanın bu qədim tarixi ərazisi erməni "elmi ic-

[1] M.Vəlili (Baharlı). Azərbaycan: coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizatlar. Bakı, Azərnəşr, 1993.
[2] R.İsmayılov. Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1993.
[3] C.Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992.

ması"na güzəşt edilmişdir.

Bunlarla yanaşı, müəyyən tədqiqatçıların əsərlərində İrəvan xanlığının siyasi tarixi ilə bağlı bəzi məqamlar tədqiq edilmişdir. Görkəmli tədqiqatçı, Cənubi Azərbaycan xanlıqları üzrə mütəxəssis H.Ə.Dəlilinin əsərində[1] XVIII əsrin ikinci yarısında Cənubi Azərbaycan xanlıqlarının siyasi, iqtisadi və idarəçilik sistemilə bərabər, İrəvan xanlığının Urmiya, Xoy xanlıqları ilə siyasi münasibətlərinə səthi toxunulmuş, bu xanlığın coğrafi mövqeyi yanlış olaraq Ermənistan ərazisi kimi qeyd edilmişdir. Müəllif bu fikri açıq-aydın səsləndirməsə də, keçmiş Səfəvi dövləti ərazisində, o cümlədən "Ermənistan ərazisi"ndə xırda dövlətlərin yarandığını iddia etmişdir.[2]

Azərbaycan Sovet Ensiklopediyasında İrəvan xanlığı haqqında verilən məlumat ziddiyyətliliyi ilə diqqəti cəlb edir. Məqalə müəllifi İrəvan xanlığının Azərbaycan ərazisində yarandığını deməyə cəsarət etmir, xanlığın Cənubi Qafqazda yarandığını söyləməklə, digər tərəfdən, uydurma erməni tarixini, xüsusən ermənilərin bölücülük hərəkatını azadlıq uğrunda mübarizə kimi qələmə verir.[3]

SSRİ-nin süqutu ərəfəsində Azərbaycan tarix elminin inkişafında yeni mərhələnin əlamətləri özünü büruzə verməyə başladı. Tarixçilər sovet dövründə qoyulmuş qadağalardan nisbətən azad olduqları üçün tariximizə milli maraqlar prizmasından yanaşdılar. 1987-ci ildə bu prosesin təzahürü olan "Azərbaycanın tarixi coğrafiyası" məqalələr toplusu işıq üzü görmüşdür. Əsərdə F.Əliyevin müəllifi olduğu "Azərbaycan XVIII əsrdə"[4]

---

[1] H.Dəlili. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında). Bakı, Elm, 1979.

[2] Yenə orada, s.20.

[3] Bax: "Erivan xanlığı"- Azərbaycan Sovet Ensiklopediyası, c. IV, Bakı, 1980, s.79-80.

[4] Ф.Алиев. Азербайджан в XVIII в. Историческая география Азербайджана. Баку, Элм, 1987, с.137.



adlı bölmədə Azərbaycanda mövcud olmuş xanlıqlar arasında İrəvan xanlığının adı çəkilmir, ancaq məqaləyə əlavə olaraq verilmiş Azərbaycan xanlıqlarını əks etdirən xəritədə İrəvan xanlığının adı mövcuddur. Təəssüf doğuran cəhət odur ki, "Ermənistan" sözünün bir hissəsi İrəvan xanlığının üzərinə düşür ki, bu da istər-istəməz həmin xanlığın Ermənistan ərazisində yaranması barədə yanlış təsəvvür yaradır.

Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra tarixçilərimiz mənbələrdə mövcud olan faktları doğru-dürüst işıqlandırmağa başladılar və indiki Ermənistan ərazisinin bütövlükdə tarixən Azərbaycana məxsus olduğunu isbatlayan dəlilləri ortaya qoydular. M. İsmayılov və F. Əliyevin 1992-ci ildə birgə yazdıqları "İrəvan xanlığı" məqaləsində çox yığcam şəkildə ilk dəfə İrəvan xanlığı, onun ərazisi, əhalisi haqqında məlumat verilib, başlıcası isə onun Azərbaycan xanlığı olması təsdiqlənmişdir. Nadir şahın ölümündən sonra yaranmış Azərbaycan xanlıqlarından biri İrəvan xanlığının 12 mahaldan ibarət olduğunu yazan müəlliflər xanlıqda idarəçilik sistemi, sosial-iqtisadi münasibətlər haqqında məlumat veriblər. M.İsmayılov və F.Əliyev İrəvan xanlığının qonşu xanlıqlar və gürcü çarları ilə münasibətlərini araşdırmışlar. Müəlliflər irəvanlı Hüseynəli xanın 1779-cu ildə minlərlə İrəvan xanlığı sakinlərini köçürüb aparan II İrakliyə ildə 30 min manat xərac ödəyəcəyini açıqlayıblar. Qeyd edilir ki, digər Azərbaycan xanlıqları ilə sıx münasibətlər yaratdıqdan və dəstəklərinə arxayın olduqdan sonra o, (Hüseynəli xan – *Z.H.*) bu tələbi yerinə yetirməkdən imtina etmişdi.[1]

Məqalədə İrəvan xanlığının Ağa Məhəmməd xan Qacarla və Rusiya ilə münasibətləri, xanlığın ruslar tərəfindən işğalı haqqında qısa məlumat verilmişdir. Bütövlükdə İrəvan xanlığı haqqında yazılmış məqalə

---

[1] M. İsmayılov, F. Əliyev İrəvan xanlığı. Zəka, 1992, № 4, s.69.

mövzunu tam əhatə edə bilməsə də, Azərbaycan tarixşünaslığına yeni istiqamət verə bilmişdir.

1997-ci ildə F.Əliyev və U.Həsənovun "İrəvan xanlığı" əsəri tarixçilərin Azərbaycanın bu bölgəsinə həsr etdikləri ilk tədqiqat əsəri idi. Müəlliflər qədim Azərbaycan ərazilərini əhatə edən İrəvan xanlığı tarixinin həm siyasi, həm iqtisadi baxımdan az öyrənildiyini, ümumiyyətlə unudulduğunu qeyd edir, İrəvan xanlığının müstəqil dövlət olmazdan öncə, mövcud olduğu dövrdə siyasi tarixi ilə ictimai-iqtisadi vəziyyətinin tədqiqini qarşılarına məqsəd qoyublar. F.Əliyev və U.Həsənov məhz İrəvan xanlığını tədqiqat obyekti seçmələrini belə izah edirlər: "Həmin xanlığın ərazisində yerləşən müasir Ermənistan Respublikası sovet hakimiyyəti illərində müttəfiq respublika sayıldığına görə Azərbaycan alimləri "qardaşlıq" naminə erməni xalqının "qəlbinə" toxunmayıb, tarixən Azərbaycana məxsus olan İrəvan xanlığından üz çevirərək, qədim Azərbaycan torpağını elmi baxımdan hələ XX əsrin 20-ci illərindən erməni "qardaşlarına" bağışlayıblar.

Qədim Azərbaycan torpaqlarında XVIII əsrin ikinci yarısında yaranan xanlığı azərbaycanlılar idarə etdikləri üçün erməni tarixçiləri də öz növbəsində bu məsələnin üstündən sükutla keçməyə üstünlük verib, yalnız Üçkilsə (Uç müəzzin, Eçmiədzin) monastırının tarixini tədqiq etmişlər".[1]

Sözügedən əsərin birinci fəslində, ilk növbədə, İrəvan xanlığının yaranması və onun sələfi Çuxursəd bəylərbəyliyinin tarixi haqqında qısa məlumat verilmişdir. Müəlliflər yazırlar ki, Osmanlı dövləti ilə müharibələr zamanı böyük dövləti idarə etmək çətin olduğu üçün XVIII əsrin 30-cu illərindən Səfəvi dövləti inzibati cəhətdən qızılbaş tayfaları arasında "bəylərbəylik" adlanan əraziləri on üç əyalətə bölmüş, bu əyalətlərdən biri mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyliyi idi

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.3.



(əslində, sonrakı izahatdan bəlli olur ki, bəylərbəylik XVI əsrin 30-cu illərində yaranmışdır – *Z.H.*).

Müəlliflər Çuxursəd bəylərbəyliyinə Maku, Sədərək, Naxçıvan vilayətləri, habelə Bəyazid qalası, Şadılı, Dumbuli tayfalarının vilayətləri Mağazberdin daxil olduğunu,[1] Çuxursədin ilk bəylərbəyliyinin 1538-ci ildə təyin edilən Bədir xan Ustadlı olduğunu qeyd edirlər.[2]

Fəsildə Osmanlı-Səfəvi savaşları zamanı Çuxursəd bəylərbəyliyinin ümumi vəziyyəti, diyara dəyən maddi ziyanlar haqqında müəyyən məlumatlar verilir, Nadir şahın mövcud inzibati bölgünü ləğv edib Azərbaycandakı dörd bəylərbəyliyi birləşdirib vahid Azərbaycan vilayəti yaratdığı bildirilir.[3] Əslində, bu iddia kökündən yanlışdır, belə ki, Nadirin hakimiyyəti dövründə bəylərbəyliklər tamamilə ləğv edilməyib, yalnız idarəçilik sistemində hüquqları məhdudlaşdırılıb və bu bəylərbəyliklərin hər biri vahid Azərbaycan vilayətinin hakimi təyin olunmuş Nadirin qardaşı İbrahim xana tabe edilmişdi. Bir qədər sonra müəlliflər bunu etiraf edirlər: "Nadir şahın ilkin tədbirlərindən biri yaratdığı Azərbaycan vilayətlərinin ayrı-ayrı bölgələrinə və şəhərlərinə başçılar – xanlar, bəylərbəyilər təyin etmək oldu. Məlumdur ki, Nadir şah bu tədbirləri taxta çıxmazdan öncə həyata keçirmək qərarını vermişdi. Muğan qurultayı ərəfəsində Nadirqulu xan etibar etdiyi Pir Mahmud xanı İrəvan xanı, eyni zamanda, bu bölgənin bəylərbəyi təyin etmişdi".[4]

Təhlil etdiyimiz əsərdə qeyd olunur ki, Nadir şah sui-qəsd nəticəsində qətlə yetirildikdən sonra İrəvan əhalisi Pir Mahmud xana tabe olmaqdan boyun qaçırıb üsyan qaldırdı. Bu hadisələr baş verdiyi vaxt Təbriz şəhərini tutmuş III Sam Mirzə adlı yalançı Sə-

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.5.
[2] Yenə orada, s.6.
[3] Yenə orada, s.21.
[4] Yenə orada, s.22.

fəvi şahzadəsi İrəvan üsyançılarının yardımına gəldi. Bu zaman şah taxtına iddialılardan biri – Nadir şahın əmisi oğlu Əmir Aslan xan İrəvanda idi və o, şəhər əhalisini sakitləşdirib, "III Sam Mirzə"nin qoşunlarını darmadağın etmişdi. Yeni yaranan İrəvan xanlığının taxtına oturmaq Pir Mahmud xana nəsib olmuşdu.[1] Daha sonra müəlliflər qeyd edirlər ki, Nadir şah Xorasanda öldürüldükdən sonra İrəvanda üsyana rəhbərlik edən yerli feodal Mir Mehdi xan İranda baş verən hərc-mərclikdən istifadə edərək sabiq Çuxursəd bəylərbəyliyinin böyük bir hissəsində müstəqil xanlıq yaratmışdı.[2]

Göründüyü kimi, müəlliflərin dolaşıq mülahizələri İrəvan xanlığının banisinin adını belə açıqlamır. Bu yanlışlıq digər bir əsərdə öz həllini tapır. İrəvan xanlığının banisi yerli feodal Mehdi xan Qasımlı idi.[3]

Kitabın ikinci fəslində İrəvan xanlığının ictimai-iqtisadi vəziyyəti araşdırılır, xanlığın paytaxt İrəvan şəhəri və 15 mahaldan (Qırxbulaq, Zəngibasar, Qarnıbasar, Vedibasar, Şərur, Suran, Dərək, Saatlı, Tala, Seyidli-Axsalı, Sərdarabad, Qərpi, Abran, Dərəçiçək, Göyçə) ibarət olduğu qeyd edilir,[4] beləliklə bəzi mahal adlarının təhrif olunduğu aydınlaşır. Belə ki, Suran Sürməli, Qərpi Qərni, Dərək Dərəkənd adını daşıyırdı.

Xanlıq iqtisadiyyatının əsasının heyvandarlıq və əkinçiliyin təşkil etdiyini qeyd edən müəlliflər xanlıqda mövcud olmuş əsas torpaq mülkiyyəti formalarını (divani, xalisə, mülk, vəqf, camaat torpaqları və s.) sadalayırlar. Divani torpaqların bir hissəsinin hər hansı bir xidmətinə görə xanlar tərəfindən müəyyən şəxslərə verildiyini, tiyulların irsi xarakter daşıdığını söyləyən müəlliflər tiyulun ayrıca mülkiyyət forması

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.26.
[2] Yenə orada, s. 52.
[3] İrəvan xanlığı (Rusiya işğalı və ...), s.51.
[4] Yenə orada, s.27.



olmadığını söyləyirlər. Əsərdə İrəvan xanlığında vəqf torpaqlarının digər xanlıqlardan fərqləndiyi, xristian kilsələrinin böyük torpaq sahələrinə malik olduğu (bu ərazilərin əksəriyyətini kilsəyə xanlar bağışlamışdılar) bildirilir. "Dünya ermənilərinin dini mərkəzi Eçmiədzin monastırı isə, bir növ, dövlət daxilində dövlətə çevrilmişdi".[1]

Kitabda İ.Şopenin məlum əsəri əsasında İrəvan xanlığında vergi ödəyən əhalinin 8 cəmiyyətə (qrupa) bölündüyü (əslində, 7, çünki cəmiyyətlərdən biri üçüncü cəmiyyət – Maku xanlığı əhalisi sayılırdı. Bu xanlığın ümumi idarəçiliyi isə yalnız XVIII əsrin sonu – XIX əsrin əvvəllərində İran şahları tərəfindən İrəvan xanına həvalə edilmişdi – *Z.H.*) qeyd olunur. Müəlliflər yazırlar ki, birinci cəmiyyətə – müsəlman və erməni icmaları, habelə qaraçılar, ikinci cəmiyyətə – Eçmiədzin monastırı, dördüncü cəmiyyətə – elatlar, beşinci cəmiyyətə – "binael" adlanan vergi verən qism (yəni tavanalı kəndlilər), altıncı cəmiyyətə – pul ilə alınan hədiyyələr (peşkəş və rüşvət), yeddinci cəmiyyətə – ermənilərin üzüm bağları, səkkizinci cəmiyyətə isə pul ilə ödənilən vergilər daxil edilmişdi.[2]

Əsərdə torpaq və mal-qaraya görə toplanan, habelə şəhər sakinlərinin ödədiyi vergilər haqqında müəyyən məlumatlar verilir.

Beləliklə, İrəvan xanlığında mövcud olmuş vergi sistemi bir qədər dolaşıq təqdim edilir, oxucu bu məsələ ilə bağlı düzgün təsəvvür əldə edə bilmir.

İkinci fəsildə xanlıqda mövcud olmuş əkinçilik və ticarətin vəziyyəti, İrəvan şəhərinin quruluşu, əhalinin sosial tərkibi və həyat tərzi haqqında məlumat verilir.

"İrəvan xanlığının siyasi tarixi" adlanan so-

[1] İrəvan xanlığı (Rusiya işğalı və ...), s.27-28.
[2] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.34-37.

nuncu fəsildə qeyd edilir ki, xanlığın mövcudluğunun ilk dövründə – 1748-ci ildə Mir Mehdi xan Urmiya xanlığına basqın etmiş, Fətəli xan Əfşarı məğlub edərək Urmiya xanlığı ərazisinin bir hissəsini İrəvan xanlığının tərkibinə qatmağa nail olmuşdu.[1]

Müəlliflər oxucunu İrəvan xanlığında yaşayan bir ovuc ermənin təhriki ilə Kartli-Kaxetiya çarları – ata-oğul Teymuraz və II İraklinin İrəvan xanlığına müntəzəm basqın etmələri barədə məlumatlandırırlar.[2] Bununla yanaşı, 1748-ci ildə Mir Mehdi xanın basqınına məruz qalmış Fətəli xan Əfşarın əfqan başçısı Azad xanla birləşib İrəvan xanından qisas almaq qərarı barədə *məlumatlar önə çəkilir*, qeyd edilir ki, müttəfiq qoşunların ön dəstələri İrəvan qalasını mühasirəyə aldığı zaman şəhərdəki ermənilər gürcü çarına müraciət edib İrəvana sahib çıxmasını ondan xahiş etmişdilər. II İraklinin qoşunları İrəvana yaxınlaşaraq Əfşar-əfqan ordusunu qala ətrafından uzaqlaşdırmağa nail olur. Lakin az sonra Azad xan qoşunun əsas hissəsi ilə özünü döyüş meydanına yetirir, II İrakli məğlubiyyətə uğrayır və çoxsaylı girovlar verməyə məcbur edilir. Müəlliflərin yazdığına görə, Azad xan Mir Mehdi xanı İrəvan taxtından uzaqlaşdırır, Həsən xanı İrəvan hakimi edir, İrana (Cənubi Azərbaycana – *Z.H.*) geri döndükdən sonra xanlığın idarəçiliyi Xəlil xan Özbəyə tapşırılır. Həsənəli xan Qacar 1755-ci ildə Xəlil xan Özbəyi taxtdan kənarlaşdırır və özü xan taxtına əyləşir.[3] Burada müəlliflərin müəyyən yanlışlıqlara yol verməsi asanlıqla izlənilir. 1748-ci ildə İrəvan taxtında Mehdi xanı Məhəmməd Hüseyn xan

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.52.
[2] Yenə orada, s.54-55.
[3] Yenə orada, s.54-58.



Qəraylı əvəz etmişdi.[1] Nəhayət, 1755-ci ildə İrəvanda hakimiyyətə yerli qacarlar sülaləsinin nümayəndəsi Həsənəli xan gəlmişdi.[2]

Sonrakı sətirlərdə müəliflər İrəvan xanının adını Hüseynəli xan kimi qeyd edir, buna görə də əsərdə çevriliş nəticəsində İrəvan hakimi olmuş şəxsin konkret olaraq kim – Həsənəli xan, yaxud Hüseynəli xan olduğunu aydınlaşdırmaq mümkün olmur.

Üçüncü fəsildə II İraklinin İrəvan xanlığına qarşı yürütdüyü təcavüzkar siyasət, İrəvan xanının digər Azərbaycan xanları ilə münasibətləri geniş təhlil edilir. Müəlliflər qeyd edir ki, göstərilən səylərə baxmayaraq, gürcü çarı İrəvan xanlığını özündən asılı vəziyyətə sala bilmirdi. Osmanlı hökumətinin sərhəd paşaları İrəvan xanlığını gürcü çarının, habelə ermənilərin havadarları olan rus hökumətinin təcavüzkar hərəkətlərindən qorumağa çalışırdı.

1783-cü ildə baş verən üsyan nəticəsində Hüseynəli xan və onun qardaşı Məhəmmədhəsən xan həlak oldu. Gürcü çarları və fitnəkar ermənilər bu durumdan öz xeyirləri üçün istifadə etməyə cəhd göstərdilər. II İrakli İrəvanda hakimiyyətə yeni gəlmiş Qulaməli xanın gənc və təcrübəsiz olmasından istifadə edərək onu özündən asılı vəziyyətə salmağa çalışırdı. Qulaməli xanın gürcülərə meyl etməsi 1785-ci ildə onun öz əyanları tərəfindən qətlə yetirilməsinə səbəb oldu, hakimiyyətə Qulaməli xanın qardaşı Məhəmməd xan gəldi.[3] Yeni xanın anası milliyyətcə gürcü olduğu üçün II İraklinin İrəvan xanlığına təsiri artdı. Lakin Osmanlı dövlətinin müəyyən tədbirləri nəticəsində Məhəmməd xan tezliklə

[1] Bax: İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (Y.M.Mahmudov, T.T.Mustafazadə və b. redaktəsi ilə) Bakı, 2009, s.52.
[2] Yenə orada, s.53
[3] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.70-71.

müstəqil siyasət yürütməyə başladı.[1]

Əsərdə Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza yürüşləri zamanı İrəvan xanlığının vəziyyəti, Qacara qarşı olan münasibətlərə dair bir sıra maraqlı, dəyərli və tarixşünaslıqda ilk dəfə səslənən məlumatlar yetərincədir. 1795-ci ildə İrəvan xanlığının Qacar qoşunlarına müqavimət göstərmədən təslim olması barədə rus-sovet tarixçisi O.Markovanın iddiasını[2] təkzib edən müəlliflər qeyd edirlər ki, irəvanlı Məhəmməd xan Ağa Məhəmməd şahın fərmanını aldığı zaman diplomatik hiylə işlədib, soyuq münasibət bəslədiyi qardaşını Qacarın hüzuruna göndərir. Məhəmməd xanın hiyləsini anlayan Qacar, qardaşı Əliqulu xanın başçılığı ilə 20 min nəfərlik hərbi qüvvəni İrəvana göndərir, yalnız 35 günlük mühasirədən sonra Qacar qoşunları tərəfindən ətraf kəndlərin talandığını müşahidə edən İrəvan xanı çarəsizlikdən Ağa Məhəmməd xanın ali hakimiyyətini qəbul etmək məcburiyyətində qalır.[3]

1796-cı ildə rus qoşunlarının Cənubi Qafqaza etdikləri yürüş II İraklinin İrəvan xanlığını yenidən özünə tabe etmək istəyini göstərir. Onun bu niyyətindən xəbər tutan Qacar, sərkərdəsi Təvəkkül xanı hərbi qüvvə ilə İrəvana yollayır. İrəvan xanı Məhəmməd xan onun səlahiyyətlərinin məhdudlaşdırıla biləcəyini təxmin edərək, rus qoşunlarının baş komandanı V.Zubovla gizli əlaqə yaradır, Qacar qoşunlarını İrəvandan çıxartmaq üçün silahlı yardım göstərməsini istəyir. Məhz buna görə Ağa Məhəmməd şah 1797-ci il yürüşü zamanı Məhəmməd xanı xəyanətdə günahlandırır, onun 500 min tümən cərimə verməsini tələb edir, sonra xanı ailə üzvləri ilə

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Azərnəşr, 1997, s.76.
[2] О.Маркова. Россия, Закавказье и международные отношения в XIX веке, с.288.
[3] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.79-81.



birlikdə Qəzvinə göndərir.[1]

Ağa Məhəmməd şahdan sonra taxt-tac sahibi Fətəli şah Məhəmməd xanı sürgündən azad edib tabeçilik müqabilində onu yenidən İrəvan xanlığına hakim təyin edir. Məhəmməd xan vədinə xilaf çıxıb şahın rəqibi xoylu Cəfərqulu xanla birləşir. Şahzadə Abbas Mirzə çoxsaylı qoşunla İrəvan xanlığına göndərilir, naəlac qalan Məhəmməd xan yenidən Qacarlara təbəə olmağı qəbul edir.[2]

Əsərin təhlili irəvanlı Məhəmməd xanın mərkəzi hökumətə qarşı qiyam qaldıran Axıska hakimi Şərif paşaya yardım göstərməsini, Osmanlı-rus orduları ilə toqquşmaları, rus komandanlığının əlverişli fürsətdən istifadə edib İrəvan xanına tabe Pəmbək sultanlığını zəbt etməsini, Məhəmməd xanın bu hadisələrə qarşı apardığı mübarizəni açıqlayır.

Üçkilsə katalikosluğuna başçılıq edəcək şəxsin təyin edilməsi probleminin həlli prosesində Rusiya ilə İrəvan xanlığı arasında çox ciddi və kəskin ixtilafın yaranması geniş açıqlanır. Çar hökuməti vaxtilə katalikos vəzifəsini icra edən, sonradan Tehrana sürgün edilən ruspərəst Davidin azad olunmasına nail olur. Rusiya onu katalikos kürsüsündə görmək istəyir, Məhəmməd xan isə özünün təyin etdiyi Danili müdafiə edir.[3]

1804-cü ilin yazında şah ordusunun bir hissəsi İrəvanı ələ keçirmək məqsədilə şəhərə tərəf yönəlir, iki od arasında qalan Məhəmməd xan müəyyən siyasi manevrlər etməyə məcbur olur. O, Qafqazdakı rus qoşunlarının yeni baş komandanı general Sisianovla yazışmağa üstünlük verir. General Sisianov Məhəmməd xanın siyasi kələk işlətdiyini anlayır, təxminən 1804-cü il mayın sonunda İrəvan xanlığına doğru hərəkət

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.83-84.
[2] Yenə orada, s.85-86.
[3] Yenə orada, s.91-93.

edir.[1]

Həmin il iyunun 10-da I Rusiya-İran müharibəsi başlayır. Rus ordusunun İrəvanı almaq üçün sentyabr ayına qədər göstərdiyi çoxsaylı hücumlar uğurla dəf olunur.[2]

Müəlliflər qeyd edirlər ki, rus qoşunlarının İrəvan qalasının mühasirəsindən əl çəkmələrinə baxmayaraq, strateji əhəmiyyətə malik bu şəhərin işğalı Rusiya hərbi dairələrinin gündəliyindən silinmir.[3]

Hadisələrin dinamikasını diqqətlə izləyən şah hökuməti müəyyən məsələlərdə Məhəmməd xana güvənmədiyi üçün onu hakimiyyətdən uzaqlaşdırır, xan taxtına öncə Mehdiqulu xanı, sonra isə Hüseynqulu xanı təyin edir.[4]

1806-cı ildə İrəvan xanlığının bir sıra ərazilərini işğal edən Qafqazdakı rus ordusunun yeni baş komandanı general Qudoviç həmin il sentyabr ayının əvvəlində böyük qüvvə ilə İrəvan şəhərinə yürüş edir, sentyabrın 26-da baş verən toqquşmada irəvanlılar məğlubiyyətə uğrayırlar. İrəvanın mühasirəsi zamanı qardaşı Həsən xanın başçılığı ilə ikiminlik hərbi qüvvəni qalada saxlayan Hüseynqulu xanın özü beşminlik qoşunla ruslara sarsıdıcı zərbələr endirməklə, onları qalanın mühasirəsindən əl çəkməyə məcbur etmək istəyir. O, şəhərdən kənara çıxsa da, istəyinə nail ola bilmir, bu azmış kimi, ruslar Hüseynqulu xanın şəhərə qayıtmasına imkan vermir. Uzun mühasirədən sonra, noyabrın 17-də Qudoviç qalaya yenidən hücum edir, çox ciddi müqavimətə rast gəlir, geriyə dönmək məcburiyyətində qalıb Tiflisə qayıdır.[5]

Əsərin sonu II Rusiya-Qacar müharibəsi dövründə İrəvan xanlığının rus qəsbkarlarına qarşı fədakar müqaviməti, rus qoşunlarının yalnız ikinci hücum nəticəsində qalanı ələ keçirməsi barədə qısa məlumat ilə tamamlanır.

---

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.95-96.
[2] Yenə orada, s.96-105.
[3] Yenə orada, s.105.
[4] Yenə orada, s.109-111.
[5] Yenə orada.



Müəlliflər qanlı döyüşlərin getdiyi zaman İrəvan xanlığı ərazisində yaşayan ermənilərin düşmənə göstərdiyi xəyanətkar köməyi, rus ordusunu canlı qüvvə, ərzaq və silah-sursatla təmin etmələrini qeyd edirlər. "Hadisələrin məcrası istər-istəməz həmin dövrdə İrəvan şəhərində ermənilərin yaşamadığına və yaxud sayca çox az olduğuna, heç bir ictimai qüvvə təşkil edə bilmədiyinə işarədir. Odur ki, ermənilər rusların köməyilə İrəvana soxulub buranı özləri üçün istinadgaha çevirməyə çalışıblar".[1]

M.Süleymanovun 1997-ci ildə çap olunmuş "İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən" adlı əsərində F.Əliyevlə U.Həsənovun məlum əsərində diqqətdən kənarda qalmış hadisələr araşdırılır, İrəvan xanlığının rus işğalına qarşı apardığı müqavimət daha əhatəli tədqiq edilir.

Müəllif, son nəticədən asılı olmayaraq, Rusiya və İran işğalına qarşı mübarizədə Azərbaycan xanlıqlarında hərb işinin kifayət qədər inkişaf etdiyinin orijinal olduğunu söyləyir: "Qoşunların maddi-texniki bazası, döyüş hazırlığı səviyyəsi ayrı-ayrı toqquşmalarda onların (xanlıqların – *Z.H.*) güclü düşmən üzərində uğur qazanmasına ilkin imkan yaradırdı. Xüsusən o xanlıqda ki, hərb işinə diqqət xalqın iradəsi, qətiyyəti və dəyanəti ilə tamamlanırdı, burada rus işğalına qarşı müqavimət də güclü olurdu".[2] Nümunə kimi İrəvan xanlığını qeyd edən M.Süleymanov yazır ki, rus ordusunun Cənubi Qafqaza təcavüzü zamanı ilk hədəf olmasına baxmayaraq, İrəvan xanlığının işğalı təxminən 30 ildən son-

---

[1] F.Əliyev, U.Həsənov. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, s.113.
[2] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat,1997, s.5-6.

ra baş tutmuşdu. "Xanlığın sərкərdələri və döyüşçülərinin hərbi şücaəti bir çox rus generallarının, o cümlədən P.Sisianov və İ.Qudoviç кimi hərbi mütəxəssislərin şəxsi sərкərdəliк faciəsinə səbəb olmuş, onların məğlubedilməzliк nüfuzuna son qoymuşdur".[1]

M.Süleymanov yazır кi, mifiк "Böyüк Ermənistan" ideyasına xidmət edən "erməni tarixçiləri" İrəvan xanlığının Azərbaycan xanlığı olduğunu inкar edərəк İrəvan xanlığının Azərbaycan türкləri ilə bağlılığını sübuta yetirən bütün faкt və məlumatları saxtalaşdırmış, bir çox hallarda isə ümumiyyətlə bu tarixi faкtları xatırlamamağa, İrəvan xanlığını fars xanlıqlarından biri кimi qələmə verməyə çalışmış və çalışmaqdadırlar.[2] "Erməni müəllifləri İrəvan xanlığı ərazisində mövcud olan maddi-mədəniyyət abidələrini, o cümlədən hərbi tiкililəri fars abidələri кimi qələmə verməкlə xanlıqdaкı Azərbaycan izlərini tam ört-basdır etməyə çalışırlar".[3] Daha sonra müəllif qeyd edir: "Azərbaycan xanlığının tarixi ilə bağlı fiкirlərə ciddi elmi, məntiqi təftiş tələb edən erməni tarixçiləri İrəvan xanlığının rus qoşunları tərəfindən işğal edilməsini, xanlığın ləğv edilərəк yerində İrəvan vilayətinin yaradılmasını erməni xalqının milli-azadlıq hərəкatının nəticəsi кimi səciyyələndirirlər".[4] Qeyd etməк lazımdır кi, müəllifin işlətdiyi "İrəvan vilayəti" ifadəsi yanlışdır və "Erməni vilayəti" (rus variantında: Armyansкaya oblast – *Z.H.*) adlanırdı.

Bu sitatlarla M.Süleymanov erməni tarixçilərini ifşa edir, onların faкtlara deyil, xəyallara istinad etdiкlərini təsdiqləyir.

M.Süleymanov birinci fəsildə İrəvan xanlığının hərbi qüdrəti barədə qısaca məlumat verir, əкsər hal-

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat,1997, s.6.
[2] Yenə orada.
[3] Yenə orada, s.6-7.
[4] Yenə orada, s.17.



larda yanlış mülahizələr yürüdür.

Müəllif Həsənəli xanı İrəvanın ilк haкimi кimi təqdim edir. I fəsildə İrəvan xanlığı ilə gürcü çarları arasında 1765, 1769 və 1779-cu illərdə baş vermiş hərbi toqquşmalar, habelə Qacar qoşunlarının 1795-ci ildə İrəvanı mühasirəyə alması və çarəsizliкdən Məhəmməd xanın Qacarlardan siyasi asılılığı qəbul etməsi qeyd edilir. Qacarın Tiflisə etdiyi yürüşdə irəvanlıların bir qisminin iştiraк etməsi Pəmbəк, Borçalı və Qazax mahallarının İrəvan xanlığının tabeçiliyinə кeçməsinə imкan yaratdı.[1]

M.Süleymanovun mülahizələrinə görə, Məhəmməd xanın üsyan qaldırması Qacar asılılığından yaxa qurtarmaq istəyindən irəli gəlirdi. Məhz bu səbəbdən şah öz qardaşı Əliqulu xanı üsyanı yatırtmaq məqsədilə İrəvana göndərmişdı.[2] Əslində İrəvan xanlığında baş vermiş üsyan Əliqulu xan Qacara qarşı idi. Əliqulu xanın vergiləri artırması səbəbindən İrəvan əhalisi üsyan qaldıraraq onu haкimiyyətdən saldı.[3]

Qeyd etməliyiк кi, İrəvandaкı üsyan faкtı heç bir tarixi ədəbiyyatla təsdiqlənmir, müəllif bu məsələ ilə bağlı hər hansı bir mənbəyə istinad etmir, bu iddia yanlışdır.

Müəllif İrəvan xanlığında mövcud qoşunların tərкibi, silahlanma üsulları və döyüş taкtiкası haqqında müəyyən bilgilər verir. Qoşunların əsasən iкi növdən (piyada və süvari) ibarət olduğunu, hər iкi növ qoşunun qılınc, xəncər, nizə, ox-yay, toppuz, tüfəng, tapanca кimi silahlardan, qalxan, dəbilqə, metal mühafizə geyimləri ilə təchiz edildiyi qeyd olunur. İrəvan xanlığının cəbhəxanasında toplar və müxtəlif artille-

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat,1997, s.138-139.
[2] Yenə orada, s.18.
[3] Bax: Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1802 г. СПб, 1869, II, с.431.; V.R. *Qriqoryan İrəvan xanlığı* .Yerevan, 1958 (erməni dilində), s.59.

riya qurğularının, İrəvan qalasında isə silah və barıt zavodlarının olduğunu qeyd edən müəllif topların əksəriyyətinin İrəvanın özündə istehsal edildiyini bildirir.[1]

Qoşunların döyüş taktikası xan tərəfindən seçilirdi: "İrəvan qoşunlarının uğurlu hücum taktikası mövcud idi. Rusiya və İranla müharibələrdə fəal müdafiə strategiyasına üstünlük verilirdi, bu zaman qoşunlar müdafiəyə çəkilir, fürsət düşdükcə çevik dəstələrlə düşmən qoşunlarının üzərinə hücum edir, sıralarını pozmağa çalışırdılar".[2]

Verilən bilgilər səhih olsa da, qeyd etmək lazımdır ki, müharibələrdə Azərbaycan xanlıqlarının əksəriyyəti məhz bu taktiki gedişi seçirdi, çünki möhtəşəm qalaları olan bu kiçik dövlətlər özlərini etibarlı şəkildə qorumaq üçün qalalara çəkilir, müdafiə olunmaqla bərabər imkan daxilində hücumlar təşkil edirdilər. Bəzi hallarda bu gediş müəyyən uğur gətirir, yaxud məğlubiyyət acısını çəkdirirdi.

Əsərdə İrəvan qalası ilə yanaşı, XIX əsrin əvvəllərində Hüseynqulu xanın dövründə inşa edilmiş Sərdərabad qalası haqqında təsvirlər mövcuddur.

"İrəvan xanlığı birinci Rusiya-İran müharibəsinin başlanması ərəfəsində" adlı bölmədə qeyd edilir ki, Ağa Məhəmməd şahın Şuşada qətlə yetirilməsindən sonra irəvanlı Məhəmməd xan xanlığın müstəqilliyinə nail olur, bir müddət Qacarlar və Rusiyanın hədələri qarşısında məğrur dayanır. Fətəli şah öz mövqelərini möhkəmləndirdikdən sonra İrəvana qarşı hücumları gücləndirir, Məhəmməd xan ona xərac verməyə razı olur. Müəllif Məhəmməd xanın digər xüsusiyyətini açıqlayır: "1801-ci ildə Şərqi Gürcüstanı ilhaq edən Rusiya, eyni zamanda, gürcü çarlarının iddia etdikləri Pəmbək sultanlığını işğal etmək niyyətilə dəstə göndərdikləri zaman Məhəmməd xan çəkinmədən

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. s.22.
[2] Yenə orada, s.23.



pəmbəklilərі müdafiə etmişdi. Lakin durum dəyişən kimi, Məhəmməd xan öz mövqeyində dəyişiklik etməli oldu. Qacar qoşunlarının İrəvana doğru hərəkət etdiyini bilən və şahın onu müti bir kəslə əvəzləmək niyyətini anlayan Məhəmməd xan Qacarlara qarşı mübarizədə uğur qazanmaq üçün rus zabitləri ilə danışıqlara başladı. Bu əlaqələrin çox qısa zamanda bitməsinin səbəbi Fətəli şahın İrəvan üzərinə səfərdən vaz keçməsi ilə nəticələndi".[1]

Bu bölmədə Məhəmməd xanın mərkəzi hakimiyyətə qarşı qiyam təşkil edən axıskalı Şərif paşaya yardım göstərməsi ilə bağlı Qars hakimi Mehmet paşa arasında olan münaqişəyə aid hadisələr izlənilir.

M.Süleymanov qeyd edir ki, 1803-cü ilin fevralında Qafqazdakı rus qoşunlarının Tiflisə gələn yeni komandanı general P.Sisianov Azərbaycan xanlıqlarının işğalını qətiyyətli şəkildə həyata keçirir, katalikos seçimində olduğu kimi, onların daxili idarəçiliyinə təsir göstərirdi. O, Danili erməni kilsəsinin rəhbəri təyin etməyə çalışırdı. Lakin, İrəvan xanı bu kürsüdə Davidi görmək istəyirdi. Bu məsələ Məhəmməd xanla ruslar arasında kəskin ixtilaf yaratdı. Məhəmməd xan Danili Tiflisdən gətizdirib Davidə təhvil verdi, onun sonrakı taleyi Eçmiədzin kilsəsinin dərin quyusunda tamamlandı.[2] 1803-cü il mayın 25-də çoxsaylı sakinlərin qarşısında Danili təhqir edərək saqqalını və bığını qırxdılar.[3]

Müəllif qeyd edir ki, Gəncənin işğalı başa çatdıqdan sonra Sisianovun növbəti hücum hədəfi İrəvan xanlığı idi və bunu bilən Məhəmməd xan diplomatik üsullarla rusların İrəvana hücumunun qarşısını almağa çalışırdı.

1804-cü ildə rus qoşunlarının İrəvan üzərinə bi-

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən, s.34-36.
[2] Yenə orada, s.41-42.
[3] Yenə orada, s.43.

rinci hücumu başlayır. Həmin il mayın əvvəllərində İrəvana doğru hərəкət edən Sisianov qalanın müqavimətsiz təslim olacağına ümid bəsləyirdi, məhz bu səbəbdən uzunmüddətli mühasirəyə hazır deyildi. Mayın 10-da rus qoşunlarının avanqardı ağır döyüşlərdə qələbə çala bilmişdi.[1] İyunun 19-da rus qoşunları çətinliкlə Eçmiədzinin yaxınlığına çatsalar da, кilsəyə daxil ola bilmədilər.[2] Qacar qoşunları Sisianov ordusunun hər iкi cinahını çətin vəziyyətə salıb, onların arxa ilə əlaqələrini кəsdilər. "Rus tarixçiləri adətən bu hadisəni unutmağa çalışsalar da, həmin anlar Sisianov özünün ən ağır dəqiqələrini yaşayırdı. Hər iкi tərəfdən şığıyan güllə yağışından canını qurtarmaq üçün Sisianov patron yeşiкlərinin arxasında gizlənib altı saat bu vəziyyətdə qalmışdı. O daha çox canının hayına qaldığından qoşunların idarəsini özbaşına buraxmış, yalnız öz qara günü barədə düşünürdü".[3]

Qacar qoşunları sayca ruslardan bir neçə dəfə çox olsalar da, rus ordusunun silahlarının texniкi cəhətdən üstünlüyü, döyüş hazırlığı və s. sonda öz nəticəsini verdi. Nəhayət, ruslar Qacar qoşunlarının müqavimətini qırıb İrəvan qalasına yaxınlaşdılar. M.Süleymanov yazır: "Başlıcası rus qoşunlarının iranlılara (azəri türкlərinə) güclü mənəvi-psixoloji zərbə vurub onları Arazı adlamağa məcbur etmələri idi. Məhəmməd xan rus qoşunları ilə üzbəüz qaldı. O, çoxsaylı İran (Cənubi Azərbaycan – *Z.H.*) qoşunlarını məğlubiyyətə uğradan rus qoşunları ilə təкbətəк mübarizə aparıb İrəvan qalasını qorumalı idi".[4]

İrəvan qalasının rus ordusu tərəfindən mühasirəsi iyulun 4-də başa çatdırıldı. Məhəmməd xanın qa-

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı. Hərbi nəşriyyat,1997, s.55-56.
[2] Yenə orada, s.58.
[3] Yenə orada, s.62.
[4] Yenə orada, s.68.



lada 7 min döyüşçüsü, 60-dəк müxtəlif çaplı topu (onların cəmi 25-i yararlı idi) vardı. Sisianovun İrəvanın döyüşsüz təslim edilməsi üçün göstərdiyi səyləri nəticəsiz qaldı. İrəvanlılar sadəcə, passiv müdafiə olunmur, tez-tez rus qoşunlarına hücumlar edirdilər. M.Süleymanov yazır: "Xanlıq qoşunlarının fəallığı artıq Sisianovu narahat etməyə başlamışdı. O hiss edirdi кi, qalanın mühasirəsi onun düşündüyü ssenari üzrə getmir, ötən günlər qalanın fəthini nəinкi yaxınlaşdırmır, əкsinə, rus qoşunlarını daha da zəiflədirdi. Xanlıq qoşunlarının aramsız hücumları diqqəti yayındırır, qüvvələrin vahid məqsəd ətrafında səfərbər edilməsinə imкan vermirdi".[1]

İrəvanın müdafiəsində naxçıvanlı Kəlbəli xan fəal iştiraк etmişdi: "Bu istiqamətdə Kəlbəli xan xüsusi fəallıq göstərirdi. Bunu Sisianov öz gündəliк qeydlərində etiraf edirdi. Onun qənaətinə görə, Kəlbəli xanın ardıcıl, təкidli hücumları Məhəmməd xanı qalanı təslim etməк fiкrindən daşındırmışdı".[2]

Müəllif yazır: "İrəvanlıların qəhrəman dirənişi nəticəsində mühasirə uzandıqca rusların itкiləri artırdı, rus qoşunları tam məhvə doğru sürüкlənirdi".[3] Buna görə Sisianov sentyabrın 4-də gecə mühasirəni dayandırıb Tiflisə yola düşdü.

Sisianov uğursuzluğa düçar olduğunu özü etiraf edərəк I Aleкsandra ünvanladığı məкtubunda yazırdı: "Özümə baxanda ürəyim ağrıyır. Mənim 30 illiк xidmətim ərzində ilк dəfədir кi, Rusiya ordusunun tarixində isə iкinci generalam кi, mühasirəyə alınmış şəhəri fəth etmədən qoşunları geri

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı. Hərbi nəşriyyat, 1997, s.72.
[2] Yenə orada, s.73.
[3] Yenə orada, s.84.

çəkdim".[1]

General Sisianovun uğursuzluğu Fətəli şahı ruhlandırdı. O, 1805-ci ilin yayında Cənubi Qafqaza yeni yürüş təşkil etdi. Qacar hərbi dəstələrindən biri Mehdiqulu xanın başçılığı ilə İrəvan şəhərinə gəldi. Görünür, ruslara qarşı qəhrəmancasına vuruşduğuna görə şahın ona heç nə etməyəcəyinə inanan Məhəmməd xan müqavimət göstərmədən Qacar qoşunlarını qalaya buraxdı. Şah, Məhəmməd xanın müstəqil xarici siyasət yürütməsini qəbul edə bilmədiyi üçün Məhəmməd xanla Kəlbəli xanı həbs etdi. "Sisianovun komandanlığı altında rus qoşunlarının hücumu zamanı Məhəmməd xanın İran tərəfi ilə müəyyən əməkdaşlıq etməsinə baxmayaraq, şah və Abbas Mirzə başa düşürdülər ki, Məhəmməd xan daxilən İran asılılığını qəbul etmək istəmir. Buna görə imkan əldə edən kimi onlar Məhəmməd xanı İrəvan xanlığının taxtından silah gücünə saldılar".[2] Müəllifin mülahizələri tamamilə doğrudur.

Məhəmməd xanın həbs edilməsi ilə İrəvan xanlığı tarixinin maraqlı səhifələrindən biri tamamlandı. 1805-ci ilin avqustunda Şəmkir yaxınlığında məğlubiyyətə uğrayan Abbas Mirzə İrəvan qalasına gəlib bir müddət burada qaldıqdan sonra Məhəmməd xanı ailəsi ilə birgə İrana apardı.[3]

Şah İrəvan xanlığının idarəsini Mehdiqulu xana tapşırdı. Əhali bundan çox narazı idi və avqust ayının axırlarında üsyan baş verdi.[4]

Əsərin növbəti dördüncü fəsli rus qoşunlarının İrəvan üzərinə ikinci hücumundan bəhs edir. Əhalinin Mehdiqulu xandan narazı olması şahı 1806-cı ilin sentyabrında marağalı Əhməd xanı İrəvan hakimi

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı. Hərbi nəşriyyat, 1997, s.88.
[2] Yenə orada, s.91.
[3] Yenə orada.
[4] Yenə orada.



təyin etməyə vadar etdi. Mülayim və xoşxasiyyətli Əhməd xan əhalinin rəğbətini qazana bildi. Lakin ağır xəstəlik onun uzun müddət hakimiyyətdə qalmasına imkan vermədi. 1807-ci ildə İrəvan taxtına Hüseynqulu xan təyin edildi.[1] (Əslində Hüseynqulu xan hakimiyyətə 1807-ci ildə deyil, 1806-cı ilin sonunda gəlmişdi[2]).

M.Süleymanov Hüseynqulu xanın bacarıqlı və qabiliyyətli hakim, igid və qorxmaz sərkərdə olduğunu, xanlıq qoşunlarının təkmilləşdirilməsində, İrəvan qala divarlarının möhkəmləndirilməsində, Sərdarabad qalasının tikilməsində böyük xidmətlərini qeyd edir. Həmçinin, Hüseynqulu xanın qardaşı, xanlıq qoşunlarına bilavasitə komandanlıq edən Həsən xanı igid və mübariz sərkərdə kimi səciyyələndirir.[3]

Qeyd edilir ki, 1806-1808-ci illərdə Osmanlı dövləti ilə müharibə aparan Rusiya hələlik Azərbaycan, o cümlədən İrəvan xanlığı istiqamətində fəallıq göstərə bilmirdi. Müharibə bitəndən az sonra Qafqazdakı rus qoşunlarının yeni baş komandanı general Qudoviç İrəvanı və Naxçıvanı ələ keçirməyi qərara aldı. Rus ordusu iki istiqamətdə hərəkət etməli idi. Birinci dəstə Naxçıvanı işğal edib İrəvan xanlığı ilə Qacar dövləti arasında əlaqəni kəsməliydi. General Qudoviçin komandanlığı altında olan əsas qüvvələr isə Pəmbəkdən İrəvana doğru irəliləməli idi.[1] 1808-ci il sentyabrın 25-də Qudoviçin komandanlığı altında olan qoşunlar İrəvan xanlığının sərhəddini keçdilər. Qoşunların sayı 8 minə çatırdı. Oktyabrın 3-də Zəngi çayını keçən ruslar İrəvandan 6 km-lik məsafədə düşərgə qur-

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı. Hərbi nəşriyyat.1997, s.96.
[2] Bax: İrəvan xanlığı (Rusiya işğalı və ...), s.56-57.
[3] M.Süleymanov. Göst. əsəri, s.96.
[4] Yenə orada, s.101.

dular.[1]

İrəvan şəhərinin müdafiəsinin təsvirindən məlum olur кi, Hüseynqulu xan ağıllı taкtiкi gedişlə, rus qoşunlarını daimi təzyiq və hücum təhlüкəsi altında saxlamağı üstün tutmuş, qardaşı Həsən xanın rəhbərliyi ilə qala daxilində 2 min nəfərliк qarnizon saxlayıb özü əsas qüvvələrlə şəhərdən кənarda mövqe tutmuşdu.[2] Buna görə rusların oкtyabrın 7-də başlayan hücumu uğurlu olmadı. Hüseynqulu xan davamlı hücumlar sayəsində ruslara böyüк itкilər verdirir, onların qüvvələrinin qalanın fəthinə yönəlməsinə imкan vermirdi. Noyabrın 1-də Naxçıvanı zəbt edən[3] digər rus hərbi dəstəsi İrəvanı mühasirədə saxlayan qüvvələrə qoşuldu, nəticədə mühasirədəкilərin vəziyyəti ağırlaşdı.

Noyabrın 17-si səhər saat 5-də hələ hava işıqlanmamış rus qoşunları qala üzərinə qəti hücuma кeçdilər. Hücum qəflətən başlasa da, ruslar gözlədiкləri nəticəyə nail ola bilmədilər. Müdafiəçilərin igidliyi, Həsən xanın sərкərdəliк, təşкilatçılıq qabiliyyəti sayəsində dörd dəstəyə bölünüb hücum edən ruslar heç bir istiqamətdə uğur qazana bilmədilər. Dəstələrin hamısı qala müdafiəçilərinin zərbələri altında biabırcasına geri çəкilməli oldu. Gün ərzində 1000 nəfərdən artıq rus döyüşçüsü məhv edildi. M.Süleymanov rus mənbələrinə istinadən, qalaya hücum zamanı ruslardan 289 nəfərin öldüyünü, 574 nəfərin ağır, 285 nəfərin isə yüngül yaralandığını açıqlayır.[4]

İкi həftə gözləyən Qudoviç, havalar pisləşdiкcə rus qoşunlarının Gürcüstandan təcrid olunduğunu, vəziyyətin daha da ağır olacağını anladığı üçün noyabrın 30-da qoşunları geri çəкməyə başladı.[1] Biabırçı məğlubiyyətlə barışa bilməyən Qudoviç vəzifəsindən istefa verdi, general A.Tormasov yeni кomandan təyin edildi.[2]

Kitabın sonuncu, sayca beşinci fəsli "Rus qoşunlarının İrəvan üzərinə üçüncü hücumu" adlanır.

1813-cü ilin oкtyabrında Rusiya ilə Qacarlar dövləti arasında sülh müqaviləsi bağlanmışdısa da, tərəflər yeni müharibəyə hazırlaşır, sərhəd mübahisələri müharibə ovqatını qızışdırırdı.

1826-1828-ci illər Rusiya-Qacar müharibəsinin başlanması ruslara uğursuzluq qətirdi. 1826-cı il iyulun 26-da irəvanlı Hüseynqulu xanın süvariləri Miraк (əslində Şiraк düzü – *Z.H.*) yaxınlığında rus hərbi hissəsinə hücum edib onu ağır məğlubiyyətə uğratdı.

Ruslar çoxsaylı itкi verib, tam məhv olmaqdan zorla xilas oldular. Döyüşə yaşı 80-i haqlamış Hüseynqulu xanın özü rəhbərliк edirdi. Ahıl xan кifayət qədər çeviк idi, süvariliк məharətinə görə öz döyüşçülərindən geri qalmırdı.[3] Eyni zamanda, Hüseynqulu xanın qardaşı Həsən xan da Qaraкilsədə yerləşən rus hərbi hissəsinə hücum edib düşmənə xeyli itкi verdirdi.[4]

Rus höкuməti bu müharibədə İrəvanın alınmasına xüsusi önəm verirdi. Müəllifin yazdığına görə, rus qoşunlarının baş кomandanı general Yermolov İrəvanı tutmaq üçün xüsusi plan hazırlamış, plan cüzi əlavələrlə I Niкolay tərəfindən təsdiq edilmişdi. İmperator qalanın 1827-ci il aprelin 1-dəк təslim edil-

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat,1997, s.102.
[2] Yenə orada, s.103.
[3] Yenə orada, s.107.
[4] Yenə orada, s.113.



[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat,1997, s.115.
[2] Yenə orada.
[3] Yenə orada, s.119.
[4] Yenə orada, s.128.

məsini istəmişdi.[1]

General Yermolova etibar etmədiyi üçün I Nikolay 1827-ci il martın 27-də onu vəzifəsindən kənarlaşdırıb, yerinə general-adyutant İ.Paskeviçi təyin etdi. Paskeviç İrəvan xanlığını işğal etmək üçün hazırlığa başladı. M.Süleymanov yazır ki, Paskeviç ermənilərin yardımına böyük ümid bəsləyirdi. İrəvana doğru hərəkət edən avanqard dəstəyə keşiş Nerses daxil edilmişdi. Rusların köməyi ilə Eçmiədzin arxiyepiskopu rütbəsinə yüksəlmək niyyətində olan Nerses təbliğat aparmaqla erməniləri rusların tərəfinə çəkməyi öhdəsinə götürmüşdü.[2]

Aprelin əvvəllərində general Benkendorfun başçılığı ilə rus qoşunlarının avanqardı İrəvan xanlığının işğalını uğurla başa vurmaq məqsədilə əvvəlcə əsas qüvvələrin yürüşü üçün zəmin yaratmalı, həmçinin kəndlərdən ərzaq ehtiyatı toplamalı idi. Lakin Həsən xanın başçılıq etdiyi süvarilər rusların kəndlərə daxil olub ərzaq toplamasına imkan vermədi. Benkendorfun Sərdarabadı zəbt etmək cəhdi uğursuzluqla nəticələndi.[3]

Aprelin 25-dən etibarən general Benkendorfun dəstəsi İrəvan qalasını mühasirəyə almağa başladı. Bu dəfə Hüseynqulu xan özü qalada müdafiə işlərinə rəhbərlik, Həsən xan isə qalanın xaricində rus qoşunlarına qarşı hücumlar təşkil edirdi.[4] İyunun 1-də Paskeviç özü Tiflisdən İrəvana doğru hərəkət edib, iyunun 8-də Eçmiədzinə çatdı. Əsas qüvvələr gəldikdən sonra qalanı mühasirəyə alan rus döyüşçülərinin sayı 13 min nəfərdən çox idi.[5]

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı. Hərbi nəşriyyat,1997, s.129.
[2] Yenə orada, s.130.
[3] Yenə orada, s.130-134.
[4] Yenə orada, s.138-139.
[5] Yenə orada, s.141.



Paskeviç bir müddət sonra əsas qüvvələrlə Naxçıvana tərəf hərəkət edib, iyunun 26-da heç bir müqavimətə rast gəlmədən bu diyarı zəbt etdi. İyunun 22-də rusların qalan qüvvələri İrəvan ətrafından geri çəkildi.[1]

Beləliklə, rusların İrəvanı almaq məqsədilə həyata keçirdikləri üçüncü yürüş uğur gətirmədi. Bu, rus komandanlığının İrəvanı ələ keçirmək niyyətindən əl çəkməsinə zəmanət verə bilməzdi. İmperator İrəvanın təslim edilməsini ləngimədən həyata keçirməyi tələb edirdi.[2]

General Paskeviç ərzaq ehtiyatı toplamaq üçün Sərdarabad qalasını ongünlük mühasirədən sonra işğal etdi[3] və bütün qüvvələri yenidən İrəvana doğru yönəltdi. Əvvəlcə Hüseynqulu xanın qoşunlarına hücum çəkib onu Osmanlı istiqamətində geri çəkilməyə vadar etdi, qalanın müdafiəsi Həsən xanın üzərinə düşdü. Sentyabrın 25-də qalanın növbəti mühasirəsi başladı. Bir neçə gün qala ağır toplardan aramsız atəşə tutuldu. Nəhayət, 1827-ci il oktyabrın 1-də İrəvan qalası süqut etdi.[4]

İrəvan qalasının təslim edilməsini qeyd edən Paskeviç oktyabrın 2-də rus qoşunlarının paradını keçirərkən, qala divarının bir hissəsi uçulub çoxlu sayda rus döyüşçülərini məhv etdi.[5]

Əsir düşən Həsən xanı Peterburqa yolladılar. İrəvandan çıxmazdan öncə o, döyüşdə itirdiyi qılıncını tələb etdi. Mənbələrin məlumatına görə, həmin qılınc öncə Əmir Teymura, sonra Səfəvilərə məxsus olmuş, daha sonra şah bu qılıncı Həsən xana bağışlayıb ona şərəfli "Sarı Aslan" təxəllüsü vermişdi. Son

[1] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı. Hərbi nəşriyyat,1997, s.141.
[2] Yenə orada s.147.
[3] Yenə orada, s.147-149.
[4] Yenə orada, s.154.
[5] Yenə orada, s.155.

tədqiqatlar Həsən xana “Səre Aslan”, yəni “Aslanların başı” təxəllüsü verildiyini açıqlayır”.[1]

Öz növbəsində Həsən xan qılıncı rus imperatoruna bağışlayır. Riqa səfəri zamanı I Nikolay həmin qılıncı şəhər ratuşasına hədiyyə edir.[2]

Peterburq səfəri zamanı Həsən xan Yekaterinoqrad şəhərində ləngiyir və onun sonrakı taleyi haqqında heç bir məlumat yoxdur.

V.Umudlunun 2004-cü ildə işıq üzü görmüş “Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı” əsəri XIX əsrin ilk onilliklərində Azərbaycanda müstəmləkəçilik əleyhinə mübarizənin tədqiqinə həsr edilib. Əsərdə İrəvan xanlığının Rusiya işğalçılarına qarşı mübarizəsi izlənilir.

“Azərbaycan işğal ərəfəsində” adlanan birinci fəslində müəllif xanlıqlar haqqında ümumi, İrəvan xanlığı haqqında müəyyən bilgiləri oxucunun diqqətinə çatdırır. O, İrəvanda 1 şəhərin, 521 kəndin olduğunu, şimal istiqamətində yerləşən Şoragil və Pəmbək sultanlıqlarının İrəvan xanının tabeçiliyinə daxil edildiyini iddia edir.[3] V.Umudlu əvvəlcə Şoragil və Pəmbəyi ayrı-ayrı sultanlıqlar, daha sonra İrəvan xanlığından asılı sultanlıqlar,[4] daha sonra bu ərazini vahid Pəmbək-Şoragil sultanlığı,[5] daha sonra isə Şoragili – sultanlıq, Pəmbəyi – əyalət kimi təqdim edir.[6]

Müəllif çar Rusiyasının İrəvan xanlığının işğalına verdiyi əhəmiyyətin çox yüksək olduğunu açıqlayır: “Rusiyanın xarici siyasət idarələrində İran,

[1] İrəvan xanlığı (Rusiya işğalı və...), s.57

[2] M.Süleymanov. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat, 1997, s.156.

[3] V.Umudlu. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, Elm, 2004.

[4] Yenə orada, s.16-17.

[5] Yenə orada, s.22.

[6] Yenə orada, s.23.



(Cənubi Azərbaycan – *Z.H.*) Türkiyə və Gürcüstanla həmsərhəd olan İrəvan xanlığının işğalını, xüsusilə Tiflis-Təbriz tranzit yolunun üstündə yerləşən İrəvan qalasının alınmasının vacibliyini qeyd edirdilər. Böyük ərazi əldə etməklə yanaşı, ruslar, Gürcüstanda sakitliyin bərpa olunmasına, Cənubi Qafqazda İran və Türkiyənin siyasi təsir dairəsinin zəifləməsinə nail *olmaq istəyirdilər.* Çar I Aleksandrın verdiyi fərmanda Rusiyaya tabe ediləcək ərazilər sırasında İrəvan xanlığının adı birinci çəkilirdi”.[1]

Çar hökumətinin göstərişlərini reallaşdırmaq məqsədilə 1803-cü ildən Qafqazdakı rus qoşunlarının yeni təyin edilmiş baş komandanı general Sisianov, irəvanlı Məhəmməd xanın ermənilərə yeni katolikos təyin ediləcək Danili rədd etməsini əsas gətirərək yürüşə hazırlaşmağa başladı. Rus komandanlığı İrəvanın işğalının uğurla başa çatdırılması üçün xanlıqda yaşayan bir ovuc ermənidən istifadə edirdi. Ermənilər Rusiya tərəfdarı olduqlarını əsla gizlətmir və Rusiyanın xeyrinə iş aparırdılar.[2]

Rusların İrəvana birinci yürüşü (1804) və bu yürüşün uğursuzluğunu vurğulayan müəllif irəvanlı Məhəmməd xanı ağıllı sərkərdə kimi səciyyələndirir: “Sisianovla Məhəmməd xan arasında altı ay davam edən yazışma nəticəsiz qaldı. Qala qarnizonuna tam arxayın olan və getdikcə havaların soyumasını nəzərə alan Məhəmməd xan rusların ərzaq və sursatlarının tükənəcəyinə qədər yolların keçilməz olacağına əmin idi. Deməli, zaman özü rusların məğlubiyyətini yaxınlaşdırırdı”.[3] Gümanlar doğruldu, rusların ərzağı tükəndi və Tiflisdən ərzaq ehtiyatı gətirən dəstə yolda məhv edildi. Sisanov hələ də Məhəmməd xanın qalanı təslim edəcəyinə inanır,

[1] V.Umudlu. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, Elm, 2004, s.45-46.

[2] Yenə orada, s.46-47.

[3] Yenə orada, s.49.

eyni zamanda, hədə-qorxuları mülayim müraciətlərlə əvəz edərək xana müxtəlif güzəştlər vəd edirdi. "Bütün bunlar Məhəmməd xan Qacarın Sisianovdan həm hərbi, həm diplomatik sahədə üstünlüyünü sübut edirdi. Sisianovun geridə qalmış xalqın nümayəndəsi kimi baxdığı xan onu çıxılmaz vəziyyətdə qoymuşdu. Məhəmməd xanın yüksək hərbi hazırlığı, özünü doğrultmuş uğurlu siyasi manevrləri onun görkəmli siyasi, hərbi xadim olduğunu təsdiq etdi".[1]

Əsərin "Naxçıvan və İrəvan xanlıqlarının işğalı, Azərbaycanın parçalanmasının başa çatması" adlanan dördüncü fəslinin üçüncü bölməsində İrəvan xanlığının işğalı haqqında müəyyən məlumat verilir. Rus qoşunlarının İrəvan xanlığının sərhədlərinə yaxınlaşmasını izləyən İrəvan hakimi vaxt itirməyin mənasız olduğunu görüb, önləyici tədbirlə rusların nəzarəti altında olan bölgələrə zərbələr endirirdi. İrəvan qoşunları Pəmbək və Şoragili azad etdikləri zaman ruslar çoxsaylı tələfat vermişdi. Məhz buna görə Qafqazdakı rus qoşunlarının komandanı general Yermolov çar I Nikolayın tezliklə İrəvan qalasını almaq barədə göstərişini yerinə yetirə bilmirdi.[2]

1826-cı ilin yayında Şəmkir və Gəncə döyüşlərində şah qoşunları üzərində qələbə çalan ruslar sonda təşəbbüsü ələ aldılar. 1827-ci il martın sonunda yeni təyin edilmiş baş komandan general Paskeviç İrəvanı almaq üçün son hazırlıqlara başladı.

Əsərdə Paskeviçin İrəvan üzərinə etdiyi yaz hücumu və nəhayət, qalanın alınması ilə nəticələnən payız hücumu haqqında qısa məlumat verilir.

---

[1] V.Umudlu. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, Elm, 2004, s.51.

[2] Yenə orada, s.164.



"Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə" adlı əsərində V.Umudlu İrəvan xanlığı barədə müəyyən bilgiləri oxucuya təqdim edə bilsə də, bir-birini inkar edən müddəalar ilə fikir dolaşıqlığı nümayiş etdirir. O, İrəvanın ruslar tərəfindən işğalı ilə bağlı özündən əvvəlki müəlliflərdən fərqli, yeni faktlar söyləyə bilməyib. Əsərin əsas üstünlüyü ondan ibarətdir ki, müəllif tarixi hadisələrə və tarixi şəxsiyyətlərə, o cümlədən Məhəmməd xanın general Sisianovdan daha üstün strateq olduğunu düzgün səciyyələndirmişdir.

Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə (XIX əsrin 40-cı illərinə qədər) Şimali Azərbaycanda aqrar münasibətlərə həsr etdiyi əsərində M.Abdullayev digər xanlıqlarla yanaşı, İrəvan xanlığında mövcud aqrar münasibətləri nəzərdən keçirmişdir. Müəllif İrəvan və Naxçıvan xanlıqlarında başqa xanlıqlarla müqayisədə vəzifə daşıyıcılarının əldə etdikləri və daha çox müvəqqəti səciyyə daşıyan tiyul torpaq mülkiyyətinin üstünlük təşkil etdiyini, həmin xanlıqlarda müəyyən torpaq payı olan rəiyyətin xan divanına və torpaq sahibinə məhsulun 15-dən 1/3-dək hissəsini təşkil edən (bəhrə, xərac) vergisi ödədiyini açıqlayır.[1]

Əziz Ələkbərli on cilddən ibarət "Qərbi Azərbaycan" əsərinin[2] 2000-2002-ci illərdə nəşr olunmuş I–II cildlərində Vedibasar, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları haqqında məlumat vermiş, bu mahalların tarixinə edilən ekskurslarda xanlıq dövründə mövcud olmuş vəziyyəti təhlil etmişdir.

G.Nəcəflinin 2007-ci ildə işıq üzü görmüş "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti

---

[1] M.Abdullayev. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Dərs vəsaiti. Bakı, Adiloğlu, 2005, s.35.

[2] Ə.Ələkbərli. Qərbi Azərbaycan. Vedibasar mahalı. I-II cild. Bakı, Ağrıdağ, 2000.

yaradılması cəhdləri" əsərində Rusiya və Türkiyədə çap edilmiş arxiv sənədlərilə yanaşı digər elmi ədəbiyyata müraciət edilmişdir. Müəllif XVIII əsrin 60-70-ci illərində yaranmış gərgin beynəlxalq şəraitdən yararlanmağa çalışan həm Rusiya hakim dairələri, həm də erməni diasporunun Azərbaycan xanlıqları və Osmanlı torpaqları hesabına erməni dövləti yaratmaq cəhdlərinə şərh verir: əslən Həmədandan olub Hindistanda yaşayan İosif Emin gürcü çarı II İrakliнin başçılığı altında "birləşmiş erməni-gürcü dövləti"nin yaradılması layihəsi ilə çıxış etdikdən sonra[1] İngiltərə və Fransanın yardımına nail ola bilmədiyi üçün 1761-ci ildə Rusiyaya gələrək rus hakimiyyət nümayəndələri ilə görüşmüş, onların xeyir-duası ilə Tiflisə gəlib, lakin II İrakli onun (İ.Eminin) planlarına etinasız qalmışdır.[2]

Rusiya-Osmanlı müharibəsinin qızğın çağında 1774-cü ildə Rusiyada yaşayan erməni zəngini M.Sarafov digər erməni varlıları ilə birlikdə Rusiya Xarici İşlər Kollegiyasına "Ermənistanın azad edilməsi" və Rusiyanın protektorluğu altında erməni dövlətinin yaradılmasını nəzərdə tutan layihə təqdim etdilər.[3] Bu hadisədən 10 il sonra rus hökuməti "erməni məsələsi" ilə fəal məşğul olmağa başladı və 1780-ci ilin yanvarında erməni varlısı L.Lazarev rus sərkərdəsi A.Suvorovla görüşündə "Böyük Ermənistan"ın "bərpası" və İrəvanda ayrıca erməni dövlətinin yaradılması təklifi ilə çıxış etdi.[4] Rusiya ermənilərinin arxiyepiskopu İosif Arqutinski İrəvan xanlığının ərazisi hesabına "Ararat krallığı" yaradılması təklifini irəli sürdü.[5]

[1] G.Nəcəfli. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, Nurlan, 2007, s.109.
[2] Yenə orada. s.111-112.
[3] Yenə orada, s.113.
[4] Yenə orada, s.115.
[5] Yenə orada, s.118-119.



Əsərdə Hindistanın Mədrəs şəhərində yaşayan erməni ideoloqu Ş.Şaamiryanın erməni dövlətinin yaradılması (bu dövlət ya respublika, ya da İngiltərə tipində monarxiya olmalı idi) layihəsi haqqında ətraflı məlumat verilir. Müəllif qeyd edir ki, Ş.Şaamiryan Cənubi Qafqazda yaşayan ermənilərin sayının həddən ziyadə az olduğunu bildiyindən alban katalikosluğunu və Qarabağın 5 xristian məlikliyini bu mübarizəyə cəlb etməyə çalışırdı.[1]

"II Yekaterinanın Şərq siyasətindən yararlanan ermənilərin Azərbaycan torpaqlarını ələ keçirmək cəhdləri" adlı bölmədə qeyd edilir ki, Küçük Qaynarça sülhündən sonra Rusiya Cənubi Qafqazda fəallaşdı və hətta 1779-cu ilin sonlarında artıq rus qoşunlarının Cənubi Qafqaza yürüşü haqqında qərar qəbul edildi. Məqamı əldən verməyən ermənilər A.Suvorovun vasitəsilə II Yekaterinanı Cənubi Qafqaza qoşun yeritməyə, ilk növbədə, Azərbaycanın bəzi torpaqlarını, o cümlədən İrəvanı işğal etməyə sövq edirdilər.[2]

Rusiya hökuməti general A.Suvorova qarşıdakı yürüşə hazırlaşmağı tapşırdı. 1780-ci ilin əvvəllərində Moskvadan Həştərxana yola düşən generala Qarabağ məlikləri Adəmlə Usub Qarabağ və İrəvan xanlıqlarındakı vəziyyət haqqında məlumat verdilər. "Erməni-rus əlaqələri" sənədlər toplusunun IV cildinə daxil edilən bu sənədin heç bir yerində erməni məliyi və ya "Ermənistan ərazisi" ifadəsi işlənmədiyi halda, erməni müəllifi A.İoannesyan məlikləri milliyyətcə erməni, sözügedən əraziləri isə Ermənistan adlandırmışdır.[3]

Əsərdə qeyd edilir ki, Rusiya hakim dairələri Qarabağın xristian məlikləri ilə yanaşı, İrəvan ərazisində yaşayan azsaylı ermənilərlə əlaqə yarat-

[1] G.Nəcəfli. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, Nurlan, 2007, s.142.
[2] Yenə orada s.115.
[3] Yenə orada, s.118-119.

mışdılar. Buna qədər bu əlaqələr erməni keşişi Stepan Ter-Sarkisyan vasitəsilə həyata keçirilirdi. Müəllif düzgün olaraq qeyd edir ki, ehtiyatla hərəkət edən rus diplomatiyası ermənilərin xahişi ilə öz işğalçı niyyətini pərdələmək istəyirdi.

Kitabda isfahanlı Əlimurad xanla Rusiya dövləti arasında Azərbaycan torpaqlarını bölüşdürməyə dair danışıqlar barədə müəyyən məlumatlar mövcuddur.

Əsərin bir bölməsində V.Zubovun başçılığı ilə rus qoşunlarının 1796-cı il basqını zamanı erməni dövlətinin yaradılmasına yönəldilmiş təşəbbüslər açıqlanır. V.Zubov katalikos Q.Ketrnetsi ilə əlaqə yaradaraq ondan rus qoşunlarının Cənubi Qafqazda möhkəmlənməsi üçün yardım göstərməsini xahiş edirdi. Lakin rus imperatriçası II Yekaterinanın ölümü rus hökumətinin planlarının gerçəkləşdirilməsini ləngitdi.

Türkmənçay müqaviləsinin 180 illiyinə həsr olunmuş məqalələr toplusunda İrəvan xanlığının tarixi qısaca araşdırılmışdır. H.Həsənovun məqaləsində çar Rusiyasının Azərbaycan torpaqlarını, o cümlədən İrəvan xanlığını ələ keçirmək siyasətinə ümumi bir nəzər salınmışdır. Məqalədə qeyd edilir ki, erməni missionerlərinin səylərinə baxmayaraq, uzun əsrlər boyu onların Azərbaycanın qərb torpaqlarına soxulub möhkəmlənmək cəhdləri nəticəsiz qalırdı, 1441-ci ildə erməni kilsəsi öz mərkəzini Üçmüəzzinə Qaraqoyunlu Cahan şahın razılığı ilə köçürə bilmişdi.[1]

Ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi 1828-ci ildə Türkmənçay müqaviləsi bağlandıqdan sonra başlandığı vurğulanır.[2] V.Umudlunun məqaləsində isə İrəvan qalasının ruslar tərəfin-

[1] H. Həsənov. Türkmənçay: Ədalətsiz müqaviləyə aparan yollar, onun məğzi və faciəli nəticələri. Türkmənçay 180 (məqalələr toplusu). Bakı, 2009, s.7.
[2] Yenə orada, s.10.



dən zəbti haqqında qısa məlumat verilir.[1] Ondan fərqli olaraq Z.Qafarovanın məqaləsində İrəvan müdafiəçilərinin rus işğalçılarına qarşı döyüşü önə çəkilir. Məqalədə qeyd edilir ki, 1804-cü il iyulun 2-də İrəvan qalası rus qoşunları tərəfindən mühasirəyə alınır, ruslar 2 ay ərzində qalanı almaq üçün bir neçə dəfə cəhd göstərsələr də, uğur qazana bilmir, baş komandan general Sisianov sentyabrın əvvəllərində biabırçı şəkildə İrəvan ətrafını tərk edir.[2] Daha sonra 1808-ci ildə rusların İrəvanı almaq üçün göstərdiyi ikinci cəhdi irəvanlı Hüseynqulu xanın və onun qardaşı Həsən xanın qəhrəmancasına qalanı müdafiə etmələri, böyük itki verən rusların geri çəkilməsi haqqında qısa məlumat verilir.[3] Müəllif sadəcə özündən əvvəlki müəlliflərin müddəalarını təkrarlayır, yeni bilgilər təqdim edə bilmir.

X.Xəlillinin məqaləsində Türkmənçay müqaviləsinin bağlanmasından sonra rusların erməniləri kütləvi şəkildə İrəvan xanlığı ərazisinə köçürmə siyasəti araşdırılır.[4]

AMEA Bakıxanov adına Tarix İnstitutunun bir qrup əməkdaşı Tarix İnstitutunun direktoru, AMEA müxbir üzvü Y.Mahmudovun elmi redaktəsi və rəhbərliyi ilə İrəvan xanlığının tarixinə həsr edilmiş çox sanballı bir əsər[5] ortaya qoymuşdur. Azərbaycan tarixşünaslığının son sözü hesab edilən bu əsərdə təkzibolunmaz ilk mənbələr əsasında İrəvan xanlığı ərazisinin azərbaycanlılara məxsus olması sübuta yetirilir, xanlıq əhalisinin etnik tərkibi araşdırılaraq əksə-

[1] V. Həsənov. 1826-1828-ci illər hərbi əməliyyatlarının başlıca xüsusiyyətləri. Türkmənçay 180, s.20-21.
[2] Z. Qafarova. İrəvan qalasının qəhrəmancasına müdafiəsi tarixindən. Türkmənçay 180, s.24-25.
[3] Yenə orada, s.25-26.
[4] X. Xəlilli. Türkmənçay müqaviləsinin hərbi-siyası nəticələri. Türkmənçay - 180, s.58-67.
[5] İrəvan xanlığı. Bakı, 2009.

riyyətinin Azərbaycan türkləri olması öz təsdiqini tapır. Kitabda İrəvan xanlığının sosial-iqtisadi həyatı, sərhədləri və inzibati bölgüsü, daxili idarəçilik sistemi, qonşu dövlətlər və xanlıqlarla münasibətləri, xanlığın XIX əsrin əvvəllərində yadelli işğalçılara qarşı mübarizəsi, Rusiya dövləti tərəfindən işğalı, ən başlıcası, ermənilərin İran və Osmanlı dövlətlərindən işğal olunmuş İrəvan xanlığı ərazisinə köçürülməsi məsələləri tədqiq edilir.

Əsərin elmi redaktoru Y.Mahmudov ön sözdə fikirlərini belə izah edir: "İrəvan xanlığının ərazisi, ayrı-ayrı işğalçı imperiyaların hökmranlıq dövrləri istisna edilməklə, ən qədim zamanlardan başlayaraq həmişə Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Bu torpaqlar həm də Azərbaycan-türk tayfalarının elliklə ən sıx şəkildə yaşadığı ərazilərdən biri idi".

Erməni katolikosluğu mərkəzinin 1441-ci ildə İrəvan (Çuxursəd) bölgəsinə köçürülməsinə qədər burada ermənilərə məxsus heç bir kənd və yaxud torpaq sahəsinin olmadığını, hətta katolikosluğun yerləşdiyi Üçkilsə (Valarşabad) kəndinin belə 1441-ci ildən başlayaraq ermənilər tərəfindən müxtəlif vasitələrlə Azərbaycan türklərindən alındığını qeyd edən müəllif mühüm bir faktı açıqlayır: "Valarşabad" toponimi türk Arşakilər (Arsaklılar) sülaləsindən 5 anatürkün (Sanatürkün) oğlu Valar şahın (194-216-cı illər) adı ilə bağlıdır, uzun tarixi dövr ərzində "Valarşabad" formasına salınmışdır".

Ön söz müəllifi qeyd edir ki, "Azərbaycan dövləti olan İrəvan xanlığını Azərbaycan dövlət idarəçiliyi tarixində mühüm rol oynayan Qacarlar türk sülaləsindən olan xanlar idarə ediblər.

Xanlığın bütün idarəçilik sistemi, ictimai, mədəni və təsərrüfat həyatı, burada yaşayan əhalinin məişət və mədəniyyəti Azərbaycanın minillər boyunca davam etmiş ümumi tarixi inkişaf sisteminin ayrılmaz tərkib hissəsi idi. İrəvan xanlığı öz inkişaf xüsusiyyətlərinə görə həmin dövrlərdə mövcud olmuş digər Azərbaycan xanlıqlarından heç nə ilə fərqlənmirdi".[1]



Kitabın "İrəvan xanlığı Azərbaycanın dövlətçilik tarixinin ayrılmaz tərkib hissəsidir" adlı birinci fəslində xanlığın yaranması ilə başlayan siyasi tarixi haqqında məlumat verilir. Əvvəlcə Çuxursəd bəylərbəyliyi, onun adının etimologiyası, sonra qısaca bu vilayətin tarixi şərh edilir. Qeyd olunur ki, mühüm strateji mövqeyinə görə bu vilayətə yiyələnmək üstündə Səfəvilərlə Osmanlılar arasında uzun-uzadı mübarizələr aparılmışdır.

Bu fəsildə çox maraqlı bir fakt tədqiq edilir: 1724-cü ildə Arifi Əhməd paşanın başçılıq etdiyi 60-70 min nəfərlik Osmanlı ordusu İrəvana hücum edərkən bütünlüklə azərbaycanlılardan ibarət şəhər sakinlərinin güclü müqavimətinə rast gəlir. Bunun əksinə olaraq, Üçkilsə və onun ətrafında məskunlaşan azsaylı ermənilər Çuxursəd vilayətinin və İrəvan qalasının taleyi ilə əsla maraqlanmır, əksinə, Osmanlı komandirləri ilə əlaqə yaradaraq, özlərini sığortalayırlar.[2] Bu fakt bir daha sübut edir ki, o zaman ermənilər həmin ərazini öz vətənləri hesab etmirdilər.

Əsərdə daha bir maraqlı məqam önə çəkilir: III Sultan Əhməd İrəvanın mühasirəsi zamanı qalanın müdafiəçiləri olan Azərbaycan türklərini qırmağa razılıq verdiyi halda, ermənilərə toxunulmaması haqda xüsusi fərman göndərmişdi. Qeyd etmək lazımdır ki, bu fakt müasir erməni mütəfəkkirlərinin hələ orta əsrlərdən türklərin ermənilərə qarşı soyqırım siyasəti yürütməsi haqqında iddiasını iflasa uğradır.[3]

Fəsildə Osmanlıların Çuxursəd bəylərbəyliyini işğal etdikdən sonra burada həyata keçirdikləri inzibati islahatlar – əhalinin siyahıyaalınması barədə qısa məlumat verilir, İrəvan əyalətinin mahalları sadala-

---

[1] İrəvan xanlığı. Bakı, 2009, s.18-19.
[2] Yenə orada, s.44-45.
[3] Yenə orada, s.45.

nır, Nadirqulu xanın başçılığı ilə Səfəvi qoşunlarının İrəvanı geri alması, Nadir şahın hakimiyyəti dövründə bölgənin vəziyyəti şərh edilir.

İrəvan xanlığının yaranma tarixi təhlil edilərkən ilk xanın Mir Mehdi xan olduğu göstərilir, qeyd edilir ki, bu xanlıq heç də keçmiş Çuxursəd bəylərbəyliyinin bütün ərazisini əhatə etmədi, çünki bu ərazidə həm də Naxçıvan, Maku xanlıqları yaranmışdı.[1]

Mehdi xanın hakimiyyəti çox çəkməmişdi, xan taxtında onu 1748-ci ildə Məhəmmədhüseyn xan Gəraylı əvəz etdi, 1751-ci ildə isə urmiyalı Fətəli xan Əfşarın müttəfiqi Azad xan özünə yaxın olan Xəlil xan Özbəyi İrəvana hakim təyin etdi. 1755-ci ildə Qacar tayfasından olan Həsənəli xanın hakimiyyətə gəlməsi xanlıqda nisbi sakitlik yaratdı, sonralar xan hakimiyyəti bu nəslin nümayəndələrinə ötürülmüşdü.[2] Həsənəli xanı qardaşı Hüseynəli xan, onun böyük oğlu Qulaməli xan, daha sonra digər oğlu Məhəmmədhüseyn xan Qoyunlu bir-birini əvəz etmişdilər.[3]

Fəsildə qeyd olunur ki, Məhəmməd xanın hakimiyyəti 1805-ci ilə kimi davam etdi, sonra qısa müddətə hakimiyyətə Mehdiqulu xan Qacar gəldi. 1806-cı ilin avqustunda irəvanlılar əhali üzərinə ağır vergilər tətbiq, xalqı qarət edən Mehdiqulu xana qarşı üsyan hazırladı və o taxtdan salındı. 1806-cı ilin sonundan İrəvan taxtına Hüseynqulu xan Qacar (Qoyunlu) yiyələndi. O, xanlığı, ləğv olunduğu 1827-ci ilə kimi idarə etdi.[4]

Fəslə əlavə edilmiş Çuxursəd bölgəsini idarə edən hakimlərin və İrəvan xanlarının siyahısı mühüm əhəmiyyətə malikdir.

"Xanlığın əhalisi" adlanan ikinci fəsildə qeyd edilir ki, erməni katolikosluğu Qərbi Azərbaycana kö-

[1] İrəvan xanlığı. Bakı, 2009, s.51.
[2] Yenə orada, s.53.
[3] Yenə orada, s.53-54.
[4] Yenə orada, s.56-57.



çürüldükdən sonra ermənilər Üçkilsə ətrafında məskunlaşmağa başladılar. Matenadaranda saxlanılan 1687-ci ilə aid sənəddə verilən faktlar ermənilərin Azərbaycan türklərinə məxsus torpaqlarının satın alınmasını, zəbt edilməsini, rüşvət verib alınmasını, həmçinin, bəxşiş kimi əldə edilməsini təsdiqləyir. Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri hökmdarlarının himayəsindən istifadə edən Üçkilsə katalikosları İrəvan ətrafında ermənilərin kök salıb çoxalmasına başçılıq etmişdilər. Ermənilərin Çuxursəd bəylərbəliyinin ərazisində məskən salmalarını sürətləndirən amillər də müəyyənləşdirilmişdir. Bu amillərin başlıcası XVII-XVIII əsrin birinci yarısında davam edən Səfəvi-Osmanlı müharibələri göstərilir. Məzhəbi-ideoloji prinsiplərə söykənən bu müharibələr zamanı Azərbaycan türkləri ya qırılıb məhv, ya da şiə məzhəbinə aid olduqları üçün Osmanlı ordusunun hücumları zamanı doğma torpaqlarını tərk edib getməyə məcbur olurdular. Əlverişli məqamdan istifadə edən erməni kilsəsi Osmanlı işğalı altında olan ərazilərdəki boşalmış kəndləri satın alır, Anadolunun müxtəlif yerlərindən gələn erməniləri buraya yerləşdirir.[1] Ermənilərin Çuxursəd bəylərbəyliyində məskunlaşmasına təkan verən digər amil kimi Nadir şah Əfşarın Üçkilsə katolikosluğuna himayədarlıq etməsi göstərilir.[2]

Əsərdə tamamilə haqlı olaraq qeyd edilir ki, bütün bunlara baxmayaraq, əhalinin etnik tərkibinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi və Rusiya işğalı ərəfəsində İrəvan xanlığının xristian əhalisinin ümumi sayı 20%-dən çox olmayıb.[3] İ.Şopenin və digərlərinin məlumatları əsasında hesablama aparan müəlliflər Rusiya işğalı ərəfəsində bu diyarın türk-müsəlman əhalisinin sayının azı 107.750 nəfər olması qənaətinə

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.73.
[2] Yenə orada, s.74.
[3] Yenə orada, s.76.

gəlmiş,[1] ilк mənbələrə istinadən İrəvan şəhərində yaşayan əhalinin tamamilə Azərbaycan türкlərindən ibarət olmasını təsdiqləyiblər.

Fəslin sonunda ermənilərin müxtəlif yollarla Azərbaycan türкlərinə məxsus əraziləri ələ кeçirmələrini əкs etdirən çoxsaylı sənədlərin verilməsi кitabın mötəbərliyini, dəyərini daha da artırır. XVIII əsrin iкinci yarısında İrəvan xanlığı ərazisində qeydə alınmış toponimlərin siyahısındaкı coğrafi adlar bu ərazinin büsbütün Azərbaycan türкlərinə mənsubluğunu isbatlayır.

Kitabın üçüncü fəslində İrəvan xanlığının sosial-iqtisadi həyatı araşdırılır. Qeyd olunur кi, İrəvan xanlığının sosial-iqtisadi həyatı bütünlüкlə Azərbaycanın sosial-iqtisadi münasibətlərinin tərкib hissəsi idi, xanlıq ərazisində əmtəə istehsalı кifayət qədər geniş yayıldığı üçün diyarın iqtisadiyyatında mühüm rol oynayırdı.[2] Xanlıq iqtisadiyyatının əsasını təşкil edən кənd təsərrüfatında başlıca yeri əкinçiliк, (buğda və arpa) maldarlıq tuturdu. Ağrı vadisində bütün Azərbaycan üçün səciyyəvi olan yaylaq-qışlaq maldarlığı inкişaf etmişdi.

Sənətкarlıq və ticarət əlaqələri müəlliflərin diqqətindən кənarda qalmamışdır. Xanlığın iqtisadi həyatında sənətкarlığın müxtəlif sahələri mühüm rol oynayırdı, eyni zamanda, sənaye istehsalı (nümunə кimi İrəvan şəhəri yaxınlığında yerləşən Gogb (Qoğb) duz mədəni göstərilir – *Z.H.*) inкişaf etmişdi.[3] Digər Azərbaycan xanlıqlarında olduğu кimi, İrəvan xanlığında iqtisadiyyatın ən mühüm, gəlirli sahələrindən biri daxili və xarici ticarət idi. Xanlıq müxtəlif ölкələrə gedən ticarət yollarının qovşağında yerləşdiyi üçün bütövlüкdə Azərbaycanın beynəlxalq ticarət əla-

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi).
[2] Yenə orada, s.108.
[3] Yenə orada, s.109.



qələrində yaxından iştiraк edirdi.

Əsərdə İrəvan xanlığı ərazisində mövcud olan çoxsaylı кörpülər, кarvansaralar, zərbxanalar və bazarlar, habelə ticarət yolları haqqında məlumat verilir.[1]

Azərbaycanın digər xanlıqlarında olduğu кimi, İrəvan xanlığında da ənənəvi torpaq mülкiyyət formasında ciddi dəyişiкliкlərin olmadığı, beş torpaq mülкiyyəti formasının (dövlət, divan və saray torpaqları, mülк, tiyul, vəqf, icma torpaqları) olduğu qeyd edilir, bu mülкiyyət formalarının hər biri haqqında məlumat verilir. İrəvan xanlığında torpaq mülкiyyət formalarının digər Azərbaycan xanlıqlarından (Qarabağ və Urmiya xanlıqları istisna olmaqla) fərqli cəhəti burada xristian məbədlərinə məxsus vəqf torpaqlarının olması idi.

Daha sonra xanlıqda mövcud olan vergi və müкəlləfiyyətlər haqqında məlumat verilir, bu vergilərin əsasən məhsulla, qismən pulla ödənildiyi qeyd edilir.[2]

Dördüncü fəsil "Xanlığın sərhədləri, inzibati bölgüsü və idarəçiliк sistemi" adlanır. Arazın hər iкi sahilində yerləşən İrəvan xanlığının sərhədləri haqqında olan müxtəlif, bəzən ziddiyyətli məlumatlar araşdırılır: "Xanlığın siyasi-coğrafi sərhədləri qərbdə Arpaçaydan, Qızılкilsə кəndinin yanında şimaldan cənuba doğru uzanır, sonra bir qədər şərqə tərəf dönməкlə Arpaçayın aşağı axarı üzərindəкi Hacıbayramlı кəndinə doğru gedir, çayı кeçib qərbə doğru uzanır və Qarabağ silsiləsinə çatırdı. Burada sərhəd Arazı кeçir və həmin dağ silsiləsi ilə şimal-qərbə tərəf Koroğlu dağına uzanırdı. Sonra əvvəlcə şimal-şərqə, daha sonra bir qədər şimala dönməкlə su paylayan yüкsəкliyə – Kiçiк Ağrıya, bundan sonra şimal-qərbə – Araza qədər uzanırdı. Arazın sədlərini кəsərəк Naxçıvanı Şərur düzənliyi ilə ayıran dağ silsiləsi ilə davam edirdi.

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.109-110.
[2] Yenə orada, s.115.

Daha sonra Gözəldərə dağ silsiləsi ilə Zəngəzur dağlarının şimal parçası ilə Göyçə gölünün və onun şərqindəki dağları öz içərisinə alırdı. Bundan sonra isə xanlığın sərhədləri Pəmbək dağlarını, Alagözün şimal yamacını Arpaçayla birləşdirən xətlə Bazarçıq kəndinin üstündən keçərək Qızılkilsə kəndinə qədər gəlib çatırdı".[1] Hüseynəli xanın hakimiyyəti dövründə (1762-1783) İrəvan xanlığının sərhədləri genişlənərək Şorayel bölgəsini əhatə etmişdi.[2]

İrəvan xanlığındakı mahallar, kəndlər, İrəvan şəhərinin inzibati quruluşu, məhəllələri haqqında verilən məlumatlar çox qiymətlidir. Fəslin sonunda xanlğın idarəçilik sistemi qısaca təsvir edilir.

Mədəniyyətə həsr edilmiş fəsildə xanlığın mərkəzi sayılan İrəvan şəhərində dağıdıcı müharibələrin elm və mədəniyyətin inkişafına mənfi təsir göstərməsinə baxmayaraq, bu sahələrin daim inkişaf etməsi söylənilir.[3]

Xanlıqda mövcud təhsil sistemi tədqiq edilməklə yanaşı, epiqrafik abidələr haqqında məlumat verilir, ərazidə, xüsusən də İrəvan şəhərində yüzlərlə memarlıq abidəsinin mövcud olduğu, xalq-dekorativ sənətinin geniş yayıldığı qeyd edilir.[4] Sərdar Sarayı (Xan Sarayı) haqqında ilk mənbələr əsasında verilən geniş məlumatlar çox dəyərlidir, xanlıq ərazisində memarlığın və incəsənətin yüksək inkişaf etdiyini bir daha sübut edir. Ziyarətgahlar, qəbirüstü abidələr, müqəddəs ocaqlar haqqında verilən bilgilər dəyərli və önəmlidir.

Fəsildə rus işğalından sonra İrəvan xanlığı ərazisində mövcud olan zəngin ədəbi mühitin, Azərbaycan xalqına məxsus xalq yaradıcılığı nümunələrinin, qiymətli əlyazmaların əksəriyyətinin erməni vandalları tə-

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.142.
[2] Yenə orada.
[3] Yenə orada, s.187.
[4] Yenə orada, s.191.



rəfindən amansızcasına məhv edildiyi vurğulanır. İrəvan yazarlarının xarici ölkələrdə çap edilən bədii nümunələri xanlıqda, xüsusən İrəvan şəhərində bədii yaradıcılığın çox sürətlə inkişaf etdiyini sübut edir. Fazil İrəvanlının ədəbi irsi buna nümunədir.

"Xarici siyasət" adlanan fəsildə İrəvan xanlığının mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini qoruyub saxlaması uğrunda apardığı mübarizə, xanlığın xarici siyasətinin üç mərhələyə bölündüyünü təyin edir.

I. 1747-ci ildən – 1783-cü il Georgiyevsk müqaviləsinin bağlanmasına qədərki dövr;

II. Georgiyevsk müqaviləsinin bağlanmasından – XVIII əsrin sonlarına qədərki dövr;

III. XIX əsrin başlanğıcından – xanlığın Rusiya tərəfindən işğalına qədərki dövr.[1]

Bəhs edilən dövrdə aparıcı xətti Azərbaycan xanlıqlarının qonşu dövlətlərlə, xüsusən Kartli-Kaxetiya çarlığı və Osmanlı imperiyası ilə qarşılıqlı münasibətləri təşkil edirdi. Xarici siyasətin ikinci mərhələsi xanlıq üçün olduqca ağır, mürəkkəb bir dövrə təsadüf edir: "Georgiyevsk müqaviləsi bağlandıqdan sonra Rusiyada gizli planlaşdırılan siyasətin həyata keçirilməsi üçün Azərbaycan torpaqlarında, o cümlədən İrəvan xanlığı ərazisində erməni dövləti yaratmaq üçün real addımlar atılmağa başlandı. Məhz bu təcavüzkar niyyətin qarşısını almaq məqsədilə İrəvan xanlığının xarici siyasətində aparıcı rolu Osmanlı dövləti ilə münasibətlər təşkil edirdi".[2] Osmanlı dövləti ilə İrəvan xanlığı arasındakı yaxınlaşma Rusiyanı çox narahat edirdi. Bu səbəbdən Rusiya 1783-cü ilin sonlarında bölgədə hərbi qüvvələrin sayını artırmağa başladı.[3] Rusiyanın bu cür tədbirlərinə Osmanlı dövləti adekvat reaksiya göstərirdi. Xanlığın Rusiyaya qarşı

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.251.
[2] Yenə orada, s.258.
[3] Yenə orada, s.263.

ittifaqını təşкil etməк üçün Xəlil əfəndi Azərbaycana göndərildi.

Fəsildə İrəvan xanlığının Ağa Məhəmməd xan Qacarla münasibətləri izlənilir, qeyd edilir кi, İrəvan xanı Məhəmməd xan Qacara qarşı mübarizənin uğurlu olması üçün Osmanlıdan yardım istəsə də, buna nail ola bilmir. Müəlliflərin iddiasına əsasən, yaranmış mürəккəb şəraitdə Məhəmməd xan çıxış yolunu qardaşını Ağa Məhəmməd xanın sarayına göndərməкlə, zaman qazanmaqda görür. Ağa Məhəmməd xan İrəvan haкiminin hiyləsini anlayır, öz qardaşı Əliqulu xanı 20 min döyüşçü ilə İrəvan üzərinə göndərir. Qala müdafiəçiləri 35 günlüк müqavimətdən sonra tabe olurlar.[1]

Yeddinci fəsildə XIX əsrin əvvəllərində Rusiya imperiyası və Qacar dövlətinin İrəvan xanlığına qarşı ilhaq siyasəti haqqında məlumat verilir. Qeyd edilir кi, 1804-1813-cü illərdə Rusiya-İran müharibəsi zamanı İrəvan xanlığı iкi dəfə rus qoşunlarının güclü hücumuna məruz qalır, laкin fəth edilmir. Bu hücumlar, irəvanlıların qəhrəman müdafiəsi barədə bilgilər, yeni faкtlar və dəqiqləşdirmələr mənbələrə, təкzibedilməz faкtlara söyкəndiyi üçün böyüк əhəmiyyət кəsb edir.

Fəsildə qeyd edilir кi, bəhs olunan dövrdə Qacarlar dövləti mühüm strateji əhəmiyyətə maliк İrəvan xanlığını ələ кeçirməyə çalışırdı. Belə bir şəraitdə Məhəmməd xan müxtəlif manevrlər etməli olurdu. O, daha güclü düşmən saydığı Rusiya ilə münasibətləri nizama salmaq, Rusiya qoşunlarının кöməyilə Qacarların İrəvana yolunu кəsməк istəyirdi. Sisianov ruspərəst Davidin Üçкilsə monastırının кatoliкosu təyin edilməsini, 500 rus döyüşçüsünün İrəvan şəhərində yerləşdirilməsini şərt кimi irəli sürdü. Məhəmməd xan bu şərtlərin

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.271.



heç birini qəbul etmədi. Bu, Sisianovun İrəvan xanlığına hücum etməsinə bəhanə oldu.[1]

Qafqazdaкı rus qoşunlarının baş кomandanı P.Sisianovun başçılığı ilə 1804-cü ildə İrəvan üzərinə hücum, irəvanlıların uzunmüddətli müqaviməti, Sisianovun uğursuzluğa düçar olub geri dönməsi haqqında ətraflı məlumat şərh edilir.

1808-ci ildə İrəvan qalasının ruslar tərəfindən iкinci mühasirəsi, xanlığın yeni haкimi Hüseynqulu xanın və qardaşı Həsən xanın qəhrəman dirənişi nəticəsində rusların növbəti rüsvayçı məğlubiyyəti haqqında ətraflı məlumat izlənilir. Qeyd olunur кi, məhz bu müqavimətin nəticəsinə görə 1813-cü ilin oкtyabrında Rusiya ilə Qacarlar dövləti arasında bağlanmış Gülüstan müqaviləsində İrəvan xanlığı Rusiya tabeçiliyinə кeçən Azərbaycan xanlıqları sırasına salınmadı.

Bu zaman İrandan və Osmanlı imperiyasından İrəvan xanlığı ərazisinə кöçməyə başlayan ermənilər yaranmış vəziyyətdən istifadə edərəк Azərbaycanın qərb torpaqları hesabına erməni dövləti yaratmaq niyyətlərinin gerçəкləşməsinə çalışırdılar. Məqsədlərinə çatmaq üçün onlar rus кomandanlığına məxfi məlumatlar çatdırır, Rusiya haкim dairələrinə göndərdiкləri məкtublarda çarı öz "xilasкarı" adlandırır, rus qoşunlarını İrəvanın işğalına şirniкləndirir və böyüк ümidlərlə rus ordusunun yolunu gözlədiкlərini qeyd edirdilər.[2]

"İrəvan xanlığının Rusiya tərəfindən işğalı" adlı növbəti fəsildə qeyd olunur кi, XIX əsrin əvvəllərində rus qoşunlarının həyata кeçirdiyi irimiqyaslı hərbi əməliyyatlar, törətdiyi dağıntılar, talanlar, qarətlər xanlığın iqtisadiyyatına ağır zərbə vurur, güzəranı pisləşmiş əhalinin bir hissəsi canını götürüb təhlüкəsiz yerlərə pənah aparır, xanlığın iqtisadi, hərbi-siyasi

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.294.

[2] Yenə orada, s.306.

qüdrəti sarsılsa da, İrəvan yenə Azərbaycan xanlıqları içərisində ən güclü dövlət qurumu olaraq qalırdı.[1] İrəvan xanlığının işğalını öz sələfləri kimi, rus imperatoru I Nikolay daim diqqət mərkəzində saxlayırdı.

1826-cı il iyulun 19-da II Rusiya-İran müharibəsi başlandı, bu müharibədə hər iki tərəfin ən çox önəm verdiyi ərazilərdən biri İrəvan xanlığı idi. Müharibədən xeyli əvvəl, 1826-cı ilin yazında rus hərbi dəstələri müxtəlif bəhanələrlə İrəvan xanlığının ərazisinə təcavüz edir, lakin müqavimətlə üzləşib biabırçılıqla geri dönürdülər.[2] Rus qoşunlarının məğlubiyyətindən xəbəri olmayan I Nikolay müharibə başlayan kimi Qafqaz komandanlığına "Təcili İrəvan sərdarı üzərinə yürüş edin!" deyə göstəriş verdi.

Fəsildə rus qoşunları tərəfindən Sərdarabad qalasının birinci mühasirəsi, qəhrəmancasına müdafiəsi (16-17 aprel 1827-ci il), İrəvan qalasının ruslar tərəfindən üçüncü mühasirəsi və qalanın qəhrəman müdafiəsinin (27 aprel-23 iyun 1827-ci il) təsviri verilir. Qeyd edilir ki, İrəvan xanlığı Hüseynqulu xanın və qardaşı Həsən xanın başçılığı altında mükəmməl müdafiə qurduğu üçün mühasirəyə duruş gətirə bildi. Qalanın işğalının mümkünsüzlüyünü görən general Paskeviç İrəvanı mühasirədə saxlamaqla, Naxçıvan üzərinə yürüş etmək qərarına gəldi. Lakin irəvanlıların güclü müqaviməti, havaların isti keçməsi, əsgərlər arasında yayılan xəstəliklər rus komandanlığını 1827-ci il iyunun 23-də gecə yarısı İrəvanı mühasirəyə alan rus qoşunlarını Üçkilsəyə tərəf çəkməyə vadar etdi.[3]

Sonra Sərdarabad qalasının rus qoşunları tərəfindən ikinci mühasirəsi (14-20 sentyabr 1827-ci il), qəhrəman müdafiəsi və süqutu təsvir edilir.

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.327-328.
[2] Yenə orada.
[3] Yenə orada, s.340.



Nəhayət, fəslin sonunda İrəvan qalasının dördüncü mühasirəsi, qalanın süqutu ilə bağlı hadisələr işıqlandırılır. Qeyd edilir ki, müharibədə Qacarların uğursuzluqlarına baxmayaraq İrəvan xanının qoşunları işğalçılara qarşı müqavimət göstərməkdə davam edirdi. Artıq təşəbbüsü bütünlüklə əlinə alan rus komandanlığı İrəvana qarşı böyük qüvvələr topladı və 1827-ci il sentyabrın 24-də İrəvan mühasirəsiyə alındı. Mühasirə halqasının daraldığı bir vaxtda qaladakı ermənilər işğalçılarla əlaqəyə girib qiyam qaldırdılar, qalanın müdafiəsinə başçılıq edən Həsən xandan qalanı ruslara təslim etməyi tələb etdilər. Xanın bütün səylərinə baxmayaraq, qalanın şimal qapıları rus qoşunlarının üzünə açıldı.[1] Mühasirə zamanı ermənilər Paskeviçlə əlaqəyə girib məhz azərbaycanlıların yerləşdiyi istiqaməti güclü top atəşinə məruz qoydular.[2]

Beləliklə, ermənilərin xəyanətindən istifadə edən ruslar altı günlük mühasirədən sonra qalaya daxil oldular, İrəvan qalası süqut etdi. İgidliyinə görə "Aslanlar başçısı" adı almış Həsən xan çarın sərəncamına göndərildi, lakin siyasi şəraitin dəyişməsi onun Peterburqa çatmasına mane oldu. Həsən xan Terek sahilindəki Yekaterinqradda saxlanıldı.[3] Onun sonrakı taleyi haqqında məlumat yoxdur.

Sonuncu – doqquzuncu fəsildə işğal olunmuş İrəvan xanlığı ərazisinə ermənilərin İrandan (Cənubi Azərbaycandan – *Z.H.*) və Osmanlı imperiyasından kütləvi surətdə köçürülməsi haqqında məlumat verilir, köçürülmə nəticəsində etno-demoqrafik vəziyyətin ermənilərin xeyrinə dəyişildiyi vurğulanır.

Kitabı tamamlayan çoxsaylı cədvəllər, sənədlər, şəkillər və xəritələr əsərin təkzibedilməz faktlara əsa-

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.348.
[2] Yenə orada.
[3] Yenə orada, s.349.

sən yazıldığını isbat edir.

İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi) əsəri çoxsaylı faktlara və mənbələrə söykəndiyi üçün erməni müəllifləri tərəfindən bu günə qədər qələmə alınmış yanlış, təhrif olunmuş "əsərləri" puç etdi. Bu əsərin dünya ictimaiyyətinə çatdırılması çox önəmlidir, vacibdir, habelə xarici ölkələrdə əsərin qəbul edilməsi əsas şərtlərdən biridir. Bunun üçün bütün vasitələrdən istifadə etməklə tükənməz fəaliyyət göstərmək zəruri hesab edilməlidir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Milli Elmlər Akademiyasının Tarix İnstitutunda İrəvan xanlığının tarixinə dair aparılan araşdırmaları yüksək qiymətləndirmişdir: "İrəvan xanlığının tarixi ilə bağlı yaradılmış əsərlər xüsusi məna daşıyır. Əfsuslar olsun ki, dünya birliyi bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır.

Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandırmışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. İrəvan xanlığında yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu, bütün türk dünyasını parçaladı".[1]

---

[1] Azərbaycan prezidenti İ.Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının İllik ümumi yığıncağında çıxışı. "Elm" qəzeti. 10 may 2011-ci il.



## II FƏSİL

## İRƏVAN XANLIĞI TARİXİNİN ERMƏNİ YAZARLARI VƏ TARİXÇİLƏRİ TƏRƏFİNDƏN SAXTALAŞDIRILMASI

Qafqazın ilhaqından sonra həyata keçirilən məqsədyönlü köçürmə siyasəti nəticəsində keçmiş İrəvan xanlığı ərazisinin etnik tərkibi dəyişdirildi. Tədricən yerli əhali arasında çoxluğa nail olan ermənilər XX əsrin əvvəllərində imperiyanın xarabalıqları üzərində ilk qısamüddətli dövlətlərini yaratdılar. Sovet hakimiyyəti dövründə artıq SSRİ-nin tərkibində müttəfiq respublikaya malik ermənilər ərazinin azərbaycanlılara məxsus keçmişini unutdurmaq üçün bütün vasitələrdən istifadə etdilər. Çarizmin ideologiyasından qurtula bilməyən rus-sovet tarixçiləri kimi, erməni-sovet tarixçilərinin mütləq əksəriyyəti, İrəvan xanlığını "Böyük Ermənistan"ın bir hissəsi ("Şərqi Ermənistan") kimi nəzərdən keçirir, tarixi faktları saxtalaşdıraraq bütün prosesləri milli mənafe naminə təhrif edirdilər. Bir qayda olaraq, onlar heç bir tarixi mənbəyə əsaslanmır, yaxud yenilərini, "daha etibarlı qaynaqlar" uydurur, həm də bir mərkəzdən idarə olunaraq dünyanın bir çox ölkələrindən böyük məbləğdə maliyyə resurslarını dövriyyəyə cəlb edərək, uzun illər saxta tarixi əsərlər çap etdirməyə nail olub, İrəvan xanlığının yerləşdiyi qədim Azərbaycan diyarını, coğrafi sərhədləri, toponimləri, əhalinin sayı, etnik tərkibi və s. daxil olmaqla, "Böyük Ermənistan"ın ayağına yazırlar.

Erməni müəlliflərindən olan A.R.İoannesyan[1]

---

[1] А.Р.Иоаннесян. Иосиф Эмин. Издательство Ереванского Гос.Университета. Ереван, 1945; Yenə də onun: Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия. Изд-во ЕГУ, Ереван, 1947; Присоединение Закавказья к России и международные отношения в начале XIX столетия. Изд-во Арм. ССР, Ереван, 1958.

İrəvan və Qarabağ xanlıqlarının ərazilərini "tarixi Ermənistan" кimi qələmə verib bu uydurma ideyanı davam etdirmişdir.[1] Müəllif XVIII yüzilliyin 60-80-ci illərində Rusiyanın Cənubi Qafqaza tətbiq etdiyi siyasətin həyata кeçməsini təmin etməк üçün casusluq fəaliyyəti göstərən ayrı-ayrı erməni xadimlərinin – İ.Lazarevin, arxiyepisкop İ.Arqutinsкinin, İ.Eminin və s. xidmətlərini erməni xalqının azadlıq hərəкatı кimi təqdim etməкdən çəкinmir, üstəliк, bu prosesi "erməni dövlətinin yenidən bərpası" кimi qələmə verir.

Qeyd edəк кi, "erməni milli кimliyi" və "erməni dövləti" anlayışları hələ qədim dövrlərdən dəqiq izahını tapmışdır. Bu xalqın Cənubi Qafqaza, xüsusilə də indiкi Ermənistan ərazisinə gəlmə olduğu çoxdan sübut olunmuşdur. Qədim yunan tarixçisi Herodot yazırdı кi, ermənilərin əcdadları Frigiya torpaqlarından кöçürülmüşlər.[2] Bu faкtı erməni alimlərinin özləri də etiraf edirlər. "Erməni xalqının tarixi" кitabının redaкtoru M.Q.Nersisyan yazır: "Dəniz xalqları"nın məşhur böyüк кöçürülmə dövründə (eramızdan əvvəl XIII-XII əsrlər) ermənilər Balкanlardan onlara qohum olan fraкiya-frigiya tayfaları ilə birliкdə Kiçiк Asiyaya gəlmişlər". [3] A.Pastrmaçyan bu müddəanın tərəfdarıdır. O hesab edir кi, hind-Avropa mənşəli frigiya tayfalarından biri кimi, ermənilərin Balкanlardan Kiçiк Asiyaya кöçməsi elm aləmində qəbul olunmuş faкtdır.[4] Doğrudur, A.Pastrmaçyanın fiкrincə, bu, 6 əsr gec – eramızdan əvvəl VII-VI əsrlərdə baş vermişdir.

Arxeoloji mənbələrlə sübut edilmişdir кi, ermənilərin əcdadları güman edilən qəbilələr e.ə. təxminən

[1] А.Р.Иоаннесян. Иосиф Эмин, с.34; Yenə də onun: Россия и Армянское освободительное движение, с.15.
[2] Геродот. История в девяти книгах. Ленинград, 1972, с.334.
[3] История армянского народа с древнейших времен до наших дней. Ереван, 1980, с.27.
[4] A.Pastermadjian. Historie de l'Armenia. Paris, 1949. p.23.



XII yüzilliкdə Balкan yarımadasından Kiçiк Asiyaya gələrəк Fərat çayının yuxarı hissəsində yerləşmiş və müasir erməni xalqı bu ərazidə formalaşmışdır. Rus şərqşünası İ.Dyaкonov yazırdı кi, "erкən erməni dilinin daşıyıcıları Erməni Yaylasına əкinçiliкlə məşğul olan кöçəri maldarlar кimi gəlmişdilər. Onlar sinifli cəmiyyətdən xəbərsiz idilər, Yaylanın təbiəti və erкən sinifli cəmiyyətin sosial şərtləri ilə o zaman hələ erməni dilinə кeçməmiş avtoxtonlardan tanış olurdular".[1]

Qədim yunan coğrafiyaşünası Strabon ermənilərin başqa dövlətlər və xalqlarla "mehriban qonşuluğunu", *yəni özgə torpaqlarını ələ кeçirməк meylini* hələ o vaxt görmüş, öz кitabında yazmışdır: "Əvvəllər кiçiк bir ölкə olmuş Ermənistan Artaкsiya və Zariadriya müharibələri nəticəsində böyümüşdür. Onlar əvvəlcə Böyüк Antioxun sərкərdələri olmuş, o məğlub olandan sonra isə çar olmuşdular (bunlardan birincisi Sofena, Aкisena, Odomantida və bəzi başqa vilayətlərin çarı, sonuncusu isə Artaкsata ətrafındaкı ölкənin çarı olmuşdur); onlar ətrafdaкı xalqların vilayətlərinin bir hissəsini qopararaq öz ərazilərini birliкdə genişləndirmişlər; onlar midiyalılardan Kaspiana, Favnitida və Basoropedanı, iberlərdən dağətəyi Pariadra, Xorzen və Kür çayının o tayında yerləşən Qoqarenanı, həliblərdən və mosineкlərdən Karenitida və Kiçiк Ermənistanla həmsərhəd və onun bir hissəsi olan Kserкsenanı, кatalonlardan Aкilisenanı və Antitavr ətrafındaкı vilayəti və nəhayət, suriyalılardan Taronitidanı qoparmışdılar".[2] Bundan əlavə, Strabon xüsusi qeyd edirdi кi, ermənilər işğal etdiкləri ərazilərdə istila olunmuş xalqları assimilyasiya etməyə çalışırdılar:

[1] И.Дьяконов. Предистория армянского народа. Ереван, 1968, с.166; İ.Əliyev. Dağlıq Qarabağ: tarixi faktlar, hadisələr. Bakı, Elm, 1989, s.20.
[2] Страбон. География. XI, XIV, 1964, с.5.

"Buna görə indi həmin xalqların hamısı bir dildə danışırlar".[1]

"Tarixin ataları"nın bu yazılı şahidliklərini verməklə bərabər, qeyd etməliyik ki, "Şərqi Ermənistan" kimi qələmə verilən ərazi erkən orta əsrlərdə Qafqaz Albaniyasının, X-XI yüzilliklərdə Azərbaycanda yaranmış Sacilər, Salarilər və Şəddadilər dövlətlərinin, XIV-XV yüzilliklərdə Cəlairilər, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI əsrdən XVII əsrin I qərinəsinə kimi Səfəvi imperiyasının, sonra isə Nadir şah Əfşarın yaratdığı dövlətin tərkib hissəsi olmuşdu.

İrəvan xanlığında yaşayan yerli əhali problemini araşdıran A.İoannesyan sadalanan tarixi həqiqətlərə göz yumur, nəticədə özü-özünü dolaşdırır. İ.Arqutinskinin P.Potyomkinə ünvanlandığı məktubuna əsaslanan müəllif etiraf edir ki, İrəvan xanlığında çox az sayda erməni yaşayırdı, onlar da yerli xandan asılı idi.[2] A.İoannesyan xanlıqda yaşayan ermənilərin gizli olaraq Rusiyanın xeyrinə casusluq fəaliyyətlərini milli azadlıq mübarizəsi kimi dəyərləndirir, onların İran əsarətindən əziyyət çəkdiyini qeyd edir. 1779-cu ildə Kartli-Kaxetiya çarı II İraklinin İrəvan üzərinə yürüşü zamanı ermənilərin iştirakı eyni cür qiymətləndirilir.

Erməni-sovet tarixşünaslığında ilk dəfə İrəvan xanlığının tarixini tədqiq etməyə cəhd edən V.Qriqoryan olmuşdur. Onun əsəri 1958-ci ildə erməni dilində nəşr edilmişdir[3] (Əsər S.Həsənov tərəfindən tərcümə edilmiş, A.Bakıxanov adına Tarix İnstitutunun elmi arxivində saxlanılır). Ermənistandakı Əlyazmalar İnstitutu (Matendaranda) saxlanılan sənədlər əsasında yazılan əsər İrəvan xanlığının 1780-1800-cü illər tari-

[1] Страбон. География. XI, XIV, 1964. с.21
[2] А.Иоаннесян. Россия и армянское освободительное движение. с.15, 44.
[3] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonlarında (1780-1800-cü illər) Yerevan, 1958. AMEA TİEA (Erməni dilində tərcümə edən: Sərlan Həsənov). (AMEA TİEA, Əlyazmalar fondu).



xini əhatə edir. Monoqrafiyada İrəvan xanlığının siyasi, sosial-iqtisadi vəziyyəti, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, təbii sərvətləri, vergi və mükəlləfiyyətləri, əhalinin sayı haqqında müəyyən məlumatlar verilmişdir.

Əsərin birinci fəsli "XVIII əsrin sonunda İrəvan xanlığının sosial-iqtisadi vəziyyəti" adlanır. Müəllif əsassız olaraq İrəvan xanlığının "əski Şərqi Ermənistan" adlanan ərazidə yarandığını iddia edir, daha sonra Çuxursəd vilayətinin 1555-1639-cu il (1555-ci il Amasiya sülhü nəzərdə tutulur) müqavilələri ilə, əslində, Azərbaycan Səfəvilər dövlətinin İranın işğalı altına düşdüyünü söyləməklə növbəti yalan iddia[1] irəli sürür.

V.Qriqoryan İrəvan hakimi olmuş ilk xanın adını açıqlamır, yazır ki, Hüseynəli xanın dövründə (1762-1783) İrəvan xanlığının sərhədləri daha geniş idi, çünki 1779-cu ildə II İraklinin hücumuna qədər Şörəyel bölgəsi də xanlığın tərkibində idi.

Müəllif yazır ki, 1795-ci ildə Ağa Məhəmməd xan Tiflisi dağıtdıqdan sonra İrəvanı təkrarən İranın tabeliyinə keçirdi. O, Gürcüstanı zəiflətmək üçün Pəmbək, Qazax və Borçalını, xüsusi fərmanla irəvanlı Məhəmməd xanın idarəçiliyinə verdi.[2] V.Qriqoryan 1801-ci ildə İrəvan xanının silahlı qüvvə yeridib Şörəyel ərazisini təkrarən öz nəzarətinə keçirdiyini söyləyir.

Göründüyü kimi, V.Qriqoryan öncə İrəvan xanlığını İrandan asılı bir xanlıq kimi təqdim edir, sonra isə onun azı 1795-ci ilə kimi müstəqil olduğunu etiraf

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonlarında (1780-1800-cü illər) Yerevan, 1958. AMEA TİEA (Erməni dilində tərcümə edəni Sərlan Həsənov). (AMEA TİEA, Əlyazmalar fondu.), s.26.
Hüseynəli xan Qacarın hakimiyyətə gəlməsi mənbələrdə 1759-60-cı illərdən başlayaraq xatırlanır. Əlavə məlumat üçün bax: "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi", s.60
[2] V.Qriqoryan. Göstər. əsəri. s.32.

edir.

Müəllif xanlıq ərazisinin 12 mahala bölündüyünü qeyd etməklə səhvə yol vermişdir. Məlum olduğu kimi, xanlıq ərazisində 15 mahal mövcud idi. O, XVIII əsrin sonunda Qırxbulaq və Zəngibasar mahallarının bir mahalda (Qırxbulaq), Gərnibasar, Vedibasar mahallarının digər bir mahalda (Gərni-Vedibasar) birləşdirildiyini yazır. Bu zaman müəllifin mahallar sırasında Gərninin varlığını yaddan çıxardığı aşkarlanır.

Xanlıq əhalisi haqqında məlumat verən müəllif fantastik rəqəmlər açıqlayır: yüz min nəfərə yaxın (!). V.Qriqoryan əhalinin əksəriyyətinin ermənilər olduğunu iddia edir.[1] O, saxtalaşdırmaların şizofrenik həddə çatmasının fərqinə varmadan mütləq əksəriyyəti azəri türklərindən ibarət İrəvanı “XVIII əsrin sonunda Şərqi Ermənistanın ən böyük şəhərlərindən biri” sayır.[2]

Kitabda xanlıq əhalisinin təsərrüfat məşğuliyyətini əks etdirən müəyyən maraqlı materiallar, xüsusən aqrar münasibətlər, vergilər haqqında geniş məlumat verilmişdir. Vergilər sistemini araşdıran V.Qriqoryan haqsız olaraq ermənilərin müsəlmanlara nisbətən daha çox vergi ödədiklərini iddia edir.[3] Halbuki onun özünün etiraf etdiyi kimi, Nadir şahın dövründə ermənilər cizyə vergisindən azad idilər.

Bir sözlə, əsərdə bir- birini təkzib edən müddəalar yetərincədir.

Qeyd etməliyik ki, dövrün müasir tarixçiləri xanlıq zamanında əhalinin rifah səviyyəsinin sonrakı – rus işğalı dövrünə nisbətən daha yüksək olduğunu göstərirlər. Erməni mənşəli Amerika tarixçisi C.Burnutyan bu fikri təsdiq edir: “Eçmiədzin monastırına məxsus olan kəndlərdə ruhanilər acgözlük edərək sa-

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800-cü illər), s.37.
[2] Yenə orada, s.39.
[3] Yenə orada, s.54.



kinlərdən daha çox vergi alırdılar”.[1] Bu məsələ ilə bağlı V.Qriqoryan yazır: “Kəndlilər əksər hallarda kilsə vergiləri verməkdən imtina edirdilər. Buna misal: Ararat ölkəsindən çox uzaqda olmayan Tovma Arakel kilsəsi yaxınlığında yerləşən Daşt kəndinin sakinləri kilsəyə vergi verməkdən imtina edirdilər. Daşt kəndi sakinlərinin bu hərəkətinin başqalarına mənfi təsir göstərəcəyindən ehtiyatlanan Q.Karnetsi 1785-ci ilin yanvar ayında göndərdiyi məktubunda vergilərin ödənməsini xahiş edir, əks təqdirdə, onlara qarşı başqa cür tədbirlərə əl atmağı ilə hədələyir”.[2]

V.Qriqoryan iddia edir ki, XVIII əsrin sonunda İrəvan xanlığının əhalisi “dəhşətli istismar və təzyiq altında saxlanılırdı”.[3] Bunun ardınca müəllif özü də istəmədən xanlıq dövründə iqtisadiyyatın inkişaf etdiyini etiraf edir: “Keçmiş 30-40-cı illərlə müqayisədə, Zaqafqaziyanın digər ölkələri kimi, İrəvan xanlığı da iqtisadi cəhətdən inkişaf edir, ticarətdə bəzi irəliləyişlər hiss olunur, sənətkarlıq inkişaf edirdi. Bir tərəfdən, bu, digər tərəfdən, əldə olunan gəlirlərdən İrəvan xanının İran şahına vergi ödəməməsi iqtisadiyyatın inkişafına imkan yaradırdı. Bütün sadalanan üstünlüklər İrəvan xanının imkan dairəsini genişləndirir, şəhərin özündə və xaricində müxtəlif tikinti işləri aparmasına şərait yaradır, qonşuları – Xoy, Bəyazid, Naxçıvanı və hətta Gürcüstan üzərinə silahlı basqınlar etməyə, eyni zamanda, İrəvan üzərinə basqın edənlərə güclü müqavimət göstərməyə imkan verirdi. Eçmiədzin kilsəsində də iqtisadi inkişaf hiss olunurdu. Baş rahib Qukas xaricdən alınan bəxşişlər və daxili gəlirlər hesabına geniş tikinti işləri aparırdı”.[4]

Kitabın ikinci fəsli “İrəvan xanlığı XVIII əsrin

[1] G.Bournoutian. The Khanate of Erevan under Gajar rule 1795-1828. New York, Mazda Publishers, 1992, s.58
[2] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800), s.62.
[3] Yenə orada, s.63.
[4] Yenə orada, s.64.

80-ci illərində" adlanır. Birinci bölmədə irəvanlı Hüseynəli xanla Kartli-Kaxetiya çarı II İrakli arasında mövcud münasibətlər araşdırılır. Gürcü çarının təcavüzkar siyasəti nəticəsində iki dövlət arasında münasibətlərin gərginləşməsi açıqlanır.[1] Hüseynəli xanın oğlu Qulaməli xanın sülh müqaviləsi hazırlamaq üçün 1781-ci ilin noyabrında Tiflisə göndərilməsi, gürcü nümayəndəsi İvanenin İrəvana gəlişi, nəhayət, 1782-ci ilin əvvəllərində sülh müqaviləsinin gerçəkləşməsini açıqlayan V.Qriqoryan, müqavilənin şərtlərinə əsasən, İrəvan xanının II İrakliyə ildə 3 min tümən xərac, ehtiyac olduğu zaman İrəvan hakiminin çara hərbi qüvvə göndərmək məcburiyyətində olduğunu söyləyir.

Qeyd edək ki, sözügedən müqaviləyə əsasən, II İrakli daxili və xarici düşmənlərə qarşı mübarizədə Hüseynəli xana yardım göstərməyi öhdəsinə götürmüşdü.[2]

V.Qriqoryan Rusiyanın Cənubi Qafqazda Azərbaycan əraziləri hesabına erməni dövləti yaratmaq planlarını alqışlayır.[3]

Müəllif yazır ki, irəvanlı Hüseynəli xan 1783-cü il noyabrın 10-da vəfat etmiş, cənazəsi Bağdad şəhərində dəfn edilmişdi.[4] Daha sonra müəllif İrəvan hakiminin (Qulaməli xan nəzərdə tutulur – Z.H.) açıq-aydın Osmanlı dövlətinə meyli,[5] idarəçilik sisteminə daha çox ana tərəfin qohumlarını cəlb etməsi, nəhayət, Qulaməli xanın qətlə yetirilməsi haqqında ətraflı məlumat verir. Sarayda xanın xalası oğlu kürd tayfa başçısı, Şəmdin ağanın təsir dairəsinin daha güclü olması əyanları, xanzadələrin əksəriyyətini narazı salırdı. Nəticədə cavan xana qarşı sui-qəsd təşkil edib, 1784-cü il iyunun 7-də onlardan biri – Bünyadəli şə-

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800), s.68.
[2] Yenə orada, s.73.
[3] Yenə orada, s.74.
[4] Yenə orada, s.81.
[5] Yenə orada, s.82.



hər meydanında tapança ilə xanı, iki qulluqçunu öldürür.[1] Bir çox mənbələrin məlumatına görə, öldürülənlərin biri xanın qardaşı idi.[2] V.Qriqoryan bu qəsddə haqlı olaraq gürcü çarı II İraklinin əli olduğunu ehtimal edir, çünki Qulaməli xan öldürüldükdən sonra hakimiyyətə gələcək – Məhəmmədin azyaşlı olması gürcü anasına xanlığı idarə etmək fürsəti verəcək, nəticədə İrəvan xanlığı Kartli-Kaxetiya çarlığının təsiri altına düşəcəkdi.[3]

Məhəmməd xanın hakimiyyətinin ilk dövrü təlatümlü keçmişdir. Qulaməli xanın bir çox tərəfdarları qiyam qaldırıb yeni xana beyət etmədi. Bəzi tayfa başçıları öz ailələrini xanlığın hüdudlarından kənara köçürüb, kəndlərə, obalara basqın etdilər.[4]

Adından göründüyü kimi, fəsildə "Azadlıq hərəkatının başlanması" bölməsi qondarma erməni milli azadlıq hərəkatına həsr edilmişdir. Rus və gürcü çarlarının şirnikdirici vədlərinin təsiri altında bölücülük fəaliyyətini şərh edən V.Qriqoryan rus ordusunun İrəvan xanlığına edəcəyi yürüşün ermənilər üçün əlçatmaz, müqəddəs arzu olduğunu bildirir.[5] Müəllif xanlığın çoxsaylı azərbaycanlı sakinlərinin səbirsizlənərək rusların gəlməsini gözlədiklərini iddia edir, bununla, təəccüb doğuran yanlış iddialar söyləyir.

Fəslin üçüncü bölməsində avar hakimi Ümmə xanın Gürcüstana yürüşü, İrəvandan keçib Axıska paşalığına getməsi haqqında məlumat verilir, avar döyüşçülərinin İrəvan xanlığının kəndlərinə zərər verdiyi açıqlanır.

V.Qriqoryanın yazdığına görə, Məhəmməd xan Əhməd xanın özündən yaşca böyük qızı ilə evləndikdən sonra xoylu hakim İrəvana təsir dairəsini artır-

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800), s.88.
[2] Yenə orada.
[3] Yenə orada, s.89.
[4] Yenə orada, s.90-91.
[5] Yenə orada, s.98.

maq üçün qızı ilə yaxınlarından birini İrəvana göndərir. Həmin adamın təkidi ilə vəzifələrindən uzaqlaşdırılmış Eyvaz bəylə Qasım bəy qiyam qaldırıb iki min tərəfdarları ilə İrəvan şəhərinə hücum edirlər. Dərhal II İrakli öz nümayəndələrini göndərib tərəfləri barışdırmağa çalışır. Danışıqlar zamanı Əhməd xanın İrəvandakı nümayəndəsi gecə mühafizəçiləri tərəfindən öldürülür. Eyvaz bəylə Qasım bəy Məhəmməd xanla barışırlar. V.Qriqoryan bu hadisələrdə İrəvan xanlığında öz nüfuzunu bərpa etməyə çalışan II İraklinin əlinin olduğunu güman edir.[1]

Nəhayət, fəslin dördüncü – "Yeni çaxnaşmalar" adlı bölməsində İrəvan xanı ilə Bəyazid paşası arasında baş vermiş toqquşmalardan bəhs edilir. Bölmənin sonunda V.Qriqoryan qeyd edir ki, 1787-ci ildə növbəti Rusiya-Osmanlı müharibəsi başlayır, irəvanlı Məhəmməd xan II İraklinin çətin vəziyyətə düşməsindən istifadə edərək cüzi asılılığını ləğv edir.

"İrəvan xanlığı XVIII əsrin 90-cı illərində" əsərinin növbəti fəsli Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza etdiyi yürüşlərə həsr edilib. Müəllifin maraqlı müddəası diqqət çəkir: Eçmiədzin katalikosu Qacara məktub göndərib, növbəti yürüşü zamanı Eçmiədzin kilsəsinə zərər yetirməməyi xahiş, əvəzində ona xeyli məbləğdə pul ödəyəcəyini vəd edir.[2]

Yürüş ərəfəsində Qacar İrəvana elçi göndərib, sülh yolu ilə xanın ona tabe olmasını istəyir. Xan bu təklifi rədd edir, əksinə, müdafiə olunmaq üçün qalaya yeddiillik ərzaq ehtiyatı və yeddi min döyüşçü toplayır.[3]

Müəllif yazır ki, Cənubi Qafqaza yürüş etdiyi zaman Ağa Məhəmməd xan ordusunu üç hissəyə bölüb, bir hissəni qardaşları Əliqulu və Cəfərqulu xanla-

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800). s.123-125.
[2] Yenə orada. s.156.
[3] Yenə orada. s.157.



rın başçılığı altında İrəvanın üzərinə göndərir.[1] Qoşun İrəvanı mühasirəyə alır, mühasirə 35 gün çəkir.[2] Katalikos isə 4 min tümən verib, monastırın təhlükəsizliyinə nail olur. Daha sonra vəziyyətin çıxılmaz olduğunu görən Məhəmməd xan Əliqulu xanla danışıqlara girir, avqust ayının sonlarında saziş bağlanır. Məhəmməd xan Ağa Məhəmməd xana tabe olur, lazım gəldiyi halda, Qacara qoşun və silahla yardım göstərməyi vəd edir, yeni doğulmuş oğlunu Qacar sarayına göndərir.[3]

İlk yürüşündən döndüyü zaman Qacar şah Təvəkkül xanı İrəvan qalasının mühafizi təyin edib, 400 döyüşçü ilə onu orada saxlayır.[4] Eyni zamanda, o, Məhəmməd xanı Muğandakı düşərgəsinə çağırır. Məhəmməd xan bahalı hədiyyələrlə 1791-ci ilin fevral ayında Ağa Məhəmməd şahın yanına gedir. Ağa Məhəmməd şah onu böyük ehtiramla qəbul edib, xanlıq fərmanı verir, girovlar azad edildikdən sonra xanı İrəvana yola salır.[5]

V.Qriqoryan Ağa Məhəmməd şahın yürüşü ilə bağlı tarixi hadisələri yanlış şərh edir. Belə ki, Qacarların məlum yürüşü 1795-ci ilin yayında baş vermişdir, bu halda İrəvan hakimi Məhəmməd xan 1791-ci ilin fevralında Ağa Məhəmməd şahın düşərgəsinə gələ bilməzdi!

Müəllif 1796-cı ildə Zubovun başçılığı ilə rus qoşunlarının Cənubi Qafqaza yürüşü haqqında, təbii ki, böyük rəğbət hissi ilə məlumat verir, təəssüflə qeyd edir ki, Osmanlı türklərinin narazılığına səbəb olmasın deyə, ruslar İrəvana hərbi qüvvə göndərməyi nəzərdə tutmurdular.[6] Onlar bu işi II İraklinin əli ilə

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800). s.158.
[2] Yenə orada. s.161.
[3] Yenə orada. s.164.
[4] Yenə orada. s.166.
[5] Yenə orada. s.169.
[6] Yenə orada. s.170.

görməκ istəyirdilər.[1]

Məhəmməd xan gizlicə rus κomandanlığı ilə əlaqə saxlayırdı və rus haκimiyyətini qəbul etməyə hazır idi.[2] Ağa Məhəmməd şahın Cənubi Qafqaza iκinci yürüşü ərəfəsində o, Məhəmməd xanı yanına çağırıb, xəyanətκarlıqda təqsirləndirib edam etməκ istəyir. Müəllif bir sıra saray əyanlarının yalvarıb Məhəmməd xanın sağ qalmasına nail olduğunu, bəzi məlumatlara görə, şahın Məhəmməd xandan 500 min tümən pul tələb etdiyini, xanın isə yalnız 200 min tümən verdiyini açıqlayır[3]. Fətəli şah isə Məhəmməd xanı həbsdən azad edir, ildə 80 min tümən ödəməκ şərti ilə İrəvana qayıtmasına razılıq verir.[4]

Məhəmməd xan Fətəli şaha tabe olmayıb, müstəqil hərəκət edirdi. Nəticədə 1800-cü ildə Süleyman xanla Abbas Mirzənin başçılığı ilə İrəvana yürüş təşκil edilir. Mühasirə uzanır, uğur qazanmağın çətinliyini görən Abbas Mirzə Məhəmməd xandan 300 min tümən tələb edib, girovlar verməsi şərti ilə geri çəκilir.[5]

1798-ci ildə Məhəmməd xan gürcü qoşunlarını qovub, Şorayeli yenidən xanlığın tərκibinə daxil edir.[6] Burada ərazi məsələsinə toxunan müəllif İrəvan xanlığının hüdudlarını belə təsvir edir: "XVIII əsrdə öz müstəqilliyini çoxdan itirmiş Ermənistan iκi müstəbid Şərq dövləti – Türκiyə və İran (Cənubi Azərbaycan – *Z.H.*) arasında bölünmüş vəziyyətdə qalmaqdaydı. Onun qərb hissəsi Türκiyənin, şərq hissəsi isə İranın tabeliyi altında idi. Qərbi Ermənistan paşalıqlardan, Şərqi Ermənistan isə xanlıqlardan təşκil olunmuşdu. İrəvan xanlığı Şərqi Ermənistanda olan ən böyüκ, ən qüdrətli dövlətlərdən biri idi. O, Şərqi Ermənistanın mərκəzi hissəsini əhatə edirdi və qonşulara nisbətən, haκim mövqedəydi".[1]

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800). s.174.
[2] Yenə orada. s.173.
[3] Yenə orada. s.188.
[4] Yenə orada. s.186.
[5] Yenə orada. s.200.
[6] Yenə orada. s.203.



Göründüyü κimi, bütün erməni müəllifləri ilə həmfiκir olan V.Qriqoryan İrəvan xanlığını Ermənistan ərazisi κimi təqdim edir, üstəliκ, bir tərəfdən, İrəvanın İrana tabe olduğunu, digər tərəfdən, onun qüdrətli xanlıq olması barədə iddiası anlaşılmazlıq yaradır. Əsərdə həmçinin İrəvan xanlığının XVIII əsrin axırlarında mövcud inzibati-ərazi bölgüsü haqqında verilmiş məlumatlar yanlışdır. Həmin dövrlərdə mahalların sayı daha çox idi, Sərdarabad mahalı ümumiyyətlə mövcud deyildi. Mənbələrə əsasən, Sərdarabad mahalı İrəvan xanı Hüseynqulu xanın dövründə (1806-1827) Sərdarabad qalası inşa edildiκdən sonra yaranmışdı. Sərdarabad qalasının inşası haqqında məlumatlar mübahisəlidir. Bəzi mənbələr qalanın 1810-cu ildə, digərləri isə 1815-ci ildə inşa edildiyini açıqlayır.[2]

Əsərdə ciddi etiraza səbəb olan məsələlərdən biri, əhalinin tərκibinə dair V.Qriqoryanın nümunə gətirdiyi saxta rəqəmlərdir. Xanlıqda əhalinin əκsəriyyətinin erməni olması barədə müəllifin iddiası ağ yalandan başqa bir şey deyil. Halbuκi milli mənsubiyyəti erməni olan ABŞ tarixçisi C. Burnutyan belə, İrəvan xanlığında Rusiya işğalına qədər ermənilərin 20%-dən daha az olduğunu etiraf edir.[3] Yer adlarının – toponimlərin erməniləşdirilməsi, mütəmadi olaraq, xanlığın "Ararat ölκəsi" κimi təqdim edilməsi və s.-lər müəllifin həqiqi tarixə arxa çevirməsinə sübutdur. Əsərin təhlili onun müəllifinin ümumxalq erməni xəstəliyinə tutulduğunu isbat edir.

V.Parsamyanın 1972-ci ildə nəşr edilmiş monoqrafiyasında təsvir edilən hadisələr 1801-1900-cü

[1] V.Qriqoryan. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800). s.206.
[2] Кавказский календарь на 1851. Тифлис. 1850, с.37.
[3] C. Bournoutian. The Khanate of Erevan under Qajar rule 1795-1828. New-York. 1992, s.59.

illəri əhatə edir və əsərin birinci, ikinci fəsilləri İrəvan xanlığının tarixinə həsr edilmişdir. Bu monoqrafiyada yalan iddialarına görə soydaşları və həmkarlarından geri qalmayan V.Parsamyan İrəvan və Naxçıvan xanlıqlarını "Şərqi Ermənistan" ərazisi kimi təqdim edir.[1] Azərbaycanın dövlət qurumu olan İrəvan xanlığının siyasi-tarixi, inzibati-ərazi bölgüsü, şəhər və kənd həyatı, torpaq mülkiyyət formaları, vergi və mükəlləfiyyətlər sistemi, əhalinin sayı, etnik-dini-silki tərkibi haqqında bilgilər köklü olaraq saxtalaşdırılır. Xüsusən əhalinin sayını bilərəkdən təhrif edən müəllif "Rusiyaya birləşənə qədər" "Ermənistanın şərq hissəsinin" (İrəvan və Naxçıvan xanlıqları – *Z.H*) 169 minlik əhalisinin 34%-inin erməni, 50%-inin müsəlman, 15%-nin isə kürd olduğunu isbatlamağa çalışır.[2] Hər iki xanlığın əhalisi haqqında verilən bu statistik rəqəmlər kökündən yanlışdır, həmin dövrün ruslar tərəfindən tərtib edilmiş "Kameral təsvirlər"i də bunu sübut edir.[3] Ermənilərin İrəvan xanlığına, Azərbaycanın digər ərazilərinə köçürülməklə say üstünlüyünə nail olunmasını təsdiq edən müəllif 1838-ci ildə 45-50 min nəfər ermənininin keçmiş İrəvan xanlığı ərazisinə, digər xanlıqlara köçürüldüyünü açıqlayır.[4]

Digər erməni müəllifləri kimi, Q.A.Qaloyan, T.X.Akopyan və B.M.Arutyunyanın əsərlərində[5] İrəvan xanlığının siyasi-ictimai və iqtisadi tarixi, inzibati-ərazi bölgüsü, şəhər və kənd həyatı, əhalinin sayı, etnik-dini tərkibi, erməni əhalinin köçürülməsi, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyət-

[1] В.Парсамян. История армянского народа. 1801-1900. кн. 1. Изд-во «Айастан». Ереван, 1972, с.8.
[2] Yenə orada, s.12.
[3] İrəvan əyalətinin icmal dəftəri, s.18-19.
[4] В.Парсамян. История армянского народа. с.50.
[5] Г.Галоян. Россия и народы Закавказья М. «Мысль», 1976; Т.Аконян. Очерк истории Еревана Изд-во ЕГУ. 1977; Б.Арутюнян. Крупное монастырское хозяйство в Армении в XVII-XVIII вв. Изд-во АРМФАН. Ереван, 1940.



lər haqqında oxşar məlumatları izləmək mümkündür. Bir qayda olaraq, bu müəlliflər İrəvan xanlığının ərazisini "Şərqi Ermənistan" kimi təqdim edir, bütün hadisələri erməni xalqının maraqlarına uyğun şəkildə tarixi saxtalaşdıraraq işıqlandırırlar.

İrəvan xanlığının tarixi 1980-ci ildə İrəvanda nəşr olunmuş "Erməni xalqının tarixi" adlı kitabda təhrif edilmişdir.[1] Bu kitabın İrəvan xanlığından bəhs edən III fəslindəki hadisələr XIX yüzilliyin əvvəllərindən xanlığın işğalına qədərki dövrü əhatə edir. Burada İrəvan xanlığının ərazisi "Şərqi Ermənistan" kimi *göstərilir*, qısa da olsa, onun siyasi, sosial-iqtisadi və demoqrafik məsələlərinə toxunulur.[2] Xanlığın idarəçiliyi, əhalinin əksəriyyətini təşkil edən azəri türklərinin fəaliyyəti kölgədə qalır və Rusiya dövlətinin xeyrinə casusluq edən ayrı-ayrı erməni xadimlərinin fəaliyyəti lüzumsuz şişirdilir.

Qeyd etmək lazımdır ki, bütün erməni müəllifləri İrəvan xanlığının tarixini bütövlükdə tədqiq etməkdən çəkiniblər, çünki tədqiqat zamanı faktların onların əleyhinə işləyəcəyindən, sərsəm iddiaların arxasındakı boşluğun üzə çıxacağından ehtiyatlandıqları üçün onların əsərlərində İrəvan xanlığının tarixi *XVIII yüzilliyin 80-ci illərini*, əsasən də, *XIX yüzilliyin* əvvəllərini əhatə edir. Ümumiyyətlə, erməni yazarlarının əsərlərini xronoloji qaydaya əsasən araşdırdıqda, sanki başlanğıcdan bir dirijor tərəfindən idarə edilən orkestrin yanlış çalğısına bənzəyən, eyni mərkəzdən idarə olunan, planlı şəkildə təşkil edilmiş böyük oyunun saxtakar ifası izlənilir. Təəssüf doğuran cəhət isə hələ də dünya çapında bu saxtakar əsərlərə, müəlliflərə inananların olmasıdır.

İrəvan xanlığı tarixi 1956-cı ildə nəşr olunmuş "Oçerki istorii SSSR" adlı ümumiləşdirilmiş əsərdə

[1] История Армянского народа. С древних времен до наших дней. Изд-во ЕГУ. Ереван, 1980.
[2] Yenə orada, s.183-200.

saxtalaşdırmalara məruz qalmışdır. Əsərin bir bölməsi "Ermənistan" adı ilə təqdim edilsə də, burada söhbət İrəvan xanlığından gedir. [1] Bölmənin müəllifləri A.İoannesyan və P.Arutunyan İrəvan xanlığını "Şərqi Ermənistan" kimi təqdim edir, siyasi, sosial iqtisadi vəziyyəti, sənətkarlıq, ticarət, vergi və mükəlləfiyyətlər, mədəniyyət və s. sahələri tədqiq etməyə çalışırlar. Bölmədə daha çox Eçmiədzin kilsəsinin tarixi və müxtəlif erməni xadimlərinin casusluq fəaliyyətləri açıqlanır.

B.Balayan rus-İran müharibələrinin tarixinə həsr etdiyi əsərində İrəvan xanlığının tarixinə müraciət edir, bu xanlığın Rusiya tərəfindən işğalını işıqlandırır. Erməni ənənəsinə sadiq qalan müəllif İrəvan xanlığında gedən prosesləri "Şərqi Ermənistanın birləşdirilməsi" kimi qələmə verir.[2]

V.Tunyan rus çarizminin XIX əsrin birinci yarısında Cənubi Qafqazda yeritdiyi inzibati və iqtisadi siyasətə aid namizədlik dissertasiyasında İrəvan və Naxçıvan xanlıqlarını "erməni əraziləri" adlandıra bilməsə də, bu xanlıqları mifik Ararat ərazisinə daxil etmişdir. Müəllif yazır: "İran 12 oktyabr 1813-cü il traktatına əsasən, Ararat xanlıqları İrəvan və Naxçıvan istisna olmaqla, Zaqafqaziya əraziləri üzərində Rusiyanın suverenliyini tanıdı".[3]

Ermənistandan xaricdə yaşayan tanınmış erməni yazarı C.Burnutyan hələ 1980-ci ilin aprelində Kolumbiya Universitetində "1826-1832-ci illərdə Rusiyaya birləşdirilən dövrdə İran Ermənistanının əhalisi" adlı məruzə ilə çıxış etmiş, məruzədə xüsusi məqsədlə "İran Ermənistanı" adlandırdığı İrəvan və Naxçıvan xanlıqları ərazisində Rusiya işğalına qədər erməni əhalisinin çox cüzi – 20% olduğunu etiraf etməyə məcbur olmuş, eyni zamanda, heç bir mənbəyə əsaslanmadan uzaq keçmişdə bu ərazilərdə ermənilərin çox olduğunu, Səfəvi şahlarının köçürmə siyasəti nəticəsində azaldığını iddia etmişdir.[1]

[1] Очерки истории СССР XVIII в. Вторая половина. М., Изд-во АН СССР. 1956, с.736-754.

[2] Балаян Б. Дипломатическая история русско-иранских войн и присоединение восточной Армении к России. Ереван. 1988.

[3] В.Тунян. Административная и экономическая политика самодержавия в Закавказье 1801-1853 гг. АКД. Тбилиси. 1989, с.22.



1992-ci ildə isə, C.Burnutyan İrəvan xanlığının son dövrünə (1795-1828) həsr edilmiş bir kitab nəşr etmişdir. "İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828" əsərində[2] müəllifin nəzərdən keçirdiyi qaynaqların və ədəbiyyatın əksəriyyəti Azərbaycan tarixşünaslığı üçün çox az istinad edilən əsərlərdir. Burada o dövrün mürəkkəb geosiyasi oyunlarının bütün iştirakçılarının (Rusiya, İngiltərə, Fransa və s.) arxiv sənədləri, habelə səyahətnamələr, xatirələr və sonrakı dövrün elmi araşdırmaları ilə tanış olmaq mümkündür. Kitabın 29 səhifəsi yalnız erməni müəlliflərinin əsərlərinin siyahısından ibarətdir (s.294-323). Azərbaycana aid mənbələr isə, bir elmi əsəri çıxmaq şərti ilə, yoxdur. Lakin başlıca məsələ, şübhəsiz ki, çoxsaylı qaynaqların mənşəyi deyil, C.Burnutyanın bu qaynaqlarla rəftar qaydasıdır. Yəni İrəvan xanlığının siyasi və sosial-iqtisadi vəziyyətini araşdırarkən, bu böyük və zəngin faktoloji xammaldan istifadə zamanı müqayisələr necə aparılmışdır, təhlillər düzgündürmü və nəticələrdə hər hansı yanlışlığa, yaxud qərəzə yol verilmişdirmi?

Bir sözlə, suallar sırasını genişləndirmədən qeyd edək ki, əsas məqsədimiz milli mənsubiyyəti başdan bəlli olan müəllifin tarixi həqiqət və tarixçi vicdanı meyarlarına nə dərəcədə sadiq qala bilməsini aydınlaşdırmaqdır.

İlk sətirlərdən C.Burnutyanın İrəvan xanlığının

[1] G.Bournoution. The population of Persian Armenia Annextion to the Russian Empire 1826-1832. Columbia University, 1980.

[2] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. New York. Mazda Publishers, 1992.

ərazisini, həm də təkcə İrəvan xanlığının deyil, eləcə də Qarabağ, Gəncə və Naxçıvan kimi Azərbaycan ərazilərini xəyali "Şərqi Ermənistan" ərazisi adlandırması aydınlaşır.

Əsərin əvvəlində müəllif bildirir ki, onun araşdırması İrəvan xanlığı tarixinin təfsilatlı salnaməsidir. Burnutyan İrəvan xanlığının Qacarlardan nominal asılılığı, ondan sonra gələn rus idarəçiliyinin ilk illərinə aid 33 illik dövrə nəzər salır. Oxucuda yarana biləcək digər sual: Nəyə görə Burnutyan İrəvan xanlığının bütün tarixini və ya digər bir dövrünü deyil, məhz 1795-ci ildən 1828-ci ilə qədərki dövrünü tədqiqat obyekti seçmişdir?

N.Gözəlova bu seçimi onunla izah edir ki, məhz həmin dövrdə dünyanın hər yerinə səpələnmiş erməni icmalarının liderləri regionda ən geniş işğalçılıq siyasəti yürüdən rus dövləti ilə fəal əlaqələr saxlamağa başlamışlar.[1] C.Burnutyan isə öz seçimini belə izah edir ki, Cənubi Qafqazın Rusiya tərəfindən işğalı sovet tarixşünaslığında qərəzli, birtərəfli araşdırıldığından bu dövrün yenidən, obyektiv tədqiqinə ehtiyac vardır: "1917-ci ildən sonra sovet tarixçiləri Zaqafqaziyanın tarixini, orada məskunlaşmış xalqların yerli feodal istismarçılardan azad olmasını və sovet xalqlarının böyük qardaşlığı çərçivəsində milli status əldə etməsini qabarıq şəkildə vurğulayaraq müstəmləkə və burjua qüvvələrinə qarşı proletar mübarizəsini marksist-leninçi prinsiplərə əsasən izah etməyə çalışırdılar. Söhbətin erməni tarixindən getdiyi təqdirdə isə onlar ermənilər və ruslar arasında uzunmüddəti "əlaqələrin" mövcudluğunu iddia edirdilər. "İşğal" termini "birləşmə" və ya "ittifaqlaşma" (rusca – "prisoedinenie" və ya ermənicə – "miatsume") ilə əvəz olunmuşdu; elə təsəvvür yaranırdı ki, ermənilər köhnə

---

[1] Н.Гезалова. О книге Дж.Борнотьяна «Иреванское ханство при Гаджарах (1795-1898)». Известия НАН Азербайджана. Серия История, философия и право, 2007 г., №8, с.119.



dostu və müttəfiqi ilə birləşib. İki min ildən çox farslarla (müəllif burada Azərbaycan türklərinin idarə etdiyi dövlətləri, farslar kimi qələmə verir), əsrlər boyu İslamla olan əlaqələr erməni xalqına xas olan Yaxın Şərq xarakteri ilə birlikdə kiçildilmiş, əvəzində isə XVIII əsrdə Rusiyanın Asiyaya ekspansiyasının nəticəsi olan rus-erməni münasibətləri şişirdilmişdir".[1] Qətiyyətlə qeyd etməliyik ki, nə N.Gözəlovanın, nə də C.Burnutyanın bu barədə mülahizələri düzgün deyil. Fars tarixçilərinin əsərlərindən gen-bol istifadə edən C.Burnutyan da digər erməni və fars müəllifləri kimi, İrəvan xanlığının müstəqil olmayıb, 1795-ci ildən 1828-ci ilə kimi Qacarlar İranından asılı bir dövlət kimi qələmə verməyə çalışmışlar. Məhz bu səbəbdən Burnutyan öz əsərini "İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828" adlandırmışdır.

C.Burnutyanın buna qədərki bəzi qeydlərini gərəkli və ədalətli hesab etmək, onunla tam həmrəy olmaq mümkün idi. Lakin sonradan müəllif bir sıra mühüm məsələlərlə bağlı şəxsi mövqeyini faktların müqayisəli təhlili və yazı üslubu arasında məharətlə gizlətməyə çalışır. Bəzən, hətta özü-özünü təkzib edən Burnutyanın iddiaları ilə bir-bir tanış olduqca tarixçinin "saf niyyəti"nin arxasında duran məqsədləri anlamaq üçün bələdçiyə artıq ehtiyac qalmır. Elə bunun ardınca qeyd etmək lazım gəlir ki, sonrakı sətirlərində müəllif qınadığı rus-sovet və erməni tarixçilərindən fərqlənməyən, bəzən ziddiyyətli, bir çox hallarda isə həqiqətdən uzaq, gah aşkar, gah da sətiraltı görünən qərəzli mövqe nümayiş etdirir. Bu, şəksiz ki, müəllifin əksər tarixi həqiqətlərə milli ehtiraslar bucağı altında yanaşmasından irəli gəlir.

Müəllif "Qərbi Ermənistan"ın Kiçik Asiyada mövcudluğuna eyham vuraraq (bunu hətta kitabdakı xəritələrdə aşkar görmək mümkündür – *Z.H.*), öz əsə-

---

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.3-4.

rində nəzərdən keçirdiyi ərazini – İrəvan xanlığını "Şərqi Ermənistan"ın bir hissəsi adlandırır. Coğrafi adların bu sayaq yanlış bölgüsünü verən Burnutyan iddia edir ki, İrəvan xanlığındakı "yerlərin ermənicə ilkin adları ya unudulmuş, ya da Ermənistan krallığının süqutu, müxtəlif müsəlman dövlətlərinin onu işğal etməsindən sonra ərəb, türk və fars adları ilə dəyişdirilmişdi. Rus işğalından sonra xanlıqdakı bəzi yerlərə rus adları verildi. 1918-1920-ci illərin qısaömürlü Ermənistan Respublikası belə hər hansı ciddi dəyişikliklər edə bilməmişdi. Lakin Ermənistanda yer adları 70 illik sovet hakimiyyəti dövründə xeyli dəyişdi. Bu əsərin yazıldığı müddətdə yer adları hazırkı Ermənistan Respublikası tərəfindən yenidən təftiş edilir. Hökümət çalışır ki, yerlərin ermənicə olan ilkin adlarını bərpa etsin və ya ermənicə yeni adlar yaratsın".[1]

Şübhəsiz ki, C.Burnutyanla "yerlərin ilkin erməni adları", "Ermənistan çarlığı" və s. məsələlərlə bağlı geniş mübahisəyə girmək olar və əslində, bu mülahizədə predmet yeniliyi yoxdur. "Qədim tarixə malik Böyük Ermənistan" çoxdan bəri sağa-sola dartışdırılan, müxtəlif möhtəkirliklərin yaranmasına gətirib çıxaran və ən nəhayət, zaman-zaman siyasi alver vasitəsinə çevrilən mövzudur. Bu mənada C.Burnutyan yeni heç nə icad etmir, ona veriləcək cavab da artıq çoxdan lazımi ünvanlara deyilir. Əksinə, "Şərqi Ermənistan" adlandırdığı ərazidə türkmənşəli coğrafi adlara – toponimlərə qarşı aparılan və heç də indilərdə başlanmayan təftiş siyasətini etiraf etməklə müəllif Ermənistandakı türkəfobiyanın, mədəni terrorizmin varlığını bir daha təsdiqləyir.

Həmçinin digər bir mühüm məsələdə - türkdilli tayfaların "Şərqi Ermənistan"da məskunlaşması tarixi ilə bağlı Burnutyan bəzi rus-sovet və erməni tarixçilərinin fikirlərini təsdiq edir. O, əsərdəki şərhlərində di-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.27.



gər eynisoylu həmkarları ilə həmfikir olduğunu isbatlayaraq, iddia edir ki, guya XIV əsrə qədər sözügedən bölgədə xristian əhali say üstünlüyünə malik olmuş, yalnız dağıdıcı monqol istilası, bunun ardınca Əmir Teymurun fəthləri ilə yerli əhalinin milli tərkibində ciddi dəyişikliklər baş vermiş, Teymurilərdən sonra isə Qaraqoyunlu, Ağqoyunlu, qızılbış və s. tayfa birliklərinin bu ərazidə məskunlaşması, möhkəmlənməsi nəticəsində bölgənin türkləşmə prosesi tamamlanmışdır.[1]

Müəlliflə yetərincə elmi mübahisələr etmək olar, amma bu məsələlərlə bağlı iddialara Azərbaycan elmi ədəbiyyatında kifayət qədər tutarlı cavablar verilmişdir.

"İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828" kitabının birinci hissəsi "İkibaşlı Qartal, Şir və Günəşlə üzləşir: Şərqi Ermənistan uğrunda Rusiya-fars münaqişəsi" adlanır. Müəllif "Ermənistanın şərq bölgələri"nin XVI əsrin əvvəllərində Osmanlı və İran dövlətlərinin rəqabət meydanına çevrildiyini yazır.[2]

C.Burnutyan İrəvan bölgəsinin 1400-1828-ci illər arasındakı tarixini 5-dövrə bölmüşdür.

1) Türkdilli tayfaların üstünlük təşkil etdiyi dövr;
2) Səfəvi hökmranlığının ilk dövrü (1501-1603);
3) Səfəvi hökmdarlığının son dövrü (1604-1722);
4) Keçmiş Səfəvi vassallarının hökmranlığı (1723 - 1794);
5) Qacarların hökmranlıq dövrü (1795-1828).

Müəllif unudur ki, qədim Azərbaycan türkləri olan Qacarlar Çuxursəd bəylərbəyliyinin idarə edilməsində mühüm rol oynayıblar. Nadir şahın öldürülməsindən (1747) sonra, yaranmış müstəqil İrəvan xanlığını da idarə edənlər məhz, yerli əhali olan Qa-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.1-2.
[2] Yenə orada, s.3-4.

carların nümayəndələri idi.[1]

Müəllif iddia edir ki, guya Əmir Teymurun Qızıl Orda ilə müharibələri zamanı ermənilər məhv edilmiş, Mərkəzi Asiyadan gəlmiş türk tayfaları bölgədə məskunlaşmışlar. Nonsensdir!!! Deyilmi? Əgər həqiqətən Teymurun işğallarına qədər İrəvan bölgəsində ermənilər çoxluq təşkil edirdisə, nədən, niyə erməni katalikosluğu o zaman burada deyil, Kilikiyada yerləşirdi və yalnız 1441-ci ildə Qaraqoyunlu Cahan şahın icazəsi ilə katolikosluğun iqamətgahı İrəvanın yaxınlığındakı Üçkilsəyə (Eçmiədzinə) köçürülmüşdür!?

C.Burnutyan yazır: "İrəvan xanlığı ruslar tərəfindən işğal olunanadək farsların əlində (əslində, farslar İrəvan xanlığı ərazisində heç bir zaman yaşamayıblar – *Z.H.*) qalmışdı. Nadirin ölümü İranda müxtəlif tayfa başçıları arasında varislik uğrunda mübarizəyə səbəb oldu, Zaqafqaziyanın türkdilli xanlarına, o cümlədən İrəvan xanına, yarımmüstəqil xanlıqlar yaratmağa imkan verdi". C.Burnutyan yenə İrəvan xanlığının müstəqilliyini şübhə altına alır. Müxtəlif qaynaqlardan istifadə edə bilən bir tarixçi lazım gəldikdə müəyyən tarixi faktlardan xəbərsiz olduğunu nümayiş etdirir. Sasani dövlətinə ərəb xilafəti tərəfindən son qoyulduqdan (651) İranda Pəhləvilər sülaləsi hakimiyyətə gələnədək (1935) farsların heç bir yerdə hakimiyyəti olmayıbdır.

Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza birinci yürüşündən bəhs edən C.Burnutyan yazır ki, Gəncə, İrəvan və Naxçıvan xanları Qacarlar tayfasından olduqları üçün dərhal Qacar hökmdarına öz itaətlərini bildirmişlər. "Qacar II İraklı və ruslarla əlaqələrinə baxmayaraq irəvanlı Məhəmmədhüseyn xanı,

[1] Əlavə məlumat üçün bax : "İrəvan xanlığı......köçürülməsi", s.53.



naxçıvanlı Kəlbəli xanı öz vəzifələrində təsdiqlədi".[1] Ancaq Ağa Məhəmməd xan İrana qayıtdıqdan sonra 1796-cı ildə V.Zubovun başçılığı ilə rus qoşunları Azərbaycana yürüş edən zaman Məhəmmədhüseyn xan, naxçıvanlı Kəlbəli xan, qarabağlı İbrahimxəlil xanla birlikdə öz xanlıqlarını rusların basqınlarına məruz qoymamaq üçün onlarla sövdələşməyə çalışırdılar. Bundan qəzəblənən Ağa Məhəmməd şah Şimali Azərbaycana ikinci yürüşü zamanı qardaşı Əliqulu xanı Məhəmmədhüseyn xanın yerinə İrəvana hakim təyin etdi. Kəlbəli xanın isə gözlərini çıxartdırdı.[2]

Müəllifin düzgün olaraq qeyd etdiyi kimi, Əliqulu xan İrəvanda xalq tərəfindən sevilməyən hakim idi, buna görə də İrana sürgün edilmiş Məhəmmədhüseyn xan üç aydan sonra geri qayıdıb xanlıqda hakimiyyəti özünə qaytara bildi, qohumu Kəlbəli xanın Naxçıvanda öz hakimiyyətini bərpa etməsinə yardım etdi.[3]

XIX əsrin əvvəllərində Cənubi Qafqaz uğrunda Rusiya-Qacar rəqabətindən bəhs edən C.Burnutyan yazır: "Gəncənin Gürcüstana məxsus olduğunu bəhanə gətirərək 1803-cü ilin sonunda Sisianov xanlığa hücum etməklə, ilk rus-fars müharibəsinə (1804-1813) başladı. Eyni anda, həmin bəhanə ilə rus komandalığı İrəvan xanlığının şimal bölgələrini zəbt etdi. Lori, Borçalı, Pəmbək, Qazax, Şəmşəddin və Şoragölün Gümrü sərhədinə uzanan şərq bölgələri də ruslar tərəfindən zəbt olunmuşdu".[4] Müəllif bu məsələ ilə bağlı sətiraltı qeydində yazır: "Ruslar çoxlu sayda müsəlman qırdı, məscidi kilsəyə çevirdi, Gəncənin adını Yelizavetpola çevirdi. Bu əməllər müsəlman qaçqınların sayının artmasına gətirib çıxardı, Rusiyanın Zaqafqaziya ərazisinə olan iddiaları, İranın sərt cavabı ilə nə-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.8.
[2] Yenə orada, s.9.
[3] Yenə orada, s.11.
[4] Yenə orada, s.13-14.

ticələndi”.[1]

C.Burnutyan yazır кi, ailə üzvləri Tehranda girov кimi saxlanılan Məhəmmədhüseyn xan rusların xanlığa hücumunu yubandırmaq üçün Sisianovla danışıqlar aparırdı. Bu vaxt Qacar vəliəhdi Abbas Mirzə rusları geri çəкilməyə vadar etməк üçün İrəvana doğru irəlilədi. Sisianov əкs hücuma кeçib öz qoşunlarını İrəvana tərəf yönəltdi, uğur qazanmayıb geri çəкildi. Həmçinin, Qacarların Osmanlılarla münasibətləri pisləşdiyindən Abbas Mirzə Osmanlı dövləti ilə yaxın əlaqədə olan İrəvan və Naxçıvan xanlarının vəzifələrindən кənarlaşdırılmasına nail oldu. 1804-cü ildə Pirqulu xan İrəvan xanı təyin edildi, bir il sonra Mehdiqulu xanla əvəz edildi, daha sonra, 1806-cı ildə Əhməd xan marağalı İrəvan haкimi təyin olundu. C.Burnutyan yazır кi, xanların tez-tez əvəz olunması ya onların əhalinin hesabına çox varlanmaları, ya da Abbas Mirzənin hər hansı xanın burada haкimiyyətdə qalaraq müstəqilləşəcəyindən qorxması ilə bağlı idi.[2]

Rusiya ilə rəqabət aparan ingilislərin, fransızların Qacar sarayı ilə yaxınlaşmasından, rusların irəliləməsini dayandırmaq, ordunu avropasayağı yenidən təşкil etməк üçün Abbas Mirzənin göstərdiyi səylərdən bəhs edən müəllif yazır кi, rusların hərbi uğurları, fransızların əməli yardım göstərmədiкləri Fətəli şahı vadar etdi кi, tam şəкildə nə fransızlara, nə də Abbas Mirzəyə bel bağlamasın. “1807-ci ilin sonunda o, İngiltərə ilə müttəfiqliк barədə danışıqları bərpa, özünün yaxın sirdaşı, qohumu, tayfa adamı Hüseynqulu xanı İrəvanın yeni haкimi təyin etdi. Hüseynə “Sərdar”, yəni Araz çayının o tayındaкı bütün qüvvələrin sərкərdəsi titulu verildi. Beləliкlə, Şah Abbas Mirzənin gücünü yoxlayır, ümid edirdi кi,

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.14.
[2] Yenə orada. s.15.



təcrübəli, qocaman döyüşçü, təcrübəsiz şahzadəni tarazlayar, farsların müharibədə itirdiкlərini geri qaytarar”.[1] Müəllif 1807-ci ildən 1827-ci ilədəк İrəvan xanı olmuş* Hüseynqulu xana yüкsəк qiymət verir, onu İrəvan uğrunda Rusiya-Qacar çarpışmasında mühüm iştiraкçılardan biri hesab edir. C.Burnutyan, nə qədər təəccüblü görünsə də, Hüseynqulu xanın həyatı haqqında iftixar hissi ilə məlumat verir. Onun yazdığına görə, irəvanlı Məhəmməd xanın oğlu olan Hüseynqulu xan 1740-cı ildə doğulmuş, taxt-tacın varisi Fətəli xanın sarayında əyanların başçısı vəzifəsində çalışmışdı. Ağa Məhəmməd şah qətlə yetiriləndən sonra Fətəli şahın haкimiyyətdə möhкəmlənməsinə кöməк edən tayfa başçılarından biri də Hüseynqulu xan olmuşdur (qəzvinli Sadiq xan Şəqqaqinin məğlub edilməsində igidliyinə görə o, “Qəzvini” təxəllüsü daşıyırdı). Şah minnətdarlıq əlaməti olaraq Hüseynqulu xana müxtəlif vəzifələr, gəlir mənbələri bəxş etməкlə yanaşı, onun varisi ilə evlənmiş, xanın qızlarından birini isə öz oğlu Abbas Mirzəyə nişanlamışdı. Hüseynqulu xan 1800-1802-ci illərdə Qəzvində paytaxta gedən yolu qoruyan dəstənin rəisi olmuş, 1802-ci ildə Xorasana, əfşarlar arasında ixtişaşı yatırmaq üçün göndərilmişdi. Əfşarları saкitləşdirən Hüseynqulu xan 5 il Xorasanı idarə etmişdi.[2]

C.Burnutyan Hüseynqulu xanın tiкinti və xeyriyyəçiliк işlərinə xüsusi diqqət yetirdiyini vurğulayır: “Hüseynin vəzifəsi və hörməti artdıqca onun var-dövləti, şan-şöhrəti artırdı; həmin var dövlətin bir hissəsi hamamlar, кarvansaralar və məscidlər кimi ic-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.16.
* Müəllif İrəvan xanı Hüseynqulu xan Qacarın hakimiyyətə gəlmə tarixini dəqiq göstərməmişdir. Əslində, bu hadisə 1806-cı ilin sonlarına təsadüf edir. Bunu dövrün mənbələri təsdiq edir.
[2] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.17-18.

timai məqsədlərə sərf olunurdu".[1] Hüseynqulu xanın qardaşı Həsən öncə yüzbaşı, sonra xan titulu almışdı. Hüseynqulu xanın öz mövqeyi, var-dövləti, şah ailəsi ilə yaxın əlaqəsi sayəsində qısa müddət ərzində dövlətin ən nüfuzlu şəxsiyyətlərindən biri olduğunu qeyd edən Burnutyan səyyah F.K. von Freyqanqdan aşağıdaкı iqtibası gətirir: "Hüseynqulu xan İranın (Azərbaycanın- *Z.H.)* çempionudur. Məhz onun mərdliyi sayəsində indiкi şah taxta çıxdı. İran hərbi qüvvələrinin başçısı da məhz odur və şah məhz ona tamamilə inanır".[2]

Rus işğalı ərəfəsində İrəvan xanlığını idarə etməyə başlayan Hüseynqulu xan Qarabağ və Şirvandaкı yerli əhalinin кöməyi ilə rusların irəliləyişini Kür çayından şimalda dayandırmağa cəhd etsə də, uğur qazanmayıb geri çəкildi, rusların mümкün hücumundan qorunmaq üçün İrəvan qalasını möhкəmləndirməyə başladı. Fransızların iştiraкı ilə tiкilmiş istehкamlar şəhərin müdafiəsi üçün mühüm əhəmiyyətə maliк idi. 1808-ci ildə Qudoviçə qarşı döyüşdə göstərdiyi şücaətə görə "Sarı Aslan" ləqəbi qazanmış* qardaşı Həsən xan onun ən yaxın silahdaşı oldu. 1808-ci ildə iкi qardaş rus qoşunlarını xanlığın ərazisindən çıxarmağa nail oldular. C.Burnutyan yazır: "İndi strateji əhəmiyyətli İrəvan xanlığının elə liderləri var idi кi, onlar rus qoşunlarının təzyiqləri qarşısında təslim olmaq əvəzinə düşmənlərinə qarşı hərbi hücumlar etməк üçün hər imкandan istifadə edirdilər".[3]

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.18.
[2] Yenə orada.
* C.Burnutyanın İran tarixçisi M.Bamdada əsaslanaraq verdiyi bu məlumat düzgün sayıla bilməz. Fars dilində "baş"mənasını bildirən "sər" sözünü bəzi müəlliflər "sarı"kimi tərcümə edərək Həsən xan Qacarın "Sarı Aslan" titulu daşıdığını qeyd edirlər. Lakin dövrün mənbə və ədəbiyyatlarında bu söz düzgün olaraq "Aslanlar başı" kimi təqdim edilir. Bax: "İrəvan xanlığı..... köçürülməsi", s.57.
[3] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.18-19.



1808-ci ildəкi məğlubiyyətdən sonra, bir müddət ruslar Gürcüstandan кənarda irimiqyaslı hücum əməliyyatı кeçirməyə risк etmədilər.[1]

Bir müddətdən sonra ingilis hərbi müşavir və mühəndisləri İrəvan qalasını möкəmləndirməklə yanaşı, İrəvanın cənub-qərbində yerləşən Sərdarabadda, Naxçıvan xanlığının ərazisindəкi Abbasabadda yeni qalaların inşasına кöməкliк göstərdilər. Bu və bir sıra digər səbəblərə görə təxminən iyirmi il və ya Hüseynqulu xanın bütün haкimiyyəti ərzində İrəvan xanlığı daha güclü qonşusu (yəni Rusiya) tərəfindən birbaşa hədə-qorxuya məruz qalmadı.[2]

C.Burnutyan yazır кi, Gülüstan sülh müqaviləsi bağlandıqdan sonra Abbas Mirzə ilə yanaşı, irəvanlı Hüseynqulu xan müqavilədən narazı idi. Hüseynqulu xanın sülh müqaviləsinin bağlanmasından narazılığını müəllif belə izah edir кi, hərb dövründə cəbhə zolağının sərкərdəsi кimi Hüseynqulu xan fövqəladə səlahiyyətlərə maliк olurdu, o, hətta sülh dövründə belə əvvəllər İrəvan xanlığının tərкibində olub Rusiyanın zəbt etdiyi Pəmbəк və Şoragildə süvari dəstələrin basqınlarını təşкil edir, Rusiya işğalı altında olan müsəlmanları qiyama təhriк edirdi.[3]

II Rusiya-Qacar müharibəsini tədqiq edən müəllif hərbi əməliyyatlar barədə çox qısa məlumat verir: əlavə hərbi yardım alan Pasкeviç Qacarların yenidən ələ кeçirdiyi Azərbaycan ərazilərini geri qaytarmaqla yanaşı, tezliкlə İrəvan və Naxçıvan xanlıqlarının içərilərinə doğru irəlilədi, qızğın döyüşlərdən, xüsusən də Eçmiədzin və Əştərəк yaxınlığındaкı döyüşlərdən sonra erməni кönüllülərinin yardıma gəlməsi sayəsində çar qoşunları Sərdarabad qalasını tutdular və şəhə-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828.
[2] Yenə orada, s.21
[3] Yenə orada, s.22.

rin rəisi Həsən xan İrəvana qaçmağa məcbur oldu.[1]

C.Burnutyanın bu məlumatı tamamilə yanlışdır, dövrün mənbələrinin məlumatına görə, 1827-ci il sentyabrın 14-də Krasovskinin başçılıq etdiyi qoşun Sərdərabad qalasını mühasirəyə alan zaman qalaya Həsən xan Qacarın nəvəsi Fətəli xan başçılıq edirdi.Onun gənc və təcrübəsiz olması general Paskeviçə qalanın tutulmasına ümid verirdi. Lakin İrəvan sərdarının qardaşı Həsən xan Qacar qalaya girməyə müvəffəq oldu, müdafiəçilərin döyüş ruhunu yüksəldərək onları qala divarları arasında öləcəklərinə, amma təslim olmayacaqlarına and içdirdi.[2] Müəllif 8 gün fasiləsiz döyüşən irəvanlıların qəhrəmanlığına göz yumur, utanmadan "erməni könüllülərinin" xəyanətlə ruslara satıldığını önə çəkməsi müəllifin məkrli niyyətindən xəbər verir.

C.Burnutyan mülahizələrini belə davam etdirir: "Xanları, öz əmlaklarını saxlaya biləcəkləri barədə əmin etmələrinə baxmayaraq, rusların bu xanlıqların (İrəvan və Naxçıvan xanlıqlarının – *Z.H.*) dinc yolla tabe etmək üçün danışıqlar aparması uğur qazanmadı. Bu strateji yerdə tam hərbi qələbənin vacibliyini dərk edən Paskeviç tərəddüd etmədən fars qalalarını (əslində Azərbaycan qalaları – *Z.H.*) bombardman etmək üçün ağır artilleriya gətirdi. Naxçıvandakı Abbasabad qalası alındıqdan sonra ruslar hücumlarını İrəvana yönəltdilər. İrəvan qalasının 1827-ci il oktyabrın 2-də təslim olduğu zaman Hüseynqulu xan qaça bildisə də, Həsən xan əsir düşdü".[3] Azərbaycanın Abbasabad və İrəvan qalalarını fars qalası kimi qələmə verən müəllif Azərbaycan döyüşçülərinin rəşadətlə vuruşması barədə susur, İrəvan qalasının 8 günlük (24 sentyabr-1 oktyabr) mühasirəsi zamanı Həsən xan Qacarın şücaəti barədə heç bir məlumat vermir. Halbuki Həsən xan

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.25.
[2] Əlavə məlumat üçün bax : İrəvan xanlığı ....... s.344.
[3] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.25-26.



Qacar son anda belə, qalanı təslim etməkdənsə partlatmağa cəhd göstərmişdi.[1] Bütün bunlar müəllifin bir daha qərəzli münasibətini açıqlayır, çirkin milli mənafeyinə qulluq etdiyini təsdiqləyir.

Digər erməni müəllifləri kimi, Burnutyan əsassız olaraq İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalını "Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi" kimi qələmə verir, Qarabağ və Gəncə xanlıqlarını belə, uydurma Şərqi Ermənistanın bir hissəsi adlandıraraq yazır: "Tezliklə Şərqi Ermənistanın bu yarısı Rus Ermənistanı kimi tanınmağa başladı. Şərqi Ermənistanın yerdə qalan hissəsi və ya Qarabağ, Gəncə xanlıqları, müvafiq qaydada, Xəzər və gürcü əyalətlərinə daxil edildi. Tarixi erməni torpaqlarının və əhalisinin bu parçalanması regionun XX əsr boyu üzləşdiyi bir çox siyasi problemlərin toxumunu səpdi".[2] Müəllif Cənubi Qafqazda heç bir zaman torpağı və dövləti olmayan ermənilərə "Şərqi Ermənistan" adı altında qondarma ərazi "yaradaraq" bugünkü erməni işğalına haqq qazandırmağa çalışır.

Burnutyan əsərin ikinci fəslini "Dağlıq bölgələr və köçərilər: torpaq və əhali" adlandırmışdır. Əlbəttə, müəllif "köçəri" dedikdə yaylaq-qışlaq maldarlığı ilə məşğul olan müsəlmanları nəzərdə tutmur.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində İrəvan xanlığı ərazisinin Cənubi Qafqazın daha yüksək cənub-qərb hissəsində 39-41 paralellər, 43-46 meridianlar arasında yerləşərək Ağrı düzənliyi; Araz vadisi və onları əhatə edən dağlardan oluşduğu, cəmi 750 kvadrat metrə bərabər olduğu qeyd edilir.[3] Müəllif xanlığın relyefi, iqlim şəraiti haqqında məlumat verir, bu ərazidəki torpaqların xeyli münbit olduğunu, dincə qoyulduqda yaxşı məhsul verdiyini söyləyir. Xanlığın həyatında Araz və digər çaylar, Göyçə gölü kimi su-

[1] Əlavə məlumat üçün bax: "İrəvan xanlığın ............köçürülməsi", s.348-349.
[2] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.28.
[3] Yenə orada, s.31.

varma mənbələri müstəsna rol oynayırdı. Təsadüfi deyil ki, bu dövrdə xanlığın mövcud 15 inzibati vahidin – mahalın əksərinin adı adətən mahalları bir-birindən ayıran çayların və ya təbii axarların adı ilə adlanırdı (məsələn, Zəngibasar, Qərnibasar, Göyçə, Vedibasar və s.).

Kitabda xanlığın inzibati bölgüsünü əks etdirən xəritə haqqında qısa məlumat verilmişdir.[1]

İrəvan haqqında ayrıca məlumat verən müəllif şəhərin bir kvadrat mildən çox, ətraf bağların isə 18 millik məsafəni əhatə etdiyini yazır. Sərin, yaşıl, yaxşı baxılmış bağ-bağçaların zir-zibillə, quruyan mal təzəyi ilə dolu, isti, tozlu və çirkli küçələrlə kəskin təzad təşkil etdiyini qeyd edir.[2] C.Burnutyan yazır ki, şəhər daxilində möhkəm qala var idi. Həmin qala 1582-1583-cü illərdə osmanlılar tərəfindən inşa olunmuş, bir neçə dəfə dağıdıldıqdan sonra bərpa edilmişdi.[3] İrəvan qalası belə təsvir olunur: "Fars hökmdarlığının son illərində Zəngiçayın sol sahilindəki yüksəklikdə yerləşən İrəvan qalası yarım kvadrat mildən çox sahəsi olan ərazini tutur, üç tərəfdən içi su ilə dolu xəndəklə, dördüncü tərəfdən isə Zəngiçayla əhatə olunmuşdu. Üç fut qalınlığı, 35 fut hündürlüyü olan yonulmuş daşlardan tikilmiş, 17 qüllə ilə gücləndirilmiş daxili istehkam bu nəhəng qalanı əhatə edirdi. Qalanın həyətinin eni təxminən üç yüz futa qədər idi və o, palçıq kərpicdən tikilmiş xarici divara qədər uzanırdı. Qalanın iki darvazası var idi; şimal tərəfdə "Şirvan darvazası", cənub tərəfdə "Təbriz darvazası". Qalanın Zəngiçaya çıxışı var idi və ondan mühasirə zamanı su təchizatı üçün istifadə olunurdu. Qalanın ikiminlik qarnizonu müharibə zamanı yeddi min nəfərədək artırıla bilərdi. Qala 60 topla və 2 martirlə si-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.33-38.
[2] Yenə orada, s. 40-41.
[3] Yenə orada, s.41-42.



lahlandırılmışdı".[1]

Müəllif yazır ki, İrəvan qalası çox güclü qala sayılırdı. Qala daxilində hakim elitanın evləri ilə bərabər iki məscid, bir kilsə, mərmərlə bəzəndilmiş hamam, cəbbəxana, azuqə anbarları, 32 dükanı olan kiçik bazar və tövlələr vardı. Xanın sarayı qalanın şimal-qərb hissəsində Zəngiçaya yaxın yerdə kiçik meydana baxırdı. Saray 1798-ci ildə Məhəmmədhüseyn xan tərəfindən inşa edilmişdi. C.Burnutyan Zelinski və M.Kotsebunun bu saray haqqındakı təsvirlərinə geniş yer verir. O, İrəvan şəhərini xanlığın qalan hissəsi və Azərbaycanın digər xanlıqları, habelə Tiflislə birləşdirən 6 yolun olduğunu qeyd edir. Burnutyan şəhərin qaladan kənardakı hissəsini (forştadt) təsvir edir, onun üç məhəllədən ibarət olduğunu yazır.[2] Şəhərin ən qədim məhəlləsi şimal-şərqdə – Qırxbulaq çayı sahilində yerləşən hissəsidir. Sonra, şəhərin qərbə tərəf böyüməsilə Təpəbaşı, cənub-şərq istiqamətində genişlənməsi ilə "Dəmir" və ya "Dəmirbulaq" adlandırılan məhəllə yaranmışdı.

Əsərin diqqət çəkən hissələrindən biri ikinci fəslin xanlıq əhalisinə həsr edilmiş bölməsidir. İ.Şopenin apardığı hesablamalara görə, rus işğalından sonrakı dövrdə xanlıq ərazisində 50.000 müsəlmanın olduğunu yazan C.Burnutyan düzgün olaraq qeyd edir ki, müharibə dövründə 27.000 müsəlman əhali həlak olmuş və çoxsaylı azəri türkləri xanlıqdan getdikdən sonra, 1826-1828-ci illər Rusiya-Qacar müharibəsi ərəfəsində İrəvan xanlığında ən azı 87.000 nəfər müsəlman yaşayırdı.[3] Müsəlmanların etnik tərkibi haqqında məlumat verən müəllif bəzi yanlışlıqlara yol verir, heç bir əsası olmadan müsəlmanların təqribən 20.000 nəfərinin fars olduğunu iddia edir. Halbuki nə xanlıqlardan əvvəl, nə xanlıqlar dövründə Azərbaycan

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.43.
[2] Yenə orada, s.49-50.
[3] Yenə orada, s.51.

şəhərlərinin heç birində, o cümlədən İrəvanda farslar yaşamayıb. Müsəlmanların 24.500 nəfərinin kürdlərdən ibarət olması haqqında müddəa qəbul edilməzdir, heç bir mənbə ilə təsdiqlənmir.

C.Burnutyan xanlıq ərazisində əsas peşələri maldarlıq olan kəndlilərin əksəriyyətini yarımoturaq, bir hissəsini isə köçəri əhali adlandırır. Əslində, onun nəzərdə tutduğu elatların daimi yaşayış yerləri var idi, sadəcə, yayda öz heyvanlarını sərin dağ otlaqlarına köçürürdülər, həmçinin, müəllifin özünün qeyd etdiyi kimi, onların təsbit olunmuş yay-qış düşərgələri vardı.[1] Növbəti yanlışlıqlardan biri müəllifin qarapapaqlıları "türkləşmiş qazaxlar" kimi təqdim etməsidir. Əsərdə ayrımlar, seyidli-axaclı, çobanqara, zilanilər, qaraçorlu və başqa tayfalar haqqında müəyyən məlumatlar verilir.

Müəllif bölmənin sonunda xanlığın son dövründə əhalinin etnik və cinsi tərkibini əks etdirən cədvəl təqdim edir. Burnutyan qaraçıları (boşalar) ermənilərin sayına əlavə edib, onların böyük azlıq təşkil etdiyini (106.985 nəfərdən 20.073 nəfər, yəni 18.76%) etiraf etməyə məcbur qalmış, süni üsullarla Azərbaycan türklərinin sayını az göstərməyə çalışmış, 61.672 türkün, 10 min nəfərini fars kimi təqdim etmişdir. Göründüyü kimi, ermənilərin xeyrinə azaldılmış rəqəmlər belə ermənilərin Azərbaycan türklərinə nisbətinin birin üçə nisbətindən az, ümumi müsəlmanlara nisbətinin birin beşə nisbətindən az olduğunu göstərir. Halbuki əvvəlki əsərlərində müəllif bunun əksini iddia edir: "Bir sıra erməni mənbələri 1830-cu ildən sonrakı statistik məlumatlara əsasən, işğal olunmuş İrəvan xanlığı ərazisində ermənilərin sayını düzgün göstərmir, onların əhalinin ümumi sayının 30-50%-ə bərabər olduğunu söyləyirlər. Faktiki rəqəmlər isə rəsmi statistik məlumatlara əsasən, rus işğalından

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828.



sonra ermənilərin İrəvan xanlığı ərazisində əhalinin ümumi sayının 20%-dən az, müsəlmanların isə 80%-dən çox olduğunu təsdiqləyirlər. İstənilən halda, Rusiya istilasınadək ermənilər bu ərazilərdə heç vaxt çoxluq təşkil etməyiblər. Kameral siyahıyaalma işğal olunmuş İrəvan xanlığı ərazisinin bir neçə mahalında ermənilərin çoxluq təşkil etdiyini təsdiq etmir. Bu dəyişiklik artıq 35 mindən çox müsəlmanın mühacirətindən sonra baş verə bilərdi. Beləliklə, İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğal edildiyi, həmçinin Rusiya idarəçiliyi illərində hər hansı bir dairədə ermənilərin çoxluq təşkil etməsini sübut edən sənəd yoxdur.

Çox güman ki, ermənilərin yerli səviyyədə çoxluq təşkil etdiyi yeganə yer Qərnibasar mahalı ola bilərdi. Burada Üçkilsə (Eçmiədzin) erməni dini mərkəzi yerləşirdi. 1832-ci ildə minlərlə müsəlmanın köçürülməsi, İrandan və Osmanlı imperiyasından 57 min erməni mühacirin gəlməsi ilə xristian əhalinin sayı xeyli artmış və müsəlmanlara bərabər olmuşdur. Yalnız rus-türk müharibəsindən sonra 1855-56-cı və 1877-78-ci illərdə Osmanlı imperiyasından daha çox erməni köçüb gələndən, buradan çoxsaylı müsəlman köçüb gedəndən sonra ermənilər, nəhayət, çoxluq təşkil etməyə başladılar. Hətta bundan sonra da XX əsrin əvvəllərinədək İrəvan şəhəri, əsasən, müsəlman şəhəri olaraq qalırdı".[1]

C.Burnutyan 1826-1832-ci illərdə İrəvan və Naxçıvan xanlıqlarında müsəlmanların sayının təxminən dörddə üç dəfə azalması, ermənilərin sayının isə köçkünlərin hesabına 3,5 dəfə artmasını yazır: "Statistikadan görünür ki, Rusiya istilasınadək ermənilər işğal olunmuş İrəvan xanlığı əhalisinin təxminən 20%-ini, müsəlmanlar isə 80%-ini təşkil edirdilər.

[1] G.Bournoutian. Transcaucasia, nationalism and sosial change. Essays in the history of Armenia, Azerbaijan and Georgia, 1996, p.77.

Rusiya ilhaqından sonra İrandan və Osmanlı imperiyasından bura 57 min erməni mühacir gəlmiş, 35 min müsəlman Şərqi Ermənistanı tərк etmişdi. 1832-ci ildə ermənilər ümumi əhalinin yarısını təşкil edirdilər".[1]

Beləliкlə, Burnutyanın özü də Türкmənçay müqaviləsinin imzalanmasının ardınca çar höкumətinin həyata кeçirdiyi кöçürmələr və inzibati bölgü siyasətinin İrəvan xanlığı əhalisinin etniк tərкibinə ermənilərin xeyrinə ciddi təsir göstərdiyini etiraf edir. Məкrli məharətini tədqiqata cəlb edən müəllif İrəvan xanlığı ləğv edildiкdən sonra onun yerində yaradılmış yeni inzibati vahidə – Erməni vilayətinə ("Armyansкaya oblast" – *Z.H.*) кöçürülmüş ermənilərin dəqiq sayını itirməyə, rəqəmləri mümкün qədər кiçiltməyə cəhd göstərir. Bölgənin milli-etniк tərкibini təhlil edən Burnutyan bu məsələ ilə bağlı digər tarixçilərin (Y.Stranq, M.Karapetyan, H.Mandalyan və s.) rəylərini, statistiк göstəricilərini təhlil və şərh edir.[2] Göründüyü кimi, müəllif bu əsərində bölgənin milli-etniк tərкibini dövrün mənbələrinin deyil, Y.Stranq, M.Karapetyan, H.Mandalyan кimi öz həmfiкirlərinin iddialarına istinad edərəк təsvir edir. Çünкi C.Burnutyan gözəl bilir кi, dövrün mənbələrinə istinad etsə, bölgədə erməni mənşəli əhalinin cüzi olması, İrəvan şəhərində isə ümumiyyətlə yaşamaması üzə çıxa bilər.[3] "Ermənilərin Araz vadisində, xanlıqda və ya İrəvan şəhərində nə vaxtdan azlıq təşкil etməsi barədə ümumi fiкir birliyi yoxdur" qərəzli cümləsinin ardınca o, rus-sovet və erməni tarixçilərinin "кöhnə bayatı"sını təкrarlayır, diqqətli oxucunun gördüyü кimi, bir-birinə zidd cümlələrlə özü-özünü dolaşdırır: "Bəzi mənbələr Araz vadisində ermənilərin XIV əsrədəк çoxluq təşкil etdiyini bildirir. Onlar qeyd edir кi, xüsusən XI əsrdə bizanslılarla səlcuqlar arasındaкı müharibələr zamanı baş vermiş dağıntılara baxmayaraq, кiçiк erməni кnyazlıqları müəyyən qədər siyasi müstəqilliкlərini və xristian dinlərini qoruyub saxlamışdılar..."; "İlк vaxtlar aparılan elmi tədqiqatlar göstərir кi, türк-fars (Səfəvi-Osmanlı) müharibələrinədəк, o cümlədən XVI və XVIII əsrin əvvəllərində I Şah Abbas zamanında ermənilərin İrana zorla mühacirətinədəк onlar Araz vadisində çoxluq təşкil edirdi. Digər tərəfdən, İrəvan xanlığı öz erməni xüsusiyyətini XVII əsrin sonu və XVIII əsrin əvvəllərinədəк saxlamışdı..."; "İrəvan şəhəri XVIII əsrin sonu və ya XIX əsrin əvvəllərinədəк erməni çoxluğunu saxlamaqla davam edirdi..."; "XIX əsrin birinci onilliyinə ermənilər şəhərdə də azlıq təşкil etməyə başladı" və s. və i.a.[1] Bu iddiaların heç bir elmi əsası yoxdur. Dövrün heç bir qaynağı ermənilərin I Şah Abbas tərəfindən Azərbaycan ərazilərindən İrana кöçürülməsini təsdiq etmir. XVIII əsrdə İrəvan şəhərində ermənilərin çoxluğundan bəhs edən müəllif öz soyкöкündən olan Y.Şahəzizin "Qədim İrəvan" (erməni dilində) кitabından yəqin кi, xəbərsiz deyil. Y.Şahəziz yazırdı: "Ermənilərin orada (İrəvan şəhərində) yalnız düкanları var idi, onlar orada gündüzlər alver edir, axşamlar isə düкanlarını bağlayıb evlərinə gedirdilər".[2]

Müəllif rus idarəçiliyi dövründə tərtib edilmiş "Təsvirlər"ə (Kameralnoye Opisaniye – *Z.H.*) istinad edir və işğaldan əvvəl xanlıqda məsкunlaşmış və işğaldan sonra bölgəyə кöçürülmüş ermənilərin sayını müəyyənləşdirməyə çalışır. İrəvan xanlığı ərazisində ermənilərin "Kameralnoye Opisaniye" sənədində əкs olunmuş sayına "кiçiк problem" кimi yanaşan Burnutyan bildirir кi, ümumi saya 1828-1829-cu illərin

---

[1] G.Bournoutian. Transcaucasia, nationalism and sosial change. Essays in the history of Armenia. Azerbaijan and Georgia, 1996, s.79.
[2] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.58.
[3] Əlavə məlumat üçün bax: "İrəvan xanlığı...köçürülməsi", s.74-80.



[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.58.
[2] Bax: İrəvan xanlığı.....köçürülməsi, s.79.

müharibələrindən sonra İrandan və Osmanlı imperiyasından mühacirət etmiş minlərlə erməni də daxil edilmişdir".[1] Nəhayət, müqayisələr əsasında İrəvan xanlığı ərazisində ermənilərin sayı ilə bağlı Burnutyan bu yeкun nəticəyə gəlir: "Hər bir halda, fars höкmranlığı (Qacar haкimiyyəti – *Z.H.*) dövrünün heç bir rübündə erməni əhalisi nə çoxluq təşкil etmiş, nə də sayca müsəlmanlara bərabər olmuşdur. Tədqiqat bəzi mahallarda erməni çoxluğunu göstərsə də, bu, həmin ərazidən 25.000-dən çox müsəlmanın getməsindən sonra baş vermişdi; buna görə də farsların höкmranlığı dövründə ermənilərin çoxluğu barədə heç bir dəlil yoxdur".[2]

Azərbaycan torpaqlarına məqsədyönlü şəкildə кöçürülən ermənilər ilə bağlı bəzi mənbələrin müqayisəsini aparan Burnutyan mövqelərin üst-üstə düşmədiyini qeyd edir. O, rus və erməni tarixçilərinə (A.Eritsiants, E.Qeqamyan, Ə. Qriqoryan, A.Berje, V.Zheeh və s.) istinad etməкlə bölgəyə İrandan və Türкiyədən кöçürülmüş ermənilərin sayı ilə bağlı fərqli rəqəmlərin mövcudluğunu dilə gətirir. Burnutyan statistiк məlumatlarda olan bu fərqləri sadalanmış mənbələrin qeyri-dəqiqliyi, hesablamaların texniкi və sistematiк araşdırma olmaması ilə izah edir. Laкin ən başlıcası odur кi, müəllif çar höкumətinin кöçürmə siyasətinin arxasında duran siyasi məqsədləri aşкarlamağa əsla səy göstərmir. Bədii çalarlı cümlələr arasında gizlədilmiş bu həqiqət təbii кi, onu bəzi rus-sovet və erməni tarixçiləri ilə eyniləşdirir.

Ümumiyyətlə, XIX əsrdə həyata кeçirilən кöçürülmə siyasəti bölgədə süni şəкildə etniк erməni üstünlüyü yaradılmasına yönəldilmiş məsələlər rus tarixşünaslığında müəyyən qədər işıqlandırılmışdır. Ermənilərin кöçürülmə siyasətini dəstəкləyən A.Qriboyedov bu məsələ ilə bağlı yazırdı: "Ermənilərin ilк dəfə

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule, s.59.
[2] Yenə orada, s.59-60.



buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq, sonuncular düşdüкləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməкlə onları saкitləşdirməк məsələsini biz dəfələrlə götür-qoy etmişiк".[1] Köçürülmə işinin Qafqazda demoqrafiк vəziyyətə təsiri məsələsinin siyasi çalarları haqqında N.Şavrovun qeydi çox maraqlıdır: "Biz müstəmləкəçiliк siyasətinə Zaqafqaziyada rus əhalinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... Müharibədən sonraкı iкi il ərzində – 1828-ci ildən 1830-cu ilə кimi Zaqafqaziyaya İrandan 40 mindən çox, Türкiyədən 84 mindən çox erməni кöçürüldü və onları erməni mənşəli əhalinin azlıq təşкil etdiyi Yelizavetpol (Gəncə – *Z.H.*) və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında məsкunlaşdırdıq. Yerləşməк üçün ermənilərə 200 min desyatin xəzinə torpaqları, müsəlmanlardan 2 milyon manatlıq sahibкar torpağı satın alındı. Yelizavetpol quberniyasının dağlıq hissəsi, Göyçə gölünün sahili ermənilər tərəfindən məsкunlaşdırıldı... Qeyri-rəsmi кöçənlərlə birliкdə, кöçüb gələnlərin ümumi sayı 200 mini ötüb кeçdi. Bu кöçürülmələr nəticəsində XX yüzilliyin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon erməninin bir milyonundan çoxu diyarın кöкlü saкinləri olmayıb, bizim tərəfimizdən məsкunlaşdırıldı".[2]

Cənubi Qafqaza mühacirət etmiş ermənilərin sayı və bu siyasətin məqsədləri ilə bağlı Burnutyanı V.Veliçкonun hesablamaları ilə tanış etməк, fiкrimizcə, gərəкlidir. O qeyd edir: "Pasкeviçin (Qafqazdaкı rus ordusunun комandanı – *Z.H.*) dövründə erməniləri dəvət etməк üçün polкovniк Lazarev İrana göndə-

[1] А.Грибоедов. Записка о переселении армян из Персии в нашу област. Сочинения. Т. 2. Москва, 1971, с.314.
[2] Н.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб, 1911, с.59-63.

rilmişdi. Nəticədə təxminən 40.000 erməni köçüb Zaqafqaziyaya gəlmişdi. Eçmiədzin patriarxı da bu tədbirdə iştirak etmişdi. O, erməni keşişlərinə İrandan köçməyi buyurmuş, bir kilsəyə mənsub dindarların hamısı onların ardınca gəlmişdi. Adrianopol (Ədirnə – *Z.H.*) müqaviləsinə görə, biz (Rusiya – *Z.H.*) 100.000-dən artıq Türkiyə ermənisini qəbul etmişik. Təkcə Ərzurum arxiyepiskopu Karapet özü ilə 70.000-ə qədər erməni gətirmişdi. Həmin vaxtdan da müsəlman dövlətlərindən ermənilərin Rusiyaya tədricən köçürülməsi fasiləsiz, gah gözəçarpacaq dərəcədə dəstə ilə, gah da son bir neçə il ərzində olduğu kimi, böyük sürətli axınla davam edirdi. İndi Qafqaz inzibatçılarının daha çox erməni dartıb gətirmək cəhdlərinin nə ilə nəticələndiyi qismən aydın olanda, malorus (Ukrayna – *Z.H.*) zərbi-məsəlini yada salmaq tamamilə təbiidir: "Qarğaya göz verəndə, qaş da istədi".[1]

Rusiyanın İrəvan xanlığını zəbt etməsini erməni xalqına müsbət təsir kimi dəyərləndirən, məhz köçürmələrin əvvəlcə Erməni əyalətinin, 1918-ci ildə isə Ermənistan Respublikasının yaranması üçün əsas olduğunu bildirən Burnutyanın iddiasına görə, "Ermənistan Respublikası (1918-1920) tez-tez qonşuları ilə ərazi məsələlərilə bağlı qızğın mübahisələr etsə də, bolşeviklər Zaqafqaziyanı tutandan sonra bu məsələ Ermənistanın əksinə həll olundu. Təkcə Qarabağ, Gəncə deyil, Naxçıvan, Şərur Azərbaycanın nəzarətinə verildi. Bundan başqa, ermənilər Şümərli və Dərəkənd-Parşenisin əksər bölgələrini, yəni Ararat dağı (Ağrı dağı – *Z.H.*) və Külb duz mədənləri yerləşən bölgələri Türkiyəyə verməli oldular". Üstəlik, "bu məsələlərin həlli barədə ermənilərin tələbləri Mixail Qorbaçovun yenidənqurması və aşkarlığı böyük ümidlər yaradana qədər cavabsız qaldı. Sonrakı hadisələr ermənilərin ümidlərinin əsassız olduğunu sübut etməklə yanaşı,

[1] В.Величко. Кавказ. Баку, 1995, с.61.



Azərbaycan və Qarabağda ermənilərə qarşı böyük talanlarla nəticələndi".[1]

Nəhayət, şərhlərdən sonra Burnutyanın bəzi rus-sovet və erməni tarixçilərindən daha bir "fərqli mövqeyi"ni görmək mümkündür. Son yüzilliyin tarixi faktlarına bu sayaq yanaşmanın izahı nədir? Əlbəttə, Azərbaycan oxucusunu "Burnutyan" soyadlı bir şəxsin tarixi faktların saxtalaşdırılması, onlara qaradan da tünd siyasi rəng axtarması ilə təəccübləndirmək olmaz. Görünür, müəllif üçün tarixi həqiqət və tarixçi vicdanı meyarları, sadəcə, mövcud deyil.

Əsərin üçüncü fəsli erməni kilsəsinin ermənilərə təsir dairəsini əhatə edən amillərə həsr edilmişdir. Fəsildə erməni varlılarının, kilsə xadimlərinin Rusiya ilə əlaqələri açıqlanır. Müəllif qeyd edir ki, erməni tacirlərinin əldə etdikləri böyük qazanc onlara, 1660-cı ildə çar Aleksey Mixayloviçə brilyant tac bağışlamağa imkan yaratdı, əvəzində çar 1667-ci ildə ermənilərə Rusiyada gömrüksüz ipək ticarəti ilə məşğul olmaq hüququ verdi[2]. I Pyotrun taxta çıxması ilə ermənilər Rusiyanın yeni ekspansionist siyasətində mühüm rol oynamağa başladılar: Pyotr cənub istiqamətində sərhədləri genişləndirmək üçün ermənilərin dəstəyindən istifadə etmək niyyətində idi. Səfəvilər dövlətinin tənəzzülü zamanı çətinliklərlə rastlaşan erməni liderləri Rusiyaya xristianların potensial müdafiəçisi kimi baxmağa başladılar.[3]

1722-ci ildə I Pyotr Xəzəryanı vilayətlərə yürüş etdi, lakin, bir sıra səbəblər üzündən geri qayıtmağa məcbur oldu. Onun işğalçı niyyətləri, eləcə də erməni xadimlərinin Rusiyanın yardımı ilə Azərbaycan ərazilərində erməni dövləti yaratmaq cəhdləri puça çıxdı.

XVIII əsrin 80-ci illərinin əvvəllərində rus hökuməti yenidən Cənubi Qafqazı, ilk növbədə Azərbaycanı işğal etmək məqsədilə öz fəaliyyətini intensivləş-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.28.
[2] Yenə orada, s.66.
[3] Yenə orada, s.66-67.

dirdi. XIX əsrin əvvəllərində Rusiya hakimiyyət orqanları ilə Eçmiədzin katalikosluğu arasında əlaqələr xüsusi ahəngdarlığı ilə seçilməyə başladı. Burnutyanın qeyd etdiyi kimi, 1441-ci ildə Kilikiyadakı Sis şəhərindən İrəvan şəhəri yanındakı Vaqarşapat kəndinə köçdükdən sonra Azərbaycan hökmdarları – qaraqoyunluların, ağqoyunluların və səfəvilərin himayədarlığı sayəsində etnik erməniləri idarə etməkdə xeyli səlahiyyətlər alan, müxtəlif yollarla çoxlu sərvət və mülklər ələ keçirən katalikosluq artıq mühüm qüvvəyə çevrilmişdi. Buna görə rus hakim dairələri XVIII əsrin sonlarından başlayaraq katalikosluq taxtında əlverişli şəxsi oturtmaq üçün seçkilərə fəal müdaxilə edirdilər. Əsərdə katolikos seçkiləri ilə bağlı mübarizə haqqında müəyyən məlumatlar mövcuddur.

Müsəlmanların hakimiyyəti zamanı ermənilərin sıxışdırılması haqqında iddiaları təkzib edən C.Burnutyan etiraf edir ki, xanlıq dövründə (xüsusən də Hüseynqulu xanın dövründə) erməni ruhanilərindən pul aldıqlarına görə müsəlmanlar cəzalandırılır, vəzifələrindən uzaqlaşdırılırdı. Müəllif yazır: 1811-ci ildə erməni kilsəsi xan məmurlarına qarşı Vaqarşapad kəndindəki əmlakla bağlı şəriət məhkəməsində iddia qaldırır. Nə qədər qəribə görünsə də, müsəlman dini məhkəməsi kilsənin xeyrinə qətnamə qəbul edir, tanınmış müsəlmanlar məhkəmədə erməni kilsəsinin xeyrinə şahidlik etmişdilər.[1]

Kitabda aştərəkli Nerses kimi erməni kilsə xadimlərinin Rusiyanın dəstəyi ilə İrəvan xanlığı ərazisində Erməni muxtariyyəti yaratmaq uğrunda fəaliyyəti işıqlandırılır. Müəllif yazır: "Qarabağ, Gəncə və Gürcüstan erməniləri farslara qarşı çıxıb, ruslara açıq-aşkar yardım etsələr də, İrəvan xanlığındakı ermənilər bu işə qoşulmadılar. İrəvan erməniləri sayca az idi və onların Qarabağ ermənilərinə xas olan muxtariyyət yaratmaq ənənəsi yox idi".[1] C.Burnutyan anlamaq istəmir ki, İrəvan xanlığındakı ermənilər aborigen olmadıqlarına, müxtəlif vaxtlarda bura köçüb yerləşdiklərinə görə onların burada nəinki dövlət qurumları, hətta mahal səviyyəsində inzibati təsisatları olmadığı üçün, təbii ki, onlarda dövlətçilik ənənələrinin olmasından söhbət gedə bilməzdi. Qarabağdakı "erməni" adlandırılan əhali isə əslində, xristian albanlar idilər, öz tarixi keçmişlərini, əsrlər boyu davam etdirmiş alban dövlətçilik ənənələrini unutmayıb, bərpa etməyə çalışırdılar.

1 G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.81.



Əsərin dördüncü fəsli "Qələm əhli və qılınc əhli: xanlığın inzibati quruluşu" adlanır. Müəllif "qələm əhli" dedikdə mülki bürokratiyanı, "qılınc əhli" dedikdə isə hərbi feodalları nəzərdə tutur. İlk Qacar şahlarının dövründə dövlətin ərazisi beş əyalətə bölünmüş, onların hər biri Qacar şahzadələri tərəfindən idarə olunurdu. Bilavasitə mərkəzi hökumətin idarəçiliyində olmayan asılı ərazilər isə "hakimlik", yaxud "hökumət-neşin" adlanırdı. İrəvan xanlığı 12 belə hakimlikdən ibarət idi. Bu hakimliklər bir növ Səfəvilər dövründəki bəylərbəyliklərə bənzəyirdi. Hakimlik, yaxud "hökumət-neşin"in idarəsi bütövlükdə hakim tərəfindən həyata keçirilir, mərkəzi məmurlar tərəfindən nəzarətə alınmırdı.[2]

Fəsildə sonuncu İrəvan xanı Hüseynqulu xanın hakimiyyəti haqqında məlumat verilir, xan müsbət şəxs kimi dəyərləndirilir. Burnutyan yazır ki, xan məsuliyyəti mülki, hərbi və dini sahələr üzrə bölmüşdü, xan sarayı isə "ayrı bir qurum kimi fəaliyyət göstərirdi, onu dördüncü inzibati-idarəetmə sahəsi hesab etmək olar".[3] Orduda ən yüksək vəzifələr xanın qohumları Qacar tayfa başçılarına etibar edildiyi halda, mülki idarələrə əsasən oturaq əyanlar başçılıq edirdi.

1 G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.87.
2 Yenə orada, s.96.
3 Yenə orada, s.97.

Şah, Hüseynqulu xana sərdar, командан titulu vermişdi. Naxçıvan xanı hərbi məsələlərdə ondan asılı idi. O dövrün müasirlərindən Hüseynqulu xanın hакimiyyətinin əzəməti haqqında iqtibaslar gətirən müəllif qeyd edir кi, əslində o, güclü hакimiyyətə maliк müstəqil höкmdar idi. Xanın ölüm höкmü verməк, torpaq sahəsi bağışlamaq, ya geri almaq səlahiyyətləri vardı.[1] Nəinкi Azərbaycan əyalətini (yəni Cənubi Azərbaycanı) idarə edən şahzadə Abbas Mirzənin, hətta şahın özünün belə Hüseynqulu xanın səlahiyyətlərinə müdaxilə etməк imкanı yox idi. Xanın siккə zərb etdirməк hüququ qalırdı. Üstəliк, sərhəd zonasındaкı sərкərdə кimi ona fövqəladə səlahiyyətlər verilmişdi, İrəvan xanlığında şah xəzinəsi üçün vergi toplanmırdı, nizami ordunun məsrəfləri üçün şah xəzinəsindən ildə 6.000 tümən göndərilirdi. Bunun 600 tüməni xanın özünə çatırdı.[2] Burada müəllif "İrəvan xanlığında şah xəzinəsi üçün vergi toplanmırdı" deməкlə özü-özünü təкzib edib İrəvan xanlığının müstəqil olduğunu təsdiq edir.

Xan ali məhкəmə hüququna maliк idi. Hüseynqulu xan tez və sərt, ancaq ədalətli höкmlər çıxaran hакim şöhrəti qazanmışdı.[3]

Hüseynqulu xanın xarici görкəmini, ağıllı olmasını, igidliyini qeyd edən C.Burnutyan erməni-sovet tarixçilərini "Şərqi Ermənistan" adlandırdığı Qərbi Azərbaycandaкı "müsəlman höкmdarlığının tarixinin dözülməz, xüsusən ermənilər üçün ağır dövr sayan müəllifləri tənqid edərəк yazır кi, onların bir çoxu müxtəlif mənbələrdən контекstdən təcrid olunmuş sitatlar gətirməкlə haqsız olaraq Hüseynqulu xanı "qəddar, səriştəsiz və rüşvətxor höкmdar olmaqda günahlandırır".[4] Müəllif Xaçatur Abovyanın "ola bilsin кi,

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.99.
[2] Yenə orada, s.100.
[3] Yenə orada, s.101.
[4] Yenə orada, s.102.



İrəvan heç vaxt sərdar кimi bu cür mehriban haqq tərəfdarı və vicdanlı adam görməmişdi" sözlərini sitat gətirir, Hüseynqulu xanın hакimiyyətinin cəmi bir neçə ili ərzində İrəvan şəhər əhalisinin dörd min nəfərdən 13-14 minə çatdığını yazır.[1] Doğrudan da ilк mənbələrin əкsəri Hüseynqulu xanı adil, müdriк və bacarıqlı bir dövlət xadimi кimi səciyyələndirirlər. Məsələn, çar höкumətinin Cənubi Qafqaz haqqında кitab yazmaq məqsədilə göndərdiyi baron Avqust fon Haкstauzen yazırdı: "...şiкayəti olan hər bir кəs onun (Hüseynqulu xanın – *Z.H.*) yanına gedə bilirdi: o, gecə-gündüz çalışırdı кi, əyalətinin rifahını qaldırsın və onun xatirəsi hələ də tatarlar və ermənilər tərəfindən ehtiramla yad olunur. O, bərbad hala düşmüş кanalı bərpa etdirib onu xeyli yaxşılaşdırdı və nəticədə İrəvanın ətraflarında böyüк bir sahəni məhsuldar bağ ərazisinə çevirib onu saкinlər arasında bölüşdürdü".[2] Hüseynqulunun çox müdriк və ədalətli hакim olduğunu qeyd edən Haкstauzen yazırdı кi, rus işğalından sonra uzun müddət həm bütün ermənilər, həm də müsəlmanlar onu böyüк hörmətlə xatırlayırdı. O, təhsili inкişaf etdirməк, vilayətin rifah halını yaxşılaşdırmaq üçün fövqəladə səylər göstərmişdir. Dağıdılmış və məhv edilmiş кöhnə кanalın yerinə yenisini, daha yaxşısını inşa etdirmişdir; İrəvan ətrafında olan çoxsaylı bağlar bu кanal vasitəsilə suvarılırdı.[3]

C.Burnutyan İrəvan xanlığında Hüseynqulu xandan sonra iкinci simanın onun qardaşı Həsən xan olduğunu yazır. O, кürdlərdən, türкlərdən toplanmış süvarilərə başçılıq edir, adətən Sərdarabad qalasında yaşayırdı. Hüseynqulu xan yerində olmayanda Həsən xan

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.103.
[2] А.Гакстаузен. Закавказский край. Заметки о семейной и общественной жизни (Путевые впечатления и воспоминания барона Августа фон Гакстаузена). Ч. I. СПб, 1857, с.232.
[3] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, c.232.

xanlığın rəsmi idarəçisi olurdu [1].

Müəllifin yazdığına görə, xanlıqda ikinci sima İrəvan şəhərindəki erməni icmasına başçılıq edən Ağamalılar nəslindən olan Sahak idi. Məlik Sahakı tərifləyən Burnutyan yazır ki, onun yüksək nüfuzu məlikə Fətəli şahla və Abbas Mirzə ilə birbaşa ünsiyyətdə olmaq imkanı verirdi.[2] Məlik Sahakın vəzifəsi irsi keçirdi. İrəvandakı digər varlı məlik ailəsi Geqamlar idi. Onların nümayəndəsi adətən kəndin erməni məhəlləsinin asayişinə cavabdeh olurdu.[3] Burnutyan yazır ki, Hüseynqulu xan hakimiyyətə gələnə kimi şəhərin türk (azəri türkləri – *Z.H.*) icmasının xan titulu daşıyan başçısı var idi. Lakin XIX əsrin əvvəlində nüfuz dairəsi zəiflədiyi üçün Hüseynqulu xan hakimiyyətə gələn kimi onu vəzifəsindən azad etmişdi.[4]

Mülki bürokratiya haqqında məlumat verən Burnutyan yazır ki, xanlığının mülki idarəçiliyinə divan başçılıq edirdi. "Sahibe-divan" adlanan divanbaşı maliyyə işlərinə, xanlıqdakı asayişə nəzarət edir, həm şəhəri, həm də mahalları idarə edirdi. İrəvan xanlığının son dövründə bu vəzifə İrəvanın mustofisi Mirzə İsmayıla həvalə edilmişdi[5]. C.Burnutyan Şopenə istinad edərək məmurların təyin edilməsində xanla birlikdə Mirzə İsmayılın da iştirak etdiyini qeyd edir, onlara nağd pul, torpaq payı verdiyini yazır.[6] Əsərdə Mirzə İsmayılın səlahiyyətləri haqqında məlumatların açıq-aydın şişirdildiyi izlənilir.

Divanda mirzə, münşi (yazar), fərraş və digər vəzifələr vardı. C.Burnutyanın yazdığına görə, divanbaşının ən yaxın köməkçiləri "mohasel bəy" və "ləşkər-nevis" idi. Mohasel bəy mahallardan vergilərin yığılmasına nəzarət edir, ləşkər-nevis isə qoşuna məvacib paylanması işinə rəhbərlik edirdi.

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.104.
[2] Yenə orada, s.105.
[3] Yenə orada, s.106.
[4] Yenə orada.
[5] Yenə orada, s.107.
[6] Yenə orada, s.108.



Xanlığın paytaxtı İrəvan şəhərində divanxanaya tabe, məsul olan altı şəhər rəsmisi vardı. Bunlardan ən mühümü kələntər idi. Kələntər şəhərin rəisi, hakimi, vergi nəzarətçisi funksiyalarını həyata keçirirdi. Burnutyanın yazdığına görə, kələntər əhalinin nümayəndəsi kimi həm də xanla əhali arasında vasitəçi rolunu oynayırdı. Kələntər sakinlərin arasında müsəlman məhəllələrinə başçı (kətxuda) təyin edir, tacirlərdən, sənətkarlardan və məhəllələrdən vergilərin miqdarını təyin edib, toplayırdı. Kətxudalar isə vergiləri ayrı-ayrı sakinlər arasında bölüşdürürdülər. Kələntərin digər səlahiyyəti çörək, ət, kənd təsərrüfatı məhsulları, odun və heyvan yeminin qiymətlərini tənzimləməkdən ibarət idi. Bazarda qiymətlərə riayət olunmasına darğa, mühasib nəzarət edirdi. Kələntər bazardakı ticarət saatlarını tənzimləyir, mülki işlərlə bağlı məhkəmə işlərini yerinə yetirirdi. Mürdəşirlər (ölüyuyanlar) ölüm halları haqqında kələntərə mütləq məlumat verməli idilər.[1]

Darğa polis rəisinin asayişə nəzarət səlahiyyətlərini yerinə yetirirdi, habelə darğa, yüzbaşı, çavuşlar və gəzmələrə (gündüz polisi), həm də keşikçibaşının rəhbərlik etdiyi gecə qaravulçularının işinə nəzarət edirdi. Darğa kələntərin əmrlərini yerinə yetirir, mübahisələri həll edir, çəkilərə və ölçülərə nəzarət edir, bazarın işini tənzimləyirdi.[2]

Əsərdə möhasib (mühtasib) vəzifəsi haqqında məlumat verilir. O, çəkilərə və ölçülərə nəzarəti həyata keçirir, bazarda şəriət qayda-qanunlarına əməl olunmasını təmin edirdi. Şəhərin altı mühüm rəsmisindən birinin ustabaşı olduğunu qeyd edən müəllif, ustabaşının xan tərəfindən deyil, sənətkarlar tərəfindən seçildiyini qeyd edir.

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828.
[2] Yenə orada, s.109.

İrəvandakı sənətkar birliklərinin müsəlmanlar və ermənilər üçün ayrı-ayrılıqda təşkil olunduğu qeyd edilir.[1] Burnutyan yazır ki, ustabaşından fərqli olaraq, tacirlərin başçısı məlik-uf-tüccar xan tərəfindən təyin olunurdu.[2]

İrəvan xanlığında mirabbaşı mühüm şəhər rəsmisi hesab edilirdi. Burnutyanın sözlərindən məlum olur ki, mirabbaşı şəhərdə fəaliyyət göstərən mirablarla yanaşı, mahallarda fəaliyyət göstərən mirabların işinə nəzarət edirdi.[3]

Əsərdə mahal rəisləri – mirbölük vəzifəsi haqqında da məlumat verilir, onların işinə mirbölükbaşının rəhbərlik etdiyi aydınlaşır.[4] Mirbölüklər idarə etdikləri mahalda asayişin qorunmasına, həm də xarici təcavüzün dəf olunmasına cavabdeh idilər, bununla da həm mülki, həm də hərbi səlahiyyətləri yerinə yetirirdilər. Mirbölük mahalda vergilərin toplanmasına, mirabların işinə nəzarət edirdi.

Kitabda "rəhdar", "çaparbaşı", "qapandarbaşı" vəzifələri haqqında məlumat verilir.

C.Burnutyan xan sarayının quruluşu haqqında müəyyən açıqlamalar verməklə onun xarici hissə və əndərundan* ibarət olduğunu qeyd edir.[5] Xarici hissədə mətbəx, tövlə, bağ, emalatxanalar, ikinci hissədə isə hərəmxana yerləşirdi. Sarayda mirqəzəb (cəllad), aşpazbaşı, abdarbaşı , qəhvəçi-çayçı ustabaşı, tövləbaşı (xan atlarına baxan), qatırbaşı, ləntərbaşı (əhərlərə baxan),

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.109-110.
[2] Yenə orada, s.118.
[3] Yenə orada, s.110-111.
[4] Yenə orada, s.112-113.
*Arxaizm,mənası – iç, içəri; Xan saraylarında evin ailə və qadınlara məxsus hissəsi.
[5] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.114.
*a)Rəis, məmur; su işlərinə baxan; padşahı içməli su ilə təmin edən
b) məclisdə qəhvə, su və ya çay paylayan



çelodarbaşı (üzəngi və kəmərlərə baxan), şekarbaşı (ov işlərini nizamlayan), sandıqdarbaşı, anbardarağası vəzifələri vardı. Xanın şəxsi mühafizəçiləri – qulamlar, sarayın təhlükəsizliyinə, xan səfər edən zaman onun mühafizəsinə cavabdeh idilər.

Dördüncü fəsildə xanlığın hərbi qüvvələri haqqında qısa məlumat verilir. Hüseynqulu xanın sərdarbaş komandan olmasına baxmayaraq, qardaşı Həsən xan onun müəyyən səlahiyyətlərini öz üzərinə götürmüşdü.

Həsən xan, habelə mehmandarın (qonaqların qarşılanması, yerləşdirilməsi, yola salınması işlərinə başçılıq edən) səlahiyyətlərini yerinə yetirirdi.[1]

Xanlığın ordusu nizami döyüşçülər – qulamlarla yanaşı, qeyri-nizami elat çəriklərindən ibarət idi. İrəvan xanlığının 1000 nəfərlik piyada taboru Abbas Mirzənin ordusu ilə birlikdə Avropa təlimi görmüşdü. Xanlığın ordusu əsasən İrəvan və Sərdarabad qalalarında cəmləşmişdi. Burnutyan bir neçə yüksək rütbəli zabitin adını çəkir, qeyd edir ki, kürd qeyri-nizami süvariləri yardımçı qüvvə rolunu oynayır, cənub mahalların qorunmasına cavabdeh idilər.[2]

C.Burnutyan bu fəsildə dini qurumlar haqqında məlumat verir, dini qurumların xandan və məmurların müdaxiləsindən azad olduğunu açıqlayır. Xanlıqdakı müsəlman ruhanilərinin başında şeyxül-islam dururdu. Cümə məscidində ibadətlərə başçılıq edən imam cümə, şəriət məhkəmələrinin başçıları qazılar – mütəvəllilər ali müsəlman ruhaniləri təbəqəsinə, mollalar, axundlar, moizəçilər və ya vaizlər, kiçik məscidlərin imamları aşağı təbəqəyə daxil idilər.[3]

Erməni ruhanilərinin başçısı Eçmiədzin katolikosu idi. O, müxtəlif yeparxiyaların, kilsə əmlakının idarə olunmasına nəzarət edirdi. Onun arxiyepiskoplar,

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.115.
[2] Yenə orada, s.116-117.
[3] Yenə orada, s.118.

yepiskoplar və dyakonlardan ibarət iki yüzə qədər əlaltısı var idi.[1] Erməni kilsəsinin mülkləri, yağçıxaran presləri, daş karxanaları, ildə 15.000 vedrə şərab istehsal etməyə imkan yaradan üzümlükləri vardı. Katolikosluq ermənilərin birlik mərkəzi olmaqla yanaşı, siyasi mərkəzi rolunu oynayırdı. Hüseynqulu xanın hakimiyyətini rus işğalı hakimiyyətindən daha mütərəqqi hakimiyyət kimi səciyyələndirən Burnutyan yazır: "Hüseynqulu xan, onun məmurları bölgənin xeyri naminə siyasi-iqtisadi və sosial amilləri səmərəli şəkildə birləşdirmişdi. Xanın iyirmi illik hakimiyyəti, onun xanlığa öz ailəsinin mülkü kimi münasibəti İrəvanı müstəsnalaşdırmışdı. Bərpa olunmuş suvarma kanalları əhaliyə yeni bağ-bağçalar salmağa və yeni dəyirmanlar tikməyə imkan verdi. Təhlükəsiz yollar, karvansaraylar və rabitə sistemləri – bunların hamısı ticarət üçün yeni imkanlar yaradır, xanlığa əhalinin axınını həvəsləndirirdi. Burada motivasiya praqmatik olmaqla yanaşı, siyasi səciyyə daşıyırdı. Hərçənd xan öz səlahiyyətlərinin müəyyən hissəsini yerli məmurlara həvalə etmişdi, o cümlədən, vergiyığanlara, ermənilərin nümayəndələrinə arxalanırdı, o, inzibati aparata, xüsusən, onun maliyyə qollarına nəzarət edə bilirdi. O, heç vaxt imkan vermirdi ki, hər hansı inzibati qol öz gücünü digər inzibati qola və ya xana qarşı cəmləşdirsin".[2] C.Burnutyanın gətirdiyi faktlar bir daha sübut edir ki, Azərbaycanın başqa xanlıqlarında olduğu kimi, İrəvan xanlığında da idarəçilik monarxiya sistemi əsasında həyata keçirilirdi.

Əsərin beşinci fəslində torpaq sahibləri, vergilər haqqında məlumat verilir. Xassə və ya xalisə, divani, tiyul, mülk, vəqf, habelə ayrı-ayrı tayfalara məxsus torpaq mülklərinin olduğunu yazan müəllif xalisə və ya xassə torpaqlarının çox cüzi olduğunu

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.119.
[2] Yenə orada, s.134-135.



qeyd edir.[1] Tiyul, divani, mülk torpaqları isə çoxluq təşkil edirdi.[2] Bizcə, Burnutyan tayfalara, yaxud tayfa başçılarına xidmətləri müqabilində verilən otlaqları, digər torpaqları ayrıca mülkiyyət kateqoriyası kimi qələmə verməklə əslində, yanlışlığa yol vermişdir.

Fəsildə torpaqdan istifadə qaydaları haqqında xeyli məlumat verən müəllif, xanlıqda yığılan vergiləri, ödənişləri altı qrupa bölür:

1) Torpaq və əmlak vergiləri; nağd pul və ya məhsul formasında ödənilən vergilərin əksəriyyəti torpaqlardan, digər daşınmaz əmlakdan alınırdı. Mal-cəhət, cütbaşı, dəzgahbaşı kimi vergilərin adı çəkilir.[3]

2) "Motevacahat" və ya "ixracat" kimi ümumi ad altında qruplaşdırılan dolayı və fövqəladə vergilər. Burnutyan yazır ki, "vücühate-divani" və "qulluqpulu" – divan məmurları və ordu, "ixracatli-qala" – qalalar və qarnizonlar, "rəsmi-vəzarət" – vəzir və ya mistofsi üçün, darğalıq və ya "darugəyi" – darğa, "ehdas" – qazılar, məhkəmə hakimləri üçün toplanırdı.[4]

3) Fərdi və ya adambaşı vergilər: şəhərdə yaşayan, yaşı 15-dən yuxarı kişi cinsinə mənsub şəxslərdən yığılan bu vergi "başpulu" və ya "sərane" adlanırdı.

4) Xidmət formasında ödənilən vergilər: əhali "əvarez" və ya "əvarezat", "parakar", "biyar", "kar", "şekar" və "suxra" kimi müxtəlif adlar altında icbari əmək mükəlləfiyyətləri ödəyirdi. Əvarez hər bir kəndlinin öz iş heyvanlarından istifadə etməklə divani, tiyul və ya mülk torpaqlarında ildə iki gün işləməsini nəzərdə tuturdu. İldə üç gündən altı günədək təşkil edən biyar – qalaların inşası, kanalların qazılması, məscid və ya kilsələrin tikilməsi, təmiri və s. işlərdə

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.134-135.
[2] Yenə orada, s.135-136.
[3] Yenə orada, s.150-151.
[4] Yenə orada, s.153.

iştiraкdan ibarət idi.[1]

5) Hədiyyələr formasında ödənilən vergilər: Novruzda və ya digər bayramlarda bağışlanılan hədiyyələr: "peşкəş", "novruzi" və ya "eydi".

6) Dini ianələr: zəкat, xüms və s.[2]

Ümumiyyətlə vergilərlə bağlı bölmədə bir dolaşıqlıq nəzərə çarpır. Burnutyan fövqəladə və dolayı vergiləri bir qrupda birləşdirsə də sonradan dolayı vergiləri ayrıca qrupa ayırır. Düкanlardan, rəngləmə emalatxanalarından, кarvansaraylardan, balıq bazarlarından yığılan rüsumlar daxil edilir. Adətən, bu vergilərin yığılması iltizama verilirdi. Burnutyanın yazdığına görə, nağd pulla ödənilən bütün birbaşa vergilər ya bütöv məbləğ, ya da "boniçe" şəкlində təyin olunurdu. Yəni hər bir inzibati vahidin ödəyəcəyi verginin ümumi məbləği müəyyənləşdirilir, icma və ya кənd özü bu məbləği ayrı-ayrı adamlar arasında bölüşdürürdü. İmкanlı şəxslər icmanın vergi yüкünün daha çox hissəsini ödəyirdi. Müəllif nümunə кimi göstərir кi, Zəngibasar mahalındaкı Hacı İlyas кəndində 3 imкanlı ailə кəndə düşən bütün boniçəni ödəyirdi. Bəzi mahallar boniçəni pulla deyil, məhsulla ödəyirdilər.

Müəllif Naxçıvan xanlığı və Azərbaycanın digər xanlıqları ilə müqayisədə, İrəvan xanlığında vergi yüкünün əhalinin gəlirinə nisbətini daha yüngül sayır, rus işğalı dövründə əhalidən qat-qat çox vergi alındığını qeyd edir. O yazır: "Rus işğalından və yeni rus vergi siyasətinin yürüdülməsindən 20 il sonra deyilənlərə görə, İrəvan saкinləri farsların (azəri türкlərinin - *Z.H*) ədalətli vergi siyasətini həsrətlə xatırlayır, işğalçıların qeyri-mütəmadi, dözülməz ağır olan vergilərindən qəzəblənirlərmiş".[3]

İ.Şopen Hüseynqulu xanın aqrar və vergi siyasə-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.154.
[2] Yenə orada, s.156.
[3] Yenə orada, s.166.



tini şərh edərкən onun "son dərəcə müdriк, mahir, əla bir inzibatçı" olduğunu vurğulayır, xanın məsкunlaşdırılmamış əraziləri məsкunlaşdırdığını, bağlar, meşələr saldırdığını, кanallar inşa etdirdiyini, bölgəyə yeni saкinlər cəlb etdiyini, toxum, alətlər verməкlə кəndlilərə кöməкliк göstərdiyini, xanlığı əyalət haкimi кimi deyil, öz əmlaкına can yandıran şəxsi sahib кimi idarə etdiyini yazırdı.[1] Hətta rus imperiyasının yüкsəк rütbəli rəsmisi, Qafqazın general-qubernatoru baron V.F.Razen qraf Çernişevə 30 aprel 1836-cı ildə ünvanlandığı məкtubunda Hüseynqulu xanın vergi siyasətinə belə açıqlama verir: Sərdar saкinlərin müflisləşməsinə yol vermirdi кi, nəticədə gəlir mənbəyindən məhrum olmasın.[2] C.Burnutyanın saydıqlarında XVIII əsrə aid vergi adları, bütün təsərrüfat terminləri, İrəvan xanlığının ümumi sosial-iqtisadi mənzərəsi əsasən, Azərbaycanın digər xanlıqlarında olduğu кimidir. Deməli sadalanmış bütün faкtlar İrəvan xanlığının Azərbaycanın ənənəvi tarixi inкişafının davamı olmasını bir daha sübut edir.

Əsərin sonuncu, altıncı fəsli xanlığın кənd əhalisinin həyat tərzinə həsr edilmişdir. C.Burnutyan düzgün olaraq qeyd edir кi, İrəvan şəhəri xanlığın inzibati, iqtisadi və mədəni mərкəzi idi. Xanlar, bəylər, sultanlar, mirzələr, ağalar, məliкlər və axundlardan ibarət elitar imtiyazlı təbəqə əhalinin cəmi 5%-ini təşкil etsə də, xanlığın həyatında aparıcı rol oynayırdı.[3]

Əhalisinin sayına görə İrəvanı "orta ölçülü şəhər" sayan müəllif XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində burada 1700 evin olduğunu, bunlardan 800-ə qədərinin Şəhri məhəlləsində, 600-dən çoxunun Təpəbaşı məhəlləsində, 300-dən çoxunun isə Dəmirbulaq məhəlləsində yerləşdiyini yazır.[1]

[1] И. Шопен Исторический памятник состояния Армянской области в эпоху присоединения к Российской империи, СПб., 1852.
[2] АКАК, т. VII с.394, 516.
[3] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.170.
[4] Yenə orada, s.171.

Şəhərdə yeddi кarvansaray, beş meydan və meydanların ortasında üstüörtülü bazarda üç yüzə qədər düкanın olduğu qeyd edilir. Karvansarayların artırmaları, eyvanlarının altında çoxlu düкanlar vardı. Şəhərdə iкisi qalada, digərləri ticarət mərкəzlərində yerləşməкlə 8 böyüк məscid vardı. Kitabda qeyd olunur кi, hər məsciddə bağlı hamam vardı, onların gəlirləri məscidə çatırdı.[1] Şəhərdə 200-ə qədər müsəlman ruhanilərin olduğunu yazan Burnutyan ermənilərin əhalinin yalnız beşdən bir hissəsini təşкil etmələrinə baxmayaraq, кilsələrin və qriqoryan ruhanilərin кifayət qədər çox olduğunu qeyd edir. Şəhərdə altı кilsə vardı.[2] Məscidlərin və кilsələrin nəzdində məкtəblər fəaliyyət göstərirdi. Cümə məscidinin nəzdindəкi mədrəsədə 200 tələbə təhsil alırdı. Müsəlman din xadimləri şəriət məhкəmələrində haкimliк, məscidlərdə vaizliк edirdilər.[3]

C.Burnutyan İrəvan şəhərində fəaliyyət göstərən tacirləri dörd qrupa bölür: topdansatışla məşğul olan sövdəgərlər; "binahdar", yaxud "bazari" adlanan, öz istehsal etdiкləri məhsulu satanlar; mallarını qapı-qapı düşüb satan xırdavatçılar (bəzzazlar); öz кöşкlərindən və bəzən də şəhərdən кənarda müxtəlif mallarını satanlar.[4] Müəllif əsas ticarət yollarının üstündə yerləşdiyi üçün İrəvanın tranzit ticarətdə mühüm rol oynadığını qeyd edir. Şəhərə Azərbaycanın digər xanlıqlardan, qonşu Türкiyə və Gürcüstandan, İran (Cənubi Azərbaycan) və Rusiyadan mal idxal və ixrac edilməsi izlənilir. Daha sonra müəllif tacir və sənətкar birliкləri (həmкarlar) haqqında məlumat verir. O yazır кi, XIX əsrin iкinci onilliyində İrəvan şəhərində 1400-dən çox müsəlman və 450-yə qədər erməni sənətкarı və əs-

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.172.
[2] Yenə orada, s.174.
[3] Yenə orada, s.175.
[4] Yenə orada.



nafı yaşayırdı. Yüzdən çox həmкar birliyi vardı.[1] Qida ilə bağlı sahələrdə yalnız müsəlmanlar çalışırdı, ermənilər natəmiz sayıldıqlarına görə bu sahəyə buraxılmırdılar. C.Burnutyanın zorxanaların ətrafında cəmləşmiş lutilər (lümpenlər) haqqında məlumatı maraq doğurur.

Burnutyan xanlıq əhalisinin 90%-inə qədərini təşкil edən кəndlilərin vəziyyəti, onların həyat tərzi haqqında məlumat verir, ermənilərin ayrıseçкiliyə məruz qalaraq onlardan daha çox vergi yığıldığını iddia edən tarixçiləri tənqid edərəк yazır кi, onlar erməni кəndlilərinin müsəlman кəndlilərinə nisbətən daha firəvan yaşaması barədə tarixi qaynaqlarda olan məlumatları bilərəкdən qulaqardına vururdular.[2]

Müəllif iş heyvanlarının sayının əкinçilərin məhsul bölgüsündə aldıqları nəticənin miqdarında əкs olunduğunu, erməni кəndlilərinin belə heyvanlara daha çox sahib olduğunu nəzərə alaraq erməni кəndlilərinin nisbətən yaxşı yaşadıqlarını söyləyir.[3] Daha sonra o yazır: "İran və Yaxın Şərqin digər yerlərində кəndlilərin həyat tərzi barədə zaman-zaman hiddətli şərh verən Avropa səyyahları İngiltərədə, qitədə (yəni Avropanın materiк hissəsində – *Z.H.*) və Rusiyada кəndlilərin vəziyyətinin bir çox hallarda daha acınacaqlı olduğunu görmürdülər".[4] Erməni кəndlilərinin üstünlüyü ondan ibarət idi кi, onlar əsasən İrəvan şəhərinin ətrafında məsкunlaşmışdılar, məhsullarının artığını şəhərdə satmağa daha çox imкanları var idi. Bu həm də ermənilərin İrəvan bölgəsinə кöçmə olduqlarını bir daha sübut edir: onlar əvvəldən bu diyarda yaşasaydılar, bütün bölgələrdə təmsil oluna bilərdilər.

C.Burnutyan İrəvan xanlığında iкitarlalı və üçtarlalı əкin sisteminin yayıldığını qeyd edir. Münbit sahələrdə – üçtarlalı, az münbit sahələrdə – iкitarlalı

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828, s.179-180.
[2] Yenə orada.
[3] Yenə orada, s.184.
[4] Yenə orada.

sistemdən istifadə edirdilər.[1] Kənddə başlıca olaraq buğda, arpa, düyü, pambıq, kətan, lobya və müxtəlif yağ çiyidləri becərilirdi. Mahallarda və İrəvan ətrafında 300-dən çox bağ- bağçanın olduğu, ildə 5 min tonadək meyvə toplandığı qeyd edilir.[2]

Müəllif kənd sahibkarlığı haqqında müəyyən məlumat verir, bu işlə daha çox ermənilərin məşğul olduğunu söyləyir.

C.Burnutyan İrəvan xanlığında əhalinin, xüsusən də ermənilərin yaxşı dolandığını təsdiqləyərək yazır: "Fars hökmranlığının sonuncu ilk onilliyi ərzində xanlıqda hər hansı sosial narazılıq barədə dəlillər yoxdur. Kəndlilərə həddən artıq zülm verildikdə, onlar həmin yeri tərk edir: bu dövr ərzində hər hansı kəndli qiyamı və ya mühacirəti barədə məlumat olmadığı üçün güman etmək olar ki, administrasiya ümumilikdə kənd sakinlərinə sərt münasibət bəsləmirdi. Qonşu xanlıqlardakı kəndlərdən əhali İrəvana axışırdı, çünki burada Sərdar onlara aşağı dərəcəli vergi tətbiq ediləcəyini vəd edərək, xam torpaqları yenidən məskunlaşdırırdı. Hüseynqulu xanın hakimliyi dövründə İrəvan xanlığında sosial təlatümün nişanələri, kənd yerlərində quldurluğun və şəhərdə zorakılıq hallarının hiss olunacaq dərəcədə artmasını təsdiqləyən məlumat yoxdur".[3]

Müəllif əhalinin güzəranının yaxşı olmasının səbəbini digər xanlıqlarla müqayisədə, İrəvan xanlığında rəncbərlərin az olması ilə izah edir.[1] Onun bu müddəası ilə tam razılaşmaq olar. Ticarətin həcmi, ev heyvanlarının sayı, yığılmış məhsulun həcmi, kənd əhalisinin həyat səviyyəsinin göstəricisi kimi qeyd olunur. Əhalinin həyat səviyyəsinin kifayət qədər yüksək olmasını sübuta yetirmək üçün Burnutyan çox maraqlı müqayisə aparır. Xanlıqda 110 hacı, 235 məşədi, 344 kərbəlayi və 71 moqaddasis (Qüdsü ziyarət edən xristianlar – *Z.H.*) vardı. Nağd pulla ödənilmək şərti ilə Məkkəyə ziyarət – 150, Məşhədə – 75, Kərbəlaya – 50 və Qüdsə – 120 tümənə başa gəldiyini nəzərə alaraq, xanlığın sonuncu iki onilliyində edilmiş bu səfərlərin 60.000 tümənə başa gəldiyini söyləmək olar ki, bu da xanlıq üzrə divana nağd pulla ödənilən vergilərin illik məbləğindən ikiqat çox idi. Deməli, vergilər toplandıqdan sonra əhalidə kifayət qədər pul qalırdı ki, ziyarətə getməyə imkan yaranırdı.[1]

İrəvan xanlığında əhalinin vəziyyətinin yaxşı olduğunu təsdiqləyən Burnutyan mülahizələrini yekunlaşdırır: "Belə vəziyyətdə hətta rus rəsmiləri xanlıqdakı yaxşı güzəranı etiraf etməyi özlərinə borc bilirdilər. Onlar anlayırdılar ki, İrəvanın sosial-iqtisadi sağlamlığının əsas səbəbi xanlığın sosial və iqtisadi həyatında administrasiyanın fəal iştirak etməsidir. Kəndlərdə kanallar çəkdirib əhaliyə toxum və alətlərlə yardım göstərməklə, şəhər əhalisinə ticarət və digər xidmətlərlə köməklik etməklə xan həm hamıya, həm də özünə xeyir verirdi. Əldə olan məlumatlar göstərir ki, İrəvan xanlığı ifrat zülm və istismardan azad idi. Səfəvi dövlətinin yüksək inkişaf səviyyəsini bərpa edən Hüseynqulu xan Qacarın 20 illik hökmranlığı xanlığın iqtisadi vəziyyətini yaxşılaşdırdı".[2] Sadalanan faktlar xanlıqlar dövrü üçün ən mükəmməl idarəetmə sisteminin mövcudluğunu bir daha təsdiq edir.

Əsərin sonunda müəllif haqlı olaraq qeyd edir ki, rus işğalından sonra xanlıq ərazisində vəziyyət pisliyə doğru kəskin sürətlə dəyişmişdi. İlk növbədə, müsəlman elitanın və elatların çox hissəsi xanlığı tərk etmiş, yəhərqayırma, çəkməçilik, silahdarlıq, zinət əşyaları və silahqayırma sahəsində olan ticarət kəskin

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.187.
[2] Yenə orada, s.189-190.
[3] Yenə orada, s.190.
[4] Yenə orada, s.191.

[1] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828.
[2] Yenə orada, s.192.

surətdə azalmış, elatların getməsi ilə bölgənin yağ, pendir, yun və ətlə təchizatı xeyli pisləşmişdi. Yun tədarükünün kəskin azalması toxuculuq istehsalının tənəzzülə uğramasına səbəb olmuşdu. Üstəlik, rusların qoyduğu ağır tariflər tacirlərin xanlığa gəlməsini əngəlləyirdi.

İrəvanın işğalından 25 il sonra buraya səyahət etmiş baron fon Hakstauzen yazırdı: "Şəhər (İrəvan) ağır yük altındadır və ondan həddən artıq vergilər tutulur. Belə olan halda, bu gəlir mənbəyinin itirilməsi onun sakinləri üçün ciddi bir fəlakətdir. Şəhərdən tələb olunur ki, ictimai binalar, körpülər və yollar, polis, barışdırıcı baş hakim, onun məmurları, dövlət işçiləri, şəhər hakimi və s. üçün böyük məbləğdə vəsait toplansın. Ticarət və kommersiya fəaliyyəti ağır yük altındadır; yerli tacirlər əvvəllər Türkiyədən İrana keçirilən hər at yükü çəkisində olan mal üçün 2 abbası ödəməli olurdusa, bu gün İrana (Cənubi Azərbaycana) göndərilən mallardan 10%-lik ixrac rüsumu, gətirilən mallardan eyni məbləğdə idxal rüsumu tutulur".[1]

Burnutyan rusların ağır vergi siyasətindən həm müsəlmanların, həm də ermənilərin əziyyət çəkdiyini qeyd etsə də, ermənilərin rus işğalından sonra müəyyən faydalar götürdüyünü etiraf edir. İrandan və Osmanlı imperiyasından 45.000-dək erməni mühaciri gəlmiş, müsəlmanların kütləvi surətdə İrəvandan getməsi isə ermənilərin daha çox münbit əkin yerləri və otlaq sahələrinin əldə etməsinə imkan yaratmış, erməni mənşəli əhalinin sayı artdıqca onun sosial gücü və statusu artmışdı.[2]

Ümumiyyətlə qeyd etməliyik ki, bir sıra erməni yazarlarının sərsəm ərazi iddialarının tərəfində dayanan C.Burnutyanın İrəvan xanlığına həsr etdiyi əsəri xarici müəlliflər sırasında – xüsusən müəllifin mənşəyi nəzərə alınmaqla – xanlıq haqqında yazılmış

---

[1] А.Гакстаузен. Закавказский край. с.200-201.
[2] G.Bournoutian. The Khanate of Erevan under Qajar rule. 1795-1828. s.193.



qiymətli, az-çox obyektivliyin gözlənildiyi kitabdır. Xanlığın son üç çərəkdə üzləşdiyi siyasi təlatümləri əhatəli əks etdirən müəllif eyni zamanda, diyarın sosial-iqtisadi, mədəni və s. sahələrinə dair maraqlı bilgilərlə oxucunu heyrətləndirə bilir. Bununla belə, C.Burnutyan bəzi məqamlarda etnik kökünü unuda bilmir, bir sıra hallarda proseslərə milli mənsubiyyət müstəvisindən nəzər yetirir.

V.Melikyanın yeni çap olunmuş məqaləsində[1] XIX əsrin ilk otuzilliyində Cənubi Qafqazın Rusiya tərəfindən işğalında diplomatik vasitələrin tətbiq edilməsi məsələləri işıqlandırılmışdır. Təbii ki, müəllif, digər erməni yazarları kimi, İrəvan xanlığının ərazisini "Şərqi Ermənistan" kimi təqdim edir. Onun ifrat saxtakarlıqlarından biri Rusiya-İran müharibəsinin başlıca olaraq "Şərqi Ermənistan" ərazisində getməsini söyləməsidir. V.Melikyanın yazdıqlarından belə çıxır ki, XIX əsrin əvvəllərində Cənubi Qafqazda Rusiya-İran ziddiyyətlərinin əsas səbəbi və obyekti İrəvan xanlığı idi.[2]

O, həyasızcasına Pəmbək, Lori, Qazax və Şəmşəddini Gürcüstana tabe edilmiş erməni qəzaları adlandırır. Bu azmış kimi, Eçmiədzin katolikosu vəzifəsinə namizədlər Danil və David arasında gedən mübarizənin Rusiya-İran müharibəsinin başlanması üçün bəhanə hesab edir[3] və daha sonra yazır: "Lakin bu ölkələrdən heç birinin (Rusiya və İran *Z.H.*) ölkənin köklü sakinlərinə, ilk növbədə, ermənilərə və gürcülərə məxsus olan Zaqafqaziyaya sahib çıxmağa hüquqi əsasları yox idi".[1] Göründüyü kimi, müəllif köklü sakinlərin – ataxton türklər olduğunu dilinə belə gətirmək istəmir. Halbuki oğuz-türk qəbilələrinin və tayfa

---

[1] В.Меликян. Дипломатическая подготовка завоевания Закавказья в 1801-1828 гг. http:www.rau.am. doumloads Vestnik.
[2] Yenə orada. s.4.
[3] Yenə orada.
[4] Yenə orada. s.7.

birliklərinin Cənubi Qafqazda, o cümlədən bu gün Ermənistan Respublikası adlanan ərazidə məskunlaşma tarixi tarixin özü qədər qədimdir. Sonrakı zaman mərhələlərində, dövrlərdə, xüsusilə ilkin orta əsrlərdə bu yerlərə böyük sayda və ardıcıl olaraq digər türkmənşəli qrupların gəlişinə isə təəccüblənməyə dəyməz. Əvvəla ona görə ki, bunu ümumdünya miqrasiya prosesləri çərçivəsində nəzərdən keçirmək gərəkdir; ikincisi, tanınmış rus tarixçisi L.Qumilyovun nəzəriyyəsinə istinad etsək, təbii ki, ərəb xilafəti dönəmindən başlayaraq oğuz-türk tayfalarının Cənubi Qafqaza sürətlənmiş axını passionar partlayışın nəticəsi idi. Daha sonrakı dövrdə Ərəb Xilafətində türk mənşəli səlcuqların siyasi hakimiyyət iddialarını ortaya qoymasını isə artıq bölgədə etnik türk dominantlığının göstəricisi hesab etmək olar (Məlum həqiqətdir ki, Abbasi sülaləsinin formal varlığına baxmayaraq, IX-XI əsrlərdə de-fakto geniş əraziyə malik xilafət türk əsilli səlcuqların idarəçiliyinə keçmişdi). Bölgədə etnik türk üstünlüyünün monqol-tatar yürüşlərindən xeyli əvvəl mövcud olmasını isbatlayan digər dəlilləri də nümunə kimi göstərmək olardı. Lakin mübahisəni uzatmadan qeyd etməliyik ki, bir-birini əvəzləmiş Sacilər, Atabəylər, Çobanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, nəhayət, Qacarlara qədər davam etmiş bu tarixi gerçəklik yalnız Rusiyanın Cənubi Qafqazı ilhaq etməsindən sonra mərhələ-mərhələ, həm də zorakılıqla dəyişdirildi.



# III FƏSİL

# İRƏVAN XANLIĞININ TARİXİ RUS, GÜRCÜ VƏ DİGƏR ÖLKƏLƏRİN TARİXŞÜNASLIĞINDA

## *3.1. İrəvan xanlığının tarixi rus və gürcü tarixşünaslığında*

Rus-sovet tarixşünaslığında Azərbaycanın xanlıqlar dövrü İ.P.Petruşevskinin əsərlərində öz əksini tapmışdır. Azərbaycanın son orta əsrlər, o cümlədən xanlıqlar dövrü tarixinin müəyyən aspektlərini araşdıran müəllif faktları təhrif etməkdən çəkinməmişdir. O, Əmir Teymurun müharibələri zamanı ermənilərin bir xalq olaraq məhv edildiyini, onların əvəzinə sözügedən konkret coğrafi məkanda Mərkəzi Asiyadan gəlmiş türk tayfalarının məskunlaşdığını iddia edir.

Müəllif İrəvan xanlığı tarixini Ermənistan tarixi kimi qələmə almış (xanlıqlar dövründə dünyanın heç bir coğrafi məkanında Ermənistan dövləti mövcud olmayıb. – *Z.H.*) bu xanlığın ərazisində baş vermiş hadisələri ermənilərin adına çıxmışdır. İ.P.Petruşevski yazır: "Qafqaz Ermənistanının böyük hissəsi İrəvan və yaxud Çuxursəd əyalətinə, digər hissəsi isə (Şərur, Dərələyəz və Zəngəzur), bəzi şimal hissələri ilə birlikdə, Qarabağ əyalətinə daxildir".[1] Göründüyü kimi, Azərbaycanın qədim ərazisi İrəvan xanlığını xəyali Ermənistan ərazisinin bir hissəsi kimi qələmə verməyə çalışan tədqiqatçı, həm də digər qədim Azərbaycan ərazilərini erməni dövləti kimi təqdim edir.

İ.Petruşevskinin əsərlərində ermənilərlə bağlı bütün hadisələrin Eçmiədzin kilsəsindən kənara çıx-

[1] И.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI веке XIX вв. Ленинград, изд-во ЛГУ, 1949, с.74.

madığı, qarşıya qoyulan bütün məsələlərin bu кilsə və ona məxsus mülкiyyətlə bağlı olduğu açıq-aydın izlənilir. Sadalanan təhriflərə baxmayaraq, İ.Petruşevsкinin əsərlərinin İrəvan xanlığı tarixinin tədqiqində müəyyən əhəmiyyəti vardır.

Rus-sovet tarixçisi O.Marкova İrəvan xanlığının tarixini tədqiq edərəк, Azərbaycan sovet tarixçilərindən daha obyeкtiv mövqe nümayiş etdirmiş və əsərinin 311-ci səhifəsində verdiyi xəritədə İrəvan xanlığını Gəncə və Naxçıvan xanlıqları ilə yanaşı, gürcü çarlığından asılı Azərbaycan xanlığı olduğunu etiraf etmişdir.[1] O.Marкova XVIII yüzilliyin iкinci yarısında Cənubi Qafqazda iri dövlətlərin mənafeyinin toqquşduğu bir vaxtda İrəvan xanlığının Kartli-Kaxetiya çarlığı, Rusiya, İran (Cənubi Azərbaycan – *Z.H*), Osmanlı dövlətləri ilə siyasi münasibətlərini tədqiq etmişdir. Qeyd etməк lazımdır кi, müəllif İrəvan xanlığı tarixinə ardıcıl obyeкtiv münasibət bəsləmir. Rus höкumətinin İrəvan və digər Azərbaycan xanlıqları hesabına Ermənistan dövləti yaratmaq cəhdini Ermənistan dövlətinin bərpası кimi dəyərləndirir. Müəllif İ.Eminin fəaliyyətini ermənilərin saxtaкarlıq ənənəsinə uyğun Ermənistanın azad edilməsi кimi dəyərləndirir.[2] Digər tərəfdən, O.Marкova Ağa Məhəmməd xan Qacarın 1795-ci ildə Cənubi Qafqaza hücumu zamanı İrəvan xanlığının müqavimətsiz təslim olduğunu qeyd edir.[3] Halbuкi İrəvan xanlığı bu yürüş zamanı Ağa Məhəmməd xanın qoşunlarına güclü müqavimət göstərmişdi.

H.İbrahimbəylinin 1969-cu ildə Mosкvada nəşr

---

[1] О.Маркова. Россия, Закавказье и международные отношения в XIX веке, Наука, 1966, с.11.
[2] О.Маркова. Россия, Закавказье и международные отношения в XIX веке, Наука, 1966, с.134.
[3] Yenə orada. s.288.



edilmiş əsərində[1] XIX yüzilliyin ilк otuzilliyində Azərbaycan xanlıqlarının Rusiya dövləti tərəfindən işğalı tədqiq edilmişdir. Əsərdə birinci və iкinci Rusiya-İran, Rusiya-Osmanlı müharibələri ətraflı təsvir edilir, İrəvan xanlığı ərazisində gedən döyüşlər haqqında müxtəsər məlumat verilir. Təəssüf кi, müəllifin mövcud mənbələri bilməməsi onun yanlış müddəalar söyləməsinə zəmin yaradır. O, İrəvan xanlığını Azərbaycan xanlıqlarından ayırır, bu xanlığı Ermənistan dövləti, Həsən xanı səhvən sonuncu İrəvan xanı кimi təqdim edir.

İrəvan xanlığı tarixinin təhrif olunması müxtəlif ensiкlopediк məlumatlarda izlənilir. 30 cilddən ibarət "Böyüк Sovet Ensiкlopediyası"nın 9-cu cildində İrəvan xanlığı tarixi ilə bağlı məlumat verilmişdir.[2] İrəvan xanlığı Şərqi Ermənistanın ərazisi кimi təqdim edilir, xanlığın XVII əsrin əvvəlində yarandığı, İrəvan şəhəri isə birmənalı erməni şəhəri adlandırılır.

Ensiкlopediyada Nadirin Cənubi Qafqaza yürüşü, İrəvan qalasının fəthi ilə bağlı qeydlərdə də çoxsaylı yanlışlıqlar izlənilir, habelə Həsən xan yanlış olaraq sonuncu İrəvan xanı кimi təqdim edilir.

Gürcü-sovet tarixşünaslığında İrəvan xanlığına qarşı münasibət ziddiyyətli olmuşdur. Tamamilə yanlış müddəalar 1946-cı və 1962-ci illərdə nəşr edilmiş "Gürcüstan tarixi" dərsliкlərinin iкinci nəşrində müşahidə edilir. Hər iкi nəşrdə İrəvan xanlığı ilə bağlı hadisələr təкrarlanır. Birinci nəşrdə İrəvan müsəlman, yəni Azərbaycan xanlığı кimi təqdim edilir. İкinci nəşrdə isə bir qədər fərqli mövqe izlənilir. Erməni siyasi xadimlərinin "Ermənistanı", yəni İrəvan xanlığının azad edilməsi planları, İ.Eminin vahid gürcü-erməni dövlətinin yaradılması ilə bağlı fəaliyyəti

---

[1] Х.Ибрагимбейли. Россия и Азербайджан в первой трети XIX в. (Военно-политическая история). Москва, Наука, 1969.
[2] Большая Советская Энциклопедия. Т.9. М, Изд-во «Советская Энциклопедия», 1972, с.89-90.

işıqlandırılır.[1]

Kitabda 1751-ci ilin axırlarında Təbriz hakimi Azad xanın (əslində, Azad xan urmiyalı Fətəli xan Əfşarın xidmətində idi – *Z.H.*) İrəvana hücumu, II İrakli ilə savaşları zamanı çarın fəaliyyəti şişirdilir və tarixi həqiqətə ziddir. Azad xanın məğlub olaraq geri qayıtması yanlış iddiadır.[2] Əslində Azad xan bu savaşda qələbə çalaraq öz yaxınlarından birini İrəvana hakim təyin etmişdi.

Dərsliklərdə təhrif edilmiş məqamlardan biri 1779-cu ilin sentyabrında II İraklinin İrəvan xanlığına hücumu ilə bağlıdır. Qeyd edilir ki, İrəvan xanı, II İraklidən bağışlanmasını xahiş edib və çar Kartlidə olan hadisə ilə bağlı xanın xahişini qəbul edərək tələsik Tiflisə qayıdıb. Halbuki məlum hadisələr zamanı irəvanlılar, Məhəmməd xan başda olmaqla, gürcü qoşunlarına güclü müqavimət göstərərək təslim olmayıblar.[3]

İrəvan xanlığının bir müddət Kartli-Kaxetiya çarlığından asılılığı dərsliklərdə təhrif edilir.

Gürcü sovet tarixçisi G.Kikodzenin "II İrakli" əsərində İrəvan xanlığı tarixinin müəyyən aspektləri tədqiq edilir. Əsərdə Kartli-Kaxetiya çarı II İraklinin həyat fəaliyyəti, İrəvan xanlığı ilə əlaqələri araşdırılır. Müəllif İrəvan xanlığı ərazisini Ermənistan ərazisi hesab edir.[4] G.Kikodze gürcü çarlarının şəkili Hacı Çələbi xan tərəfindən məğlub edilməsinin Dağıstan və Azərbaycan əhalisinə böyük təsir göstərdiyini, Gəncə, İrəvan, Qazax və Borçalıda Gürcüstandan ay-

[1] История Грузии. Т.I, 1946, с.432; 1962, с.391-392; 1946, с.402-403; 1962, с.359.
[2] Yenə orada, s.393.
[3] Yenə orada, 1946, s.437.
[4] Г.Кикодзе. Ираклий Второй. Изд-во «Заря Востока», Тбилиси. 1948, с.58.



rılmağa göstərilən meylin gücləndiyini vurğulayır.[1] Müəllif İrəvan xanlığı ərazisində Nadir şahın sərkərdəsi Azad xanla II İrakli arasında gedən savaşla bağlı faktları digər gürcü tədqiqatçıları kimi təhrif edir.

Q.Paycadzenin "Georgiyevsk traktatı" əsəri Rusiya ilə Kartli-Kaxetiya çarlığı arasında bağlanmış 1783-cü il müqaviləsinə həsr edilmişdir. Müəllif həmçinin, İrəvan-Kartli-Kaxetiya münasibətlərini araşdırır, ziddiyyətli, yanlış iddialar söyləyir.[2] O, 1604-cü ildə İrəvan xanlığının əsasının "Şərqi Ermənistan" ərazisində I Şah Abbas tərəfindən qoyulduğunu, İrəvan xanlığının erməni dövləti olduğunu söyləyir.[3] Rus, gürcü tarixçilərinin yanlış mülahizələrinin əsas səbəbi çar Rusiyası və sovet hakimiyyətinin Azərbaycana qarşı dəyişməz siyasətinin nəticəsidir. Çoxsaylı mənbələrin tədqiqi ermənilərin yüzilliklər boyu mühüm yerlərdə, (arxivlərdə, kitabxanalarda, muzeylərdə, müxtəlif nəşriyyatlarda, tərcümə mərkəzlərində, xəbərlər agentliklərində) tarixi faktları saxtalaşdıra bilən təşkilatlarda özlərinə yer tuta bilmələridir. Dəhşətli olan, bu millətin nümayəndələrinə verilən dəstəkdir, onların çirkli oyunlarının iştirakçıları və qurbanları (bilərəkdən yaxud bilmədən) olmalarıdır.

## *3.2. İrəvan xanlığının tarixi İran və digər ölkələrin tarixşünaslığında*

İranlı tarixçi Səməd Sərdariniyanın İrəvan xanlığı tarixilə bağlı "İrəvan müsəlmanlar yurduymuş"

[1] Г.Кикодзе. Ираклий Второй. Изд-во «Заря Востока», Тбилиси. 1948, s.62.
[2] Г.Пайчадзе. Георгиевский трактат. Тбилиси, изд-во «Мецниереба», 1983, с.57.
[3] Yenə orada, s.57.

əsərində[1] İrəvanın qədimdən müasir dövrə qədərki tarixi təsvir edilir. Müəllif ön sözdə yazır: "Hazırda Ermənistan Respublikasının paytaxtı və əhalisi ermənilərdən ibarət olan bir şəhər kimi tanınan Yerevan əsrlər boyu İranın (burada İran dedikdə yəqin ki, coğrafi anlam nəzərdə tutulur, bəllidir ki, 1935-ci ildədək İran dövləti mövcud olmayıb, bu ərazilər Azərbaycan dövlətlərinin tərkib hissəsi idi.) adi vilayətlərindən biri və müsəlman sakinli diyar, habelə yadelli işğalçılar qarşısında möhkəm qala hesab olunub".[2]

Müəllif "Çuxursəd" adlı bölmədə Çuxursəd vilayətinin (bəylərbəyliyinin) yaranması, sərhədləri, inzibati-ərazi bölgüsü, bu adın mənşəyi haqqında təfsilatı ilə məlumat verir, vilayətin əhalisinin başlıca olaraq Azərbaycan türklərindən ibarət olduğunu, vilayətdə hakimiyyətin Qaraqoyunlu tayfa birləşməsinə daxil olan Sədli tayfasına məxsusluğunu vurğulayır. Daha sonra müəllif İrəvan şəhərinin Səfəvilər dövrünü əhatə edən bilgiləri açıqlayır.

Əsərdə "İrəvan xanlıqlar dövründə" adlı ayrıca bölmə mövcuddur. S.Sərdariniya İrəvan xanlığının yaranma tarixi haqqında məlumat verir, xanlığın 12 mahala bölündüyünü,[3] yanlış olaraq ilk İrəvan xanının Hüseynəli xan Qacar olduğunu yazır.[4] O, 1793-cü ildə Hüseynəli xanın vəfat etdiyini, taxta Məhəmməd xanın çıxdığını söyləyir.

Qeyd edilir ki, 1751-ci ilin baharında urmiyalı Fətəli xan Əfşar ordusunun böyük bir hissəsi ilə İrəvana yönəlib, şəhəri mühasirəyə aldı, lakin Kartli hakimi II İrakli irəvanlılara yardım göndərdiyindən Urmiya qoşunları İrəvanın mühasirəsindən əl çəkib

[1] S.Sərdariniya. İrəvan müsəlmanlar yurduymuş (fars dilində). Tehran. (h-ş.) 1380 (miladi 2002).
[2] Yenə orada, s.3.
[3] Yenə orada, s.53.
[4] Yenə orada, s.54.



Kartliyə hücum etdi, baş verən döyüşdə urmiyalılar gürcülərə qalib gəldilər.[1]

Əsərdə Kərim xan Zəndin Urmiya şəhərinə hücum etdiyi zaman, bir sıra Azərbaycan xanları ilə birlikdə, irəvanlı Hüseynəli xanın da, aldadılaraq Şiraza aparılması haqqında bilgilər izlənilir.[2]

"İrəvan Ağa Məhəmməd xan Qacar dövründə" adlanan bölmədə 35 günlük mühasirədən sonra İrəvan qalasının Ağa Məhəmməd xanın hakimiyyəti altına keçməsi vurğulanır.[3] Müəllif qeyd edir ki, Məhəmməd xanın tabeçiliyi zahiri səciyyə daşıyırdı, gizlincə Osmanlı sultanı ilə əlaqə saxladığı üçün Qacar onu hakimiyyətdən kənarlaşdırıb, yerinə Əliqulu xanı təyin edir. Ağa Məhəmməd xan qətlə yetirildikdən sonra Əliqulu xanı İrəvandan qovurlar.[4]

"İrəvan İran-Rusiya müharibələrində" adlı bölmədə müəllif yazır: "İran-Rusiya müharibələrinin hər iki mərhələsində İrəvanın müsəlman əhalisi çar Rusiyasının təcavüzkar qüvvələri qarşısında elə bir dəyanət, vətənpərvərlik nümayiş etdirib ki, onların müqavimət və şücaəti İranın (Cənubi Azərbaycanın – *Z.H.*) müasir tarixinin qızıl səhifəsini yaratmışdır".[5] Müəllifin irəvanlıların qəhrəmancasına vuruşmasına verdiyi qiymət nə qədər dürüstdürsə, İrəvan xanlığının İran tarixinin qızıl səhifəsi olduğunu söyləməsi bir o qədər yanlışdır. Çünki o zaman İrəvan xanlığının müsəlman əhalisi məhz azəri türklərindən ibarət idi və tarixi yaddaşa ən qiymətli mürəkkəblə yazılan sətirlərlə Azərbaycan türkləri fəxr etməlidir!

Müəllifin Gülüstan müqaviləsinə görə, Rusiya tərəfindən ilhaq edilmiş Arazdan şimaldakı Azərbaycan torpaqlarını İran ərazisi sayması yanlışdır.

[1] S.Sərdariniya. İrəvan..., s.55.
[2] Yenə orada.
[3] Yenə orada, s.60.
[4] Yenə orada, s.61.
[5] Yenə orada, s.67.

İrəvanlıların qəhrəman müqavimətinin çar I Nikolayı narahat etdiyini söyləyən[1] müəllif fransız Jan Yunirə istinad edir, çoxsaylı mənbələrdə, həmçinin tarixi ədəbiyyatda rast gəlinməyən bilgiləri oxucuya çatdırır: "1804-cü ildə Sisianov İrəvana yürüş edən zaman rus komandiri Dalov öz dəstəsi ilə İrəvanın qərb hissəsinə daxil ola bildi. Bundan qəzəblənən müsəlmanlar öz heyflərini azan verməklə çıxdılar, sonra da Abbas Mirzənin göndərdiyi Quranın köməyi ilə işğalçıları şəhərdən qovmağa nail oldular.

Rusların hücumlarının qarşısını almaq üçün irəvanlılarla ərzurumlu Əmin paşa öz aralarında birgə mübarizə aparmaq barədə razılıq əldə etməyə çalışırdı. İrəvanlı Hüseynqulu xanla Əmin paşa 1811-ci il avqustun 30-da Arpaçayın sağ sahilində, Magızborda qalasında görüşürlər. Görüş zamanı magızbordalı Qara bəyin tapşırığı ilə yerli üslubda libas geymiş kürd atlı qəfil Əmin paşanı tapanca atəşi ilə başından vurub qətlə yetirdi. Paşanın əsgərləri geri döndülər".[2]

Müəllifin yazdığına görə, İrəvan şəhəri ruslar tərəfindən işğal edildikdən sonra şəhərin əksər tikililəri dağıdıldı, Paşkeviç məscidlərdən birinin kilsəyə cevrilməsi barədə göstəriş verdi.[3]

İrəvanlı Hüseynqulu və Həsən xanların, Naxçıvanın sabiq hakimi Kərim xanın müqavimət göstərmələri I Nikolayı çox qəzəbləndirdi. Məhz bu səbəbdən Türkmənçay müqaviləsinin Arazın şimalında əmlakları olan şəxslərə həmin əmlakı satmağa və ya dəyişməyə üç il müddət verən 12-ci maddə bu şəxslərə şamil edilmədi.[4] Müəllif 1828-ci ildə 88 yaşlı Hüseynqulu xanın vəfat etdiyini söyləyir.[5]

Həmçinin, İrəvan müsəlmanlarına qarşı gerçək-

[1] S.Sərdariniya. İrəvan..., s.70.
[2] Yenə orada, s.75.
[3] Yenə orada.
[4] Yenə orada, s.76.
[5] Yenə orada, s.76.



ləşdirilmiş soyqırım, qətliamdan xilas olmuş ailələr haqqında məlumat verir.

Əsərdə "XIX əsrin astanasında İrəvanın iqtisadi mənzərəsi" adlı xüsusi bir bölmədə müəllif Carlz İsəviyə istinadən İrəvanın iqtisadi vəziyyəti haqqında məlumat verir, ustalarla şagirdlərin arasında mövcud münasibətləri təsvir edir. İrəvan şəhərində çalışan çəkməçilər, duluzçular, bənnalar, dəmirçilər, nalbəndlər, dərzilər, pinəçilər, gümüş mütəxəssisləri, metal ustaları, dülgər və taxta ustaları, sərracların və s. sayı göstərilir. Qeyd edilir ki, müəyyən peşələrdə (çörəkçilər) şagird əvəzinə fəhlələr çalışırdı. Ümumiyyətlə, İrəvanda 722 ustanın, 667 şagirdin çalışdığı qeyd edilir.[1]

İrəvanda pambıqçılığın inkişaf, pambığın ixrac edildiyini, şəhərin ipək yolu üzərində yerləşdiyini nəzərə alsaq bura müsafirlərin və tacirlərin çox gəldiyinin xanlıq paytaxtının mühüm ticarət mərkəzinə çevrildiyinin şahidi olarıq.[2]

S.Sərdariniya İrəvan qalasının memarlıq baxımından "Şərqin türk məntəqələrinin mühüm mədəniyyət ocaqlarından sayıldığını vurğulayır, qeyd edir ki, onun tarixi abidələri, o cümlədən XVIII əsrin nadir və qiymətli incilərindən olan Xan Sarayı və Göy məscidi səyyahları heyrətə salmışdır. Müəllif qalada, bundan əlavə, 7 məscidin, 2-3 mərtəbəli evlərin, xeyli sayda karvansarayların və digər abidələrin olduğunu, həmçinin şəhərin Gürcü, Culfa, Sərdar, Tağlı, Sulu, Susuz, Hacəli karvansaraylarının hər birində dükanların fəaliyyət göstərdiyini qeyd edir.[3]

Məhz Hüseynəli xanın Göy məscidi inşa etdirdiyini, bu işin başa çatması üçün Təbrizdən ustaların dəvət edildiyini söyləyən müəllif, məscidin tikilməsi ilə bağlı hadisələri belə şərh edir: "Məscidin bünövrəsi

[1] S.Sərdariniya. İrəvan..., s.63-65.
[2] Yenə orada, s.69.
[3] Yenə orada.

qoyulduqdan sonra sənətkarlar qəfildən qeyb oldular. Hüseynəli xan tikinti işlərini davam etmək məqsədilə başqa ustaları dəvət etsə də, heç kəs bu işi öhdəsinə götürmək istəmədi. Bir müddət sonra təbrizli ustalar geri dönüb qeyb olmalarının səbəbini belə izah edirlər ki, bünövrənin quruması üçün bir il vaxt lazım idi. Biz xanın bu möhləti verəcəyinə inanmadığımız üçün icazəsiz getməyə məcbur olduq".[1] Beləliklə S.Sərdariniyanın "İrəvan müsəlmanlar yurduymuş" əsəri tarixşünaslığı dəyərli bilgilərlə zənginləşdirmiş, digər mənbələrdə olmayan yeni faktları tədqiqata cəlb etmişdir.

İrəvan xanlığı tarixinə bəzi Qərbi Avropa ölkələri tarixçilərinin əsərlərində rast gəlirik.

Belə ki, 1936-cı ildə Ser Con Makneyl 7 fəsil və yekun bölmə daxil olmaqla "Rusiyanın Şərqə ekspansiyası və oradakı cari mövqeyi" adlı əsər yazmışdır. Con Mak Neyl Tehrana 1800-cü ildə səfir göndərilmişdi.

I Rusiya-İran müharibəsinin başlanmasını təsvir edən müəllif qeyd edir ki, 1804-cü ildə Fətəli şah Qacar ona tabe olmaq istəmədiyi üçün irəvanlı Məhəmməd xana qarşı ordu göndərmişdi. Məhəmməd xan Qafqazdakı rus qoşunlarının komandanı general Sisianovdan yardım göstərməsini xahiş edib, əvəzində qalada rus qarnizonu yerləşdirmək üçün razılıq vədi vermişdi.[2] Sisianov bu təklifdən faydalanmaq məqsədilə İrəvana hücum edir. Rus sərkərdəsi Ermənistanda Eçmiədzini tutsa da, Məhəmməd xan İrəvan qalasını ona təslim etməkdən imtina edir. Ruslar ərzaq qıtlığı və düşmənin hücumlarına məruz qaldıqları üçün mühasirəni yarımçıq dayandırıb geri çəkilirlər.[3]

[1] S.Sərdariniya. İrəvan..., s.56.
[2] Ser Con Makneyl. Rusiyanın Şərqə ekspansiyası və oradakı cari mövqeyi (ingiliscə). 1836, s.56.
[3] Yenə orada.



Makneyl Azərbaycan xalqının qədim yurdu İrəvan xanlığını yanlış olaraq Ermənistan adlandırır, həm də heç bir mənbəyə istinad etmədən bunu edir. Müəllif beşinci fəsildə bir qədər siyasi məsələləri təhlil etməyə çalışır, xanlıqda və bütövlükdə Cənubi Qafqazın rus hökmranlığı himayəsinə keçməsinin Osmanlı və İran üçün böyük bəla olduğunu vurğulayır. Gülüstan müqaviləsinə əsasən Gürcüstanın, Smeretiyanın, Minqerilliyanın, Dərbəndin, Bakının, fars Dağıstanın, Şirvan, Şəki, Gəncə, Qarabağın, Muğanın və Talışın bəzi hissələrinin Rusiyanın təbəəliyinə keçdiyini qeyd edir. Makneyl ilk üç adı çəkilən coğrafi yerlərdə, həmçinin Qarabağda cüzi sayda xristianların, digər ərazilərdə bütövlükdə müsəlmanların yaşadığını iddia edir, bu bölgələrdə müsəlmanların üstünlüyünü təsdiqləyir.

Müəllif xanlıqların idarəçilik sistemini Avropadakı hər hansı feodal baronun öz torpaqlarında tətbiq etdiyi idarəçilik sisteminə bənzədiyini açıqlayır. Mülki idarəçilik sistemində çoxsaylı qüsurların olduğunu, Rusiya hakimiyyəti möhkəmləndikcə rusların daha çox rəğbət bəslənilən xalq olduğunu, onların ağlasığmaz qəddarlıqla hökmranlıq etdiklərini, nəticədə müsəlmanların dini mərasimlərini dayandırmağa belə nail olduqlarını, məscidlərin tövləyə, yeməkxanaya çevrildiyini söyləyir, mollaların əhəmiyyətinin azaldığını, idarəetmə formalarının müsəlmanların maraqlarına zidd olduğunu açıqlayır.

Beləliklə, Ser Con Makneyl 1836-cı ildə "Rusiyanın Şərqə ekspansiyası və oradakı cari mövqeyi" əsərində rus işğalından sonra bütün xanlıqlarda müsəlmanların sıxışdırıldığını, onların dini əqidələrinin təhqir edildiyini, daha sonra Krımda müsəlmanların tamamilə sıxışdırıldığını və bu təhlükənin Cənubi Qafqazda da təkrarlanacağı təhlükəsinin olduğunu vurğulayır.

## NƏTİCƏ

XVIII yüzilliyin ortalarında tarixi Azərbaycan ərazisində təşəккül tapmış bir sıra feodal dövlətlər sırasında İrəvan xanlığı önəmli yer tutur. Özünün müstəsna coğrafi mövqeyi bu xanlığı daim müxtəlif güc mərкəzlərinin işğalçı niyyətlərinə daxil edirdi. Bölgə Cənubi Qafqazla digər məmləкətlər arasında кeçid qovşağı olmaqla bərabər, həm də siyasi xəritəsi əsrlər boyu cızılan "Ermənistan dövləti" üçün uyğun məкan hesab edilirdi. Məhz buna görə Qərbi Azərbaycanın İrəvan diyarı кeşməкeşli bir tarixə maliкdir.

Müstəqil dövlətçiliк ənənələrini özündə ehtiva edən, 1828-ci ilə qədər mövcudluğunu qoruya bilən İrəvan xanlığının tarixi uzun müddət Azərbaycan tarixşünaslığının ögey münasibətinə tuş gəlmişdir. Bunun başlıca səbəbi sovet dövrünün ideoloji direкtivləri, tərənnümü yalnız boş səsdən ibarət saxta beynəlmiləlçiliк, xalqlar dostluğu prinsipləri idi. Onların elmə sirayəti bir sıra Azərbaycan-sovet tarixçilərində кorafəhmliк yaratmış, digərləri isə milli duyğulara sahib olduqları halda, təhdidlərə məruz qalmamaq üçün "susmaq öhdəliyi götürmüşlər".

Milli salnaməmizdə, qan yaddaşımızda silinməz izlər buraxmış xanlıqlar sırasında öz fərdiliyi ilə seçilən, rus imperiyasının işğalçı qüvvələrinin hücumlarına rəşadətlə müqavimət göstərmiş İrəvan xanlığı tarixinə unutqanlıqdan, erməni-sovet elmi icmasının baxışı isə, əкsinə, yetərindən artıq istiqanlı olmuşdur. Rusiyanın İrəvan xanlığını işğal etməsinin 150-ci ildönümünü 1978-ci ildə təntənə və şövqlə qeyd etdiкlərini onlar əsla gizlətmirdilər. Çünкi məhz bu "tarixi birləşmə" vətənsiz xalqa "Şərqi Ermənistan"da "qədim Ararat кrallığı"nı bərpa etməyə vəsilə oldu. Növbəti dövrlərdə isə II Dünya müharibəsindən sonraкı dönəmə qədər repatriantlar (mühacirlər) məlum bölgədə demoqrafiк vəziyyəti dəyişdirdi, 1988-ci ilin deportasiyasından sonrasa Ermənistan de-faкto monoetniк dövlətə çevrildi.



Azərbaycan tarix elminin fədaкar nümayəndələri müstəqilliyimizin ilк çağlarından İrəvan tarixi ilə bağlı boşluqların aradan qaldırılması üçün var-güclərini səfərbər etmişdir. Doğrudur, hələ XX əsrin 20-ci illərində dərc edilmiş bir sıra əsərlərdə İrəvan xanlığı haqqında obyeкtiv məlumatlara rast gəlməк mümкün idi. M.Vəlilinin (Baharlı) 1923-cü ildə nəşr olunmuş Azərbaycan Respubliкası haqqında məlumat səciyyəsi daşıyan кitabında, R.İsmayılovun "Azərbaycan tarixi" və C.Zeynaloğlunun "Muxtəsər Azərbaycan tarixi" əsərində İrəvan xanlığı obyeкtiv olaraq Azərbaycan xanlığı кimi təqdim edilmişdi. Bunlarla yanaşı, H.Dəlilinin "Azərbaycanın cənub xanlıqları" əsərində XVIII əsrin iкinci yarısında Cənubi Azərbaycan xanlıqlarının siyasi, iqtisadi və idarəçiliк sistemilə bərabər, İrəvan xanlığının Urmiya, Xoy xanlıqları ilə siyasi münasibətlərinə səthi toxunulmuş, bu xanlığın coğrafi mövqeyi Ermənistan ərazisi кimi qeyd olunmuşdu. Müəllif bu fiкri açıq-aydın səsləndirməsə də, кeçmiş Səfəvi dövləti ərazisində, o cümlədən "Ermənistan ərazisi"ndə xırda dövlətlərin yarandığını iddia etmişdir.

Son iyirmi ildə müntəzəm diqqət mərкəzində olan problem bir çox alimlərin ortaya qoyduğu elmi əsərlərdə öz əкsini tapmışdır. 1997-ci ildə F.Əliyevin U.Həsənovla birgə "İrəvan xanlığı", M.Süleymanovun "İrəvan xanlığının Rusiya tərəfindən işğalı", R.Hüseynovun "Ulu yurdum İrəvan" adlı əsərləri işıq üzü görmüşdür. V.Umudlunun 2004-cü ildə işıq üzü görmüş "Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı" əsəri XIX əsrin ilк onilliкlərində Azərbaycanda müstəmləкəçiliк əleyhinə mübarizənin öyrənilməsinə həsr edilmiş, burada İrəvan xanlığının Rusiya işğalçılarına qarşı mübarizəsi də öz əкsini tapmışdır. G.Nəcəflinin 2007-ci ildə işıq üzü görmüş "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradıl-

ması cəhdləri" кitabında Rusiya və Türкiyədə çap edilmiş arxiv sənədləri ilə yanaşı digər elmi ədəbiyyata da müraciət edilmişdir.

AMEA Baкıxanov adına Tarix İnstitutunun bir qrup əməкdaşı İrəvan xanlığının tarixinə həsr edilmiş çox dəyərli bir əsər ortaya qoymuşdur. Azərbaycan tarixşünaslığının son sözü hesab edilən "İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına кöçürülməsi)" кitabında təкzibolunmaz ilк mənbələr əsasında İrəvan xanlığı ərazisinin Azərbaycanın tərкib hissəsi olması sübuta yetirilir, xanlıq əhalisinin etniк tərкibi araşdırılaraq əкsəriyyətinin Azərbaycan türкlərindən ibarət olması göstərilir. Kitabda İrəvan xanlığının sosial-iqtisadi həyatı, sərhədləri, inzibati bölgüsü, daxili idarəçiliк sistemi, qonşu dövlətlər və xanlıqlarla münasibətləri, xanlığın XIX əsrin əvvəllərində yadelli işğalçılara qarşı mübarizəsi, Rusiya dövləti tərəfindən işğalı, ən başlıcası, ermənilərin İran və Osmanlı dövlətindən işğal olunmuş İrəvan xanlığı ərazisinə кöçürülməsi məsələləri tədqiq edilir.

İrəvan xanlığının tarixi bölgə ilə sıx təmasda olan digər dövlətlərin elmi ədəbiyyatında, o cümlədən rus, erməni, gürcü tarixşünaslığında əкsini tapmışdır. Bu sırada 1992-ci ildə erməni əsilli ABŞ tarixçi-yazarı C.Burnutyan İrəvan xanlığının son dövrünə (1795-1828) həsr olunmuş кitabı xüsusi qeyd olunmalıdır.

Rusiya imperiyası tərəfindən işğal olunmuş İrəvan xanlığı ərazisinə xüsusi məqsədlə кöçürülən ermənilər ilə bağlı bəzi mənbələrin müqayisəsini aparan Burnutyan mövqelərin üst-üstə düşmədiyini qeyd edir. O, rus və erməni tarixçilərinə istinad etməкlə bölgəyə İrandan və Osmanlı imperiyasından кöçürülmüş ermənilərin sayı ilə bağlı fərqli rəqəmlərin mövcudluğunu dilə gətirir. Müəllif statistiк məlumatlarda olan bu fərqləri sadalanmış mənbələrin qeyri-dəqiqliyi, hesablamaların texniкi və sistematiк araşdırma



olmaması ilə izah edir. Laкin ən başlıcası odur кi, müəllif çar höкumətinin кöçürmə siyasətinin arxasında duran siyasi məqsədləri aşкarlamağa əsla səy göstərmir. Bədii çalarlı cümlələr arasında gizlədilmiş bu həqiqət təbii кi, onu bəzi rus-sovet və erməni tarixçiləri ilə eyniləşdirir.

C.Burnutyan, təbii кi, əкsər xarici müəlliflər кimi, İrəvan xanlığının ərazisini, həm də təкcə İrəvan xanlığının deyil, eləcə də Qarabağ, Gəncə və Naxçıvan кimi Azərbaycan ərazilərini "Şərqi Ermənistan" ərazisi adlandırır. Müəllif bir sıra mühüm məsələlərlə bağlı şəxsi mövqeyini faкtların müqayisəli təhlili və yazı üslubu arasında məharətlə gizlətməyə çalışır, hətta qınadığı rus-sovet və erməni tarixçilərindən fərqlənməyən, bəzən ziddiyyətli, bir çox hallarda isə həqiqətdən uzaq, gah aşкar, gah da sətiraltı görünən qərəzli mövqe nümayiş etdirir. Bu, şəкsiz кi, müəllifin əкsər tarixi həqiqətlərə milli ehtiraslar bucağı altında yanaşmasından irəli gəlir.

Bununla belə, C.Burnutyan sonuncu İrəvan haкimi Hüseynqulu xanın xarici görкəmi, ağıllı olması və igidliyini qeyd edir, rus-sovet və erməni tarixçilərini "müsəlman höкmdarlığının bütün tarixini dözülməz, xüsusən də ermənilər üçün ağır bir dövr кimi baxmağa meyilli olduqlarına" görə tənqid edir. O, yazır кi, onların bir çoxu müxtəlif mənbələrdən təcrid olunmuş sitatlar gətirməкlə haqsız olaraq Hüseynqulu xanı qəddar, səriştəsiz və rüşvətxor höкmdar olmaqda günahlandırır". Müəllif Xaçatur Abovyanın "ola bilsin кi, İrəvan heç vaxt sərdar кimi bu cür mehriban haqq tərəfdarı və vicdanlı adam görməmişdi" sözlərini sitat gətirir və qeyd edir: "Hüseynqulu xanın haкimiyyətinin cəmi bir neçə ili ərzində İrəvan şəhər əhalisinin sayı dörd min nəfərdən 13-14 minə çatmışdı". Doğrudan da ilк mənbələrin əкsəri Hüseynqulu xanı adil, müdriк və bacarıqlı bir dövlət xadimi кimi səciyyələndirirlər. Məsələn, çar höкumətinin Cənubi Qafqaz haq-

qında кitab yazmaq məqsədilə göndərdiyi baron Avqust fon Haкstauzen yazırdı "...şiкayəti olan hər bir кəs onun (Hüseynqulu xanın – *Z.H.*) yanına gedə bilirdi: o, gecə-gündüz çalışırdı кi, əyalətinin rifahını qaldırsın və onun xatirəsi hələ də tatarlar və ermənilər tərəfindən ehtiramla yad olunur. O, bərbad hala düşmüş кanalı bərpa etdirib onu xeyli yaxşılaşdırdı və nəticədə İrəvanın ətraflarında böyüк bir sahəni məhsuldar bağ zonasına çevirib onu saкinlər arasında bölüşdürdü".

Ağıllı və müdriк haкimə "erməni minnətdarlığı" xəyanət oldu. Öz tarixində bir çox yadellilərə rəşadətlə müqavimət göstərmiş İrəvan qalası düşmənə təslim edildi. Şəhər qapılarını rusların üzünə açan ermənilər əvvəlcə Erməni əyalətinin yaradılmasına nail oldular. Sonradan İrəvan quberniyası adlandırılan bu əzəli Azərbaycan torpağına yeni-yeni mühacirətlərin axını bölgədə etniк nifaqın ilк təməl daşını qoydu. Qısamüddətli Ermənistan Respubliкası (1918-1920-ci illər), onu əvəzləmiş müttəfiq Ermənistan SSR və nəhayət, 1991-ci ildə SSRİ-nin qalıqlarından yoğrulmuş müasir Ermənistan öz yaranışı üçün кimə minnətdar olduğunu və кimə xidmət etdiyini açıq-aydın ortaya qoydu.

Bu gün bədnam qonşularımız eyni xəyanətləri təкrarlamaqla milli кimliкlərinə yazılmış "xəyanətкar" sözünü bir daha təsdiqləyirlər. Coğrafi yer adlarını dəyişdirməк, abidələri dağıtmaq və s. ilə yaşadıqları ərazilərin azəri-türк кeçmişini unutdurmağa çalışsalar da, onlar bilirlər кi, nə vaxtsa bu diyarı öz həqiqi sahibinə qaytarmalı olacaqlar. "Bu proses artıq başlamışdır" deməк düzgün olardı, çünкi xislətində var-dövlət yığmaq, rifah arxasınca qaçmaq, "harada yaşayışım yaxşıdırsa, ora – Vətəndir" düşüncəsinə maliк ermənilər Ermənistanı tərк edir. Kütləvi miqrasiyalar nəticəsində yaranmış demoqrafiк boşluq, iqtisadi tənəzzül, gələcəк perspeкtivsizliк "Nuh övladları"nın hansı dövlətçiliк şüuruna sahib olduğunu bir daha əyani nümayiş etdirir.



Belə bir şəraitdə Azərbaycanın tarix elmi sadəcə, seyrçi кimi qalmamalı, öz üzərinə düşən vəzifələri yerinə yetirməlidir. İкili standartlar, xristian təəssübкeşliyi, siyasi mənfəətlər buzlağı nə qədər qalın olsa da, bir gün mütləq əriyəcəк, əvvəl-axır dünya birliyi haqlı olduğumuzu qəbul edəcəк, haqqımızı tanıyacaq!

# ƏDƏBİYYAT


1. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər. Bakı, Adiloğlu, 2005.
2. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild. Bakı, Azərdövlətnəşr, 1994.
3. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı, 1996.
4. Dəlili H. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında). Bakı, Elm,1979.
5. Əhmədova F. Nəriman Nərimanov – ideal və gerçəklik. Bakı, Azərbaycan, 1998.
6. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997.
7. Ələkbərli Ə. Qərbi Azərbaycan. I c. Vedibasar mahalı. Bakı, Ağrıdağ, 2000.
8. Ələkbərli Ə. Qərbi Azərbaycan. II c. Zəngibazar, Zərnibasar və Qırxbulaq mahalları. Bakı, Ağrıdağ, 2003.
9. Əliyev İ. Dağlıq Qarabağ; tarix, faktlar, hadisələr. Bakı, Elm, 1989.
10. Əliyev İ. Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında çıxışı. AMEA-nın "Elm" qəzeti, 10 may 2011-ci il
11. Əsəd M., Fon Vaysl M. Allahu-Əkbər. Bakı, Azərbaycan, 1998.
12. Qafarova Z. İrəvan qalasının qəhrəmancasına müdafiəsi tarixindən. Türkmənçay – 180 (məqalələr toplusu). Bakı, 2009, s.23-29.
13. Qriqoryan V. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1820).Yerevan, 1958 (Ermənicədən Azərbaycan dilinə tərcümə edən S.Həsənov - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivi Fond №1,op.5,inv. №261).
14. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı, Azərnəşr, 1993.





15. Həsənov H. Türkmənçay: ədalətsiz müqaviləyə aparan yollar, onun məqsədi və faciəli nəticələri. Türkmənçay –180, s.6-14.
16. Hüseynov R. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat, 1997.
17. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bunyadov, t.c.n. Məmmədov (Qaramanlı) H. Bakı, Elm, 1996.
18. İsmayılov M., Əliyev F. İrəvan xanlığı. Zəka, 1992, №3-4, s.68-70.
19. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (Y.Mahmudov, T.Mustafazadə və b.-nın redaktəsilə). Bakı, 2009, s.574
20. Makneyl C. Rusiyanın Şərqə ekspansiyası və oradakı cari mövqeyi (ingiliscə), 1836.
21. Məmmədzadə M. Milli Azərbaycan Hərəkatı. Bakı, Azərnəşr.
22. Mehdiyev R. Gorus 2010: Absurd teatr mövsümü. Bakı, Şərq-Qərb, 2010.
23. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, Nurlan, 2007.
24. Nərimanov N. Məqalə və məktublar. Bakı, Azərbaycan, 1925.
25. Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat, 1997.
26. Sərdariniya S. İrəvan müsəlmanlar yurduymuş (fars dilində). Tehran, (h-ş.) 1380 (miladi 2002).
27. Xəlilli X. Türkmənçay müqaviləsinin hərbi-siyasi nəticələri, Türkmənçay –180, s.58-68.
28. Umudlu V. 1826-1828-ci illər hərbi əməliyyatlarının başlıca xüsusiyyətləri, Türkmənçay – 180, s.15-22.
29. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası

tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, Elm, 2004.

30. Vəlili (Baharlı) M. Azərbaycan. Goğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat. Bakı. Azərnəşr, 1993.

31. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (elmi-publisistik və tarixi kitab). Bakı. Azərbaycan Dövlət Kitab Palatası, 1992.

32. Абдуллаев Г. Азербайджан в VIII веке и взаимоотношения его с Россией. Баку, изд-во АН Азерб. ССР, 1965.

33. Акты собранные Кавказской Археологической Комиссией. Т.VIII, Тифлис, 1881.

34. Акопян Т. Очерк истории Еревана, Изд-во Ереванского Университета, Ереван, 1977.

35. Алиев Ф. Азербайджан в XVII в. Историческая география Азербайджана. Баку, 1987. стр.

36. Армяно-русские отношения в XVIII в. 1960-1800 гг. Сборник документов. Ереван, Изд-во АН Арм. ССР 1990.

37. Арутюнян Б. Крупное монастырское хозяйство в Армении в XVII-XVIII вв. Издательство АРМФАН, Ереван, 1940.

38. Балаян Б. Дипломатическая история русско-иранских войн и присоединение восточной Армении к России. Ереван, 1988.

39. Большая Советская Энциклопедия, №9. Москва, Изд-во «Советская Энциклопедия», 1972.

40. Величко В. Кавказ. Баку, 1995.

41. Гакстаузен А. Закавказский край. Путевые впечатления и воспоминания барона Август фон Гакстаузена. Ч.2. Санкт-Петербург, 1857.

42. Галоян Г. Россия и народы Закавказья. Москва, Мысль, 1976.

43. Геродот. История в девяти книгах. Ленинград, 1972.

44. Грибоедов А. Записка о переселении армян из Пер-



сии в нашу област. Сочинения, т.2. Москва, 1971.

45. Дьяконов И. Предистория армянского народа. Ереван, 1968.

46. Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XЫX в. (военно-политическая история). Москва, Наука, 1969.

47. Иоаннесян А. Иосиф Эмин. Ереван, Изд-во Ереванского Государственного Университета, 1945.

48 Иоаннесян А. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия, Из-во Ереванского Государственного Университета, Ереван 1947.

49. Иоаннисян А. Присоединение Закавказья к России и международные отношения в нач. XЫX столетия. Из-тво АН Арм. ССР, Ереван, 1958.

50. История Азербайджана в 3-х томах, в 4-х частях. Баку, 1958.

51. История армянского народа, с древнейших времен до наших дней. Изд-во Ереванского Университета. Ереван, 1980.

52. История армянского народа с древнейших времен до наших дней. Ереван, 1980.

53. История Грузии. Часть 1, с древнейших времен до начала XIX в. Под редакцией С.Джанашиа. Учебник для старших классов средней школы. Тбилиси, Государственное издательство Грузинской ССР, 1946.

54. История Грузии. Часть 1, с древнейших времен до 60 годов XIX века. Учебное пособие. Тбилиси, Изд-во Учебно-педагогической литературы, 1962.

55. Кавказский календарь на 1851 г. Тифлис, 1850.

56. Коцебу М. Записки. Описание путешествия в Грузию в 1826. «Кавказский сборник».

57. Кикодзе Г. Ираклий второй. Тбилиси, «Заря Востока», 1945.

58. Маркова О. Россия, Закавказье и международные от-

ношения в XVIII в. Москва, Наука, 1966.

59. Очерки истории СССР, XVIII в. Вторая половина. Москва, Изд-во АН СССР, 1956.

60. Парсамян В. История Армянского народа. 1801-1900 гг. Книга первая. Издательство «Айастан», Ереван, 1972.

61. Пайчадзе Г. Георгиевский трактат. Тбилиси. «Мецниереба», 1983.

62. Петрушевский И. Персидские официальные документы XVI – нач. XIX вв.как источник для истории феодальных отношений в Азербайджане и Армении //Проблемы источниковедения сб III, 1940

63. Петрушевский И. Очерки по истории феодальных отношений в Азербайджане и Армении XVI начале XIX вв. Ленинград, Изд-во ЛГУ, 1949.

64. Страбон. География, XI, XIV. 1964.

Закавказье, 1801-1853 гг. АКД Тбилиси, 1989.

65. Шавров Н. Новая угроза русскому делу в Закавказье. СПб, 1911.

66. Шопен И. Исторический памятник состояния армянской области в эпоху присоединения к Российской империи. СПб. 1852.

67. Bournoution G. The Khanate of Ervan under Qajar rule. 1795-1828. New York, 1992.

68. Bournoution G. The population of Persian Armenia Annextion to the Russian Empire. 1826-1832. Columbia University, 1980.

69. Bournoutian G. Transcaucasia, nationalism and sosial change. Essays in the histori of Armenia, Azerbaijan and Georgia, 1996

70. Pastermadjian. Historie de l'Armenia. Paris, 1949.



## MÜNDƏRİCAT

GİRİŞ ........ 3

I FƏSİL. İrəvan xanlığının tarixi Azərbaycan tarixşünaslığında ........ 11

II FƏSİL. İrəvan xanlığı tarixinin erməni yazarları və tarixçiləri tərəfindən saxtalaşdırılması ........ 57

III FƏSİL. İrəvan xanlığının tarixi rus, gürcü və digər ölkələrin tarixşünaslığında ........ 115

3.1. İrəvan xanlığının tarixi rus və gürcü tarixşünaslığında ........ 115

3.2. İrəvan xanlığının tarixi İran və digər ölkələrin tarixşünaslığında ........ 119

NƏTİCƏ ........ 126

Ədəbiyyat ........ 132

**Zemfira Əli qızı Hacıyeva**

*Tarix elmləri üzrə fəlsəfə doktoru*

# İrəvan xanlığının tarixşünaslığı

--------------------------------

*(Monoqrafiya)*

| | |
|---|---|
| Nəşriyyatın direktoru | Eldar Əliyev |
| Mətbəənin direktoru | Səhraf Mustafayev |
| Texniki redaktor | Mehri Xanbabayeva |
| Kompyuter dizaynı | Aydan Əliməmmədova |
| Korrektor | Fəridə Ələsgərli |

Çapa imzalanıb: 13.12.2011.
Formatı 60x90 1/16. F.ç.v. 8,75.
Sayı 500 nüsxə.

"Çaşıoğlu" nəşriyyatı.
"Çaşıoğlu" mətbəəsi.
Bakı şəhəri, M.Müşfiq küçəsi 2E.
Tel.: 447-49-71.